RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 15 (9760) 24 yanvar 2025-ci il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## İlham Əliyev Rəcəb Tayyib Ərdoğana başsağlığı verib



Yanvarın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.

Dövlətimizin başçısı Türkiyənin Bolu vilayətinin Kartalkaya dağ-xizək mərkəzinin hotelində baş vermiş yanğın nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana dərin hüznlə başsağlığı verib.

O, bu dəhşətli faciədə həlak olanlara Uca Allahdan rəhmət diləyib və xəsarət alanların tezliklə şəfa tapmasını arzulayıb.

Prezident İlham Əliyev yanvarın 21-də faciə ilə əlaqədar Türkiyə Respublikasının Prezidentinə başsağlığı məktubu göndərdiyini də qeyd edib.

Türkiyə Prezidenti diqqətə və başsağlığına görə minnətdarlığını bildirdi və qeyd etdi ki, Türkiyə və Azərbaycan daim bir-birilərinin yanındadırlar, bundan sonra da həmişə belə olacaqdır.

Telefon danışığı əsnasında dövlət başçıları ikitərəfli münasibətlərin müxtəlif sahələrinə dair fikir mübadiləsi apardılar.

***Prezidentin Mətbuat xidməti***




Davos Forumunun keçirilməsində əsas məqsəd dövlət və hökumət başçılarını, beynəlxalq təşkilatları, elm adamlarını, nüfuzlu siyasətçiləri, iqtisadçıları, biznesmenləri birliyə cəlb etmək, onların arasında əlaqə yaratmaq və dünyada yaranmış iqtisadi problemlərin birgə aradan qaldırılmasına nail olmaq, yeni beynəlxalq iqtisadi layihələrin həyata keçirilməsini müzakirə və təşkil etməkdir. Davos İqtisadi Forumunun əhəmiyyətini artıran mühüm göstəricilərdən biri də dünyanın birillik iqtisadi gündəliyinin müəyyən edilməsidir.

Son illərdə keçirilən Davos Forumu isə daha çox qlobal siyasi və iqtisadi kataklizmlərin yaşandığı dövrə təsadüf edir. Dünyanın siyasi qütbləri arasında artan gərginliklər, Avrozonadakı iqtisadi çətinliklər, Yaxın Şərqdə baş verən qarşıdurmalar, Ukrayna müharibəsi Davos Forumunun da gündəliyinə təsir göstərir. Elə 55-ci forum da belə bir qlobal konyunktur şəraitində keçirildi. Təbii ki, bu cür tədbirlər və əvvəldən müəyyən olunmuş mövzuların müzakirəsi sonrakı dövrlərdə qlobal məsələlərə təsirsiz ötüşmür.

Qlobal müzakirələrə Azərbaycan da öz töhfəsini verir. Çünki ölkəmiz dünyada etibarlı tərəfdaş kimi tanınır və qəbul edilir. Forumun sessiyalarında müzakirə olunan məsələlərin təməlində Azərbaycanın mövqeyi və onun qazandığı uğurlar da var. Dünya İqtisadi Forumunda Azərbaycan Prezidenti İlham Əliyevin iştirakına maraq həmişə böyük olub. Bu maraq Prezident İlham Əliyevin keçirdiyi görüşlərdən də aydın görünür. Azərbaycan Prezidentinin hər il keçirilən Davos İqtisadi Forumunda iştirakı dünyanın siyasi elitasının, nəhəng biznes strukturlarının və nüfuzlu KİV-in də diqqət mərkəzində olur. Dövlət başçısının keçirdiyi çoxsaylı görüşlər, iştirak etdiyi sessiyalar siyasi-iqtisadi dairələr, media qurumları tərəfindən maraqla izlənilir.

Əsas diqqətçəkən məqamlardan biri də foruma qatılan ölkələrin Azərbaycanın dünyada və regionda rolunu yüksək qiymətləndirməsi və bəşəriyyəti narahat edən risklərin aradan qaldırılmasında ölkəmizin mövqeyi ilə hesablaşmalarıdır. Bu baxımdan da forum rəhbərliyi hər il yanvar ayında keçirilən toplantıda Azərbaycanın da təmsil olunmasında maraqlıdır.

→ 4

## "Zəngəzur dəhlizi TDT və D-8-ə üzv dövlətlər ilə əlaqələrin inkişafına strateji töhfə verəcək"

Zəngəzur dəhlizinin açılması Orta dəhliz kontekstində mühüm rol oynayaraq iqtisadiyyata əhəmiyyətli təsir göstərəcək və region ölkələri arasında əməkdaşlığı gücləndirəcək. Çinin qlobal iqtisadiyyatda öz təsirini göstərmək üçün hazırladığı yeni "İpək yolu" təkcə Çində deyil, həm də yeni ticarət yollarının keçdiyi ölkələrin iqtisadi inkişafına təkan verəcək. Bu kontekstdə Orta dəhliz və onun əsas komponenti olan Zəngəzur dəhlizi Türkiyə ilə Avropa ölkələri arasında fasiləsiz əlaqəni təmin edir. Hazırkı mərhələdə Zəngəzur dəhlizinə qoşulan Orta dəhlizdən D-8-ə üzv ölkələrin, eləcə də regionun müsəlman ölkələrinin, xüsusilə Türk Dövlətləri Təşkilatının (TDT) iqtisadi fayda əldə edəcəyini proqnozlaşdırmaq olar. İndi Türkiyə üzərindən Orta və Cənubi Asiya ölkələri ilə tikiləcək ticarət körpüsü həm özümüz üçün qarşılıqlı fayda prinsipinə xidmət




edəcək, həm də ötən əsrdə bizi istismar etmək istəyən dövlətlərin qarşısında sədd olacaq. Bu dəhliz boyu yaradılacaq dəmir yolu daşıma marşrutunun iqtisadi töhfəsi qiymətləndirildikdən sonra Zəngəzur dəhlizinin əhəmiyyəti daha aydın görünəcək.

→ 7

## Azərbaycanın etibarlı tərəfdaş olduğu Davosda da etiraf edildi



Davosda Azərbaycan Prezidentinin və Xorvatiyanın Baş nazirinin görüşündə də dövlətimizin başçısı qeyd edib ki, hazırda ölkəmiz 10 Avropa ölkəsinə qaz ixrac edir, onlardan 8-i Avropa İttifaqına üzv ölkələrdir. Azərbaycan Avropa İttifaqı tərəfindən pan-Avropa enerji təchizatçısı kimi qiymətləndirilib. Həmçinin Azərbaycanın bu gün Xorvatiyanın enerji təhlükəsizliyində oynadığı rol, ölkəmizdən Xorvatiyaya neft və qaz ixracı xüsusi vurğulanıb, qaz ixracının həcminin artırılması perspektivləri müzakirə olunub. Xorvatiyaya Azərbaycan qazının ixracı neçə illərdir gözlənilən bir hadisə idi. Bu məsələ iki ölkənin ali rəhbərliyinin qarşılıqlı səfərlərində, "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının hər il Bakıda keçirilən toplantılarında və digər tədbirlərdə daim gündəmdə olub.

→ 4

## Avropa İttifaqı "Binokl diplomatiyası"nı hərbiləşdirir

### Qurumun dırnaqarası missiyasına hərbi elementlər əlavə etmək niyyəti vəziyyəti gərginləşdirmək məqsədi güdür

İkinci Qarabağ müharibəsindən dərhal sonra regiona yerləşmək üçün mənfur planlar cızan Aİ bu məqsədlə dırnaqarası mülki müşahidə missiyasını (əslində, kəşfiyyat missiyası) Azərbaycanla Ermənistan sərhədinə yerləşdirib. 2022-ci ilin dekabrından qısa müddətlik zaman ərzində fəaliyyət üçün işə başlayan bu missiya Azərbaycanın razılığı olmadan hazırda varlığını sürdürür.

Fəaliyyət müddətinin başa çatmasına az qalsa da, Aİ və Ermənistan sözügedən missiyanın müddətinin uzadılması istiqamətində aktiv iş aparırlar və bu il yanvarın 27-dən kəşfiyyat missiyasının mandatının daha iki il müddətinə uzadılacağı gözlənilir.

Bununla bağlı mediada yayılan məlumatlara görə, Brüsseldə bu missiyanın təkcə kəşfiyyat funksiyalarının kifayət etmədiyi qənaətinə gəlinib və buna görə də ona hərbi funksionallıq əlavə edilməli olduğu düşünülüb.

→ 8



## Azərbaycan kolonializmə qarşı mübarizədə dünyada birlik yaranmasını istəyir

### Bu, bəzi xalqların əsarətdən qurtulması üçün vacibdir




2024-cü ilin mayında Fransanın daxili işlər naziri Jerald Darmanen "France-2" telekanalına müsahibəsində Azərbaycanı Yeni Kaledoniyada müstəqillik tərəfdarının etirazlarını dəstəkləməkdə ittiham edərək ölkəmizin guya Fransanın daxili işlərinə qarışdığını bildirmişdir. Fransalı nazir Parisin Ermənistana verdiyi dəstəyə cavab olaraq ölkəmizin Kaledoniya nümunəsindən istifadə etməsini vurğulamışdı. Əsassız ittihamlar bununla da bitməmişdi. Bu il yanvarın 6-da Fransa Prezidenti Emmanuel Makron "Səfirlər Konfransı 2025" tədbirindəki çıxışı zamanı Azərbaycanı ölkəsinin dənizaşırı ərazilərinə müdaxilə etməkdə təqsirləndirmişdi: "Fransa son aylarda bir çox dənizaşırı ərazisində, xüsusilə də Yeni Kaledoniyada Azərbaycan tərəfindən qəbuledilməz müdaxilələrlə üzləşib. Azərbaycan beynəlxalq hüquqa və Ermənistana dəstəyimizlə bağlı bizimlə fikir ayrılıqlarını bununla aradan qaldıra biləcəyini düşünür".

→ 8

# Azərbaycan Respublikası Prezidentinin "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin yaradılması haqqında" 2021-ci il 22 iyun tarixli 1375 nömrəli, "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2022-ci il 21 iyul tarixli 1756 nömrəli, "Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2022-ci il 21 iyul tarixli 1757 nömrəli, "Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2023-cü il 26 may tarixli 2151 nömrəli, "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2024-cü il 1 aprel tarixli 25 nömrəli və "Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2024-cü il 10 iyul tarixli 134 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1.Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1375 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 590 (Cild I); 2024, № 4, maddə 373) ilə təsdiq edilmiş "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi"nə aşağıdakı məzmunda 3.1.16-1 - 3.1.16-3-cü və 4.7.7-1-ci yarımbəndlər əlavə edilsin:

"3.1.16-1. idarə etdiyi çoxmənzilli binaları isti su və istiliklə təchiz etmək, həmin binaların istilik enerjisinə tələbatının ödənilməsini təmin etmək;

3.1.16-2. tikintisini təşkil etdiyi çoxmənzilli binaların idarə edilməsi, ümumi əmlakının (o cümlədən liftlərin) saxlanılması, cari və əsaslı təmiri üzrə xidmət və işlərə görə ödənilən haqq daxil olmaqla, yaşayış sahəsinin saxlanılmasına və təmirinə görə müqavilə ilə müəyyən edilmiş məbləğdə haqq almaq;

3.1.16-3. müvafiq ərazidə müqavilə əsasında isti su və istilik təchizatı xidmətləri göstərmək və bu xidmətlərə görə müqavilə ilə müəyyən edilmiş məbləğdə haqq almaq (o cümlədən bu Nizamnamənin 3.1.16-1-ci yarımbəndində göstərilən hallarda);";

"4.7.7-1.bu Nizamnamənin 3.1.16-2-ci və 3.1.16-3-cü yarımbəndlərində göstərilən müqavilələr üzrə haqların məbləğlərini təsdiq etmək;".

2. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 iyul tarixli 1756 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 745 (Cild I); 2024, № 4, maddə 373) ilə təsdiq edilmiş "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3.1.5-ci və 3.1.11-ci yarımbəndlərə "haqq" sözündən əvvəl "müqavilə ilə müəyyən edilmiş məbləğdə" sözləri əlavə edilsin;

2.2. aşağıdakı məzmunda 4.7.7-1-ci yarımbənd əlavə edilsin:

"4.7.7-1. bu Nizamnamənin 3.1.5-ci və 3.1.11-ci yarımbəndlərində göstərilən müqavilələr üzrə haqların məbləğlərini təsdiq etmək;".

3. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 iyul tarixli 1757 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 746 (Cild I); 2024, № 4, maddə 373) ilə təsdiq edilmiş "Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3.1.5-ci və 3.1.11-ci yarımbəndlərə "haqq" sözündən əvvəl "müqavilə ilə müəyyən edilmiş məbləğdə" sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 4.7.7-1-ci yarımbənd əlavə edilsin:

"4.7.7-1. bu Nizamnamənin 3.1.5-ci və 3.1.11-ci yarımbəndlərində göstərilən müqavilələr üzrə haqların məbləğlərini təsdiq etmək;".

4. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 may tarixli 2151 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 655 (Cild I); 2024, № 4, maddə 343, № 7, maddə 794) ilə təsdiq edilmiş "Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3.1.5-ci və 3.1.11-ci yarımbəndlərə "haqq" sözündən əvvəl "müqavilə ilə müəyyən edilmiş məbləğdə" sözləri əlavə edilsin;

4.2. aşağıdakı məzmunda 4.7.7-1-ci yarımbənd əlavə edilsin:

"4.7.7-1. bu Nizamnamənin 3.1.5-ci və 3.1.11-ci yarımbəndlərində göstərilən müqavilələr üzrə haqların məbləğlərini təsdiq etmək;".

5. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 aprel tarixli 25 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 4, maddə 372) ilə təsdiq edilmiş "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3.1.6-cı və 3.1.12-ci yarımbəndlərə "haqq" sözündən əvvəl "müqavilə ilə müəyyən edilmiş məbləğdə" sözləri əlavə edilsin;

5.2. aşağıdakı məzmunda 4.7.7-1-ci yarımbənd əlavə edilsin:

"4.7.7-1. bu Nizamnamənin 3.1.6-cı və 3.1.12-ci yarımbəndlərində göstərilən müqavilələr üzrə haqların məbləğlərini təsdiq etmək;".

6. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 iyul tarixli 134 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 793) ilə təsdiq edilmiş "Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

6.1. 3.1.5-ci və 3.1.11-ci yarımbəndlərə "haqq" sözündən əvvəl "müqavilə ilə müəyyən edilmiş məbləğdə" sözləri əlavə edilsin;

6.2. aşağıdakı məzmunda 4.7.7-1-ci yarımbənd əlavə edilsin:

"4.7.7-1. bu Nizamnamənin 3.1.5-ci və 3.1.11-ci yarımbəndlərində göstərilən müqavilələr üzrə haqların məbləğlərini təsdiq etmək;".

7. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 yanvar 2025-ci il*

---

# Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 248 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Mühasibat uçotu haqqında" və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1073-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 3 iyun tarixli 248 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 485 (Cild I); 2024, № 2, maddə 145, № 3, maddə 262, № 7, maddə 826) ilə təsdiq edilmiş "Dövlət sirrinə aid edilən məlumatların Siyahısı"nın IV hissəsinin 17-ci bəndinin "Dövlət sirrinə aid edilən məlumatlar" sütunu aşağıdakı redaksiyada verilsin:

"17. Dövlət müdafiə sifarişi planlarını (tapşırıqlarını), silah, hərbi texnika və digər hərbi məhsulların buraxılmasını və göndərilməsini (pul və ya natura ifadəsində), istehsal həcmini, onların buraxılışının istehsal gücünü açıqlayan məlumatlar. Müəssisələr (istehsalçı) tərəfindən silah, hərbi texnika və digər hərbi məhsulların işlənib hazırlanması, istehsalı (istehsalının dislokasiyası), ixracı, satışı, habelə onların istehsalının, ixracının, satışının təşkili barədə, eləcə də həmin müəssisələrin (istehsalçının) qeyd olunanlarla bağlı kooperasiya üzrə əlaqələri və onların maliyyə hesabatları haqqında məlumatlar".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 yanvar 2025-ci il*

---

# Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyul tarixli 1119 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 899 (Cild I); 2024, № 4, maddə 373, № 6 (I kitab), maddələr 654, 675, № 8, maddə 948) ilə təsdiq edilmiş "Dövlət büdcəsindən ayrılmış vəsait hesabına işlərin və xidmətlərin göstərilməsinə görə əlavə dəyər vergisindən azad olunan publik hüquqi şəxslərin siyahısı"nın 48-ci hissəsinin sonundan nöqtə işarəsi çıxarılsın və aşağıdakı məzmunda 49-cu hissə əlavə edilsin:

"49. Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti.".

2. Bu Fərman 2024-cü il sentyabrın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 yanvar 2025-ci il*

---

# "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Bir sıra mərkəzi icra hakimiyyəti orqanlarının strukturlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 14 iyul tarixli 1015 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 3 oktyabr tarixli 761 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Bir sıra mərkəzi icra hakimiyyəti orqanlarının strukturlarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 14 iyul tarixli 1015 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cı il 3 oktyabr tarixli 761 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 10, maddə 1226 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 dekabr tarixli 253 nömrəli Fərmanı) 5-ci hissəsində "202" rəqəmləri "212" rəqəmləri ilə, "867" rəqəmləri "926" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 yanvar 2025-ci il*

---

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 iyul tarixli 270 nömrəli Qərarı ilə təsdiq edilmiş ”Ümumi təhsil müəssisələrinin növlər üzrə Meyarları”nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 10** **Bakı şəhəri, 21 yanvar 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 iyul tarixli 270 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1000 (Cild I); 2024, № 9, maddə 1067, № 11, maddə 1251) ilə təsdiq edilmiş "Ümumi təhsil müəssisələrinin növlər üzrə Meyarları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 7.1.8-ci, 8.1.11-ci və 14.1.6-cı yarımbəndlərdə "İnternat məktəblərinin, internat tipli liseylərin və gimnaziyaların rəhbər işçilərinin, inzibati-təsərrüfat, tədris-köməkçi və xidmətedici heyətinin nümunəvi ştatları haqqında" sözləri "Ümumi təyinatlı internat tipli ümumtəhsil məktəblərinin, inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəblərinin, internat tipli sanator ümumtəhsil məktəblərinin, internat tipli liseylərin və internat tipli gimnaziyaların rəhbər işçilərinin, inzibati-təsərrüfat, tədris-köməkçi və xidmətedici heyətinin nümunəvi ştatları haqqında" sözləri ilə əvəz edilsin, həmin yarımbəndlərin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin.

2. 7.1.9-cu, 8.1.12-ci, 14.1.7-ci yarımbəndlər ləğv edilsin.

3. Aşağıdakı məzmunda 8.1.8-1-ci yarımbənd əlavə edilsin:

"8.1.8-1. sağlam təhsilalanların məktəbə qəbul tarixinə aşağıdakı kateqoriyalardan olan uşaqları əhatə etməsi:

1. ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri olan uşaqlar;

2. valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar;

3. hər iki valideyni (tək valideyni olduqda isə həmin şəxs) aşağıda qeyd olunan kateqoriyaların hər hansı birinə aid olan uşaqlar:

3.1. orqanizmin funksiyalarının 61-80 faiz və ya 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər;

3.2. işsiz kimi qeydiyyatda olanlar;

3.3. əmək pensiyası yaşına çatanlar;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

---

# “Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi - AZPROMO tərəfindən ixracatçılara və investorlara göstərilən xidmətlərin siyahısı”nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 11** **Bakı şəhəri, 22 yanvar 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin - AZPROMO-nun fəaliyyətinin təmin edilməsi və "İxracın və investisiyaların təşviqi sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 451 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 iyul tarixli 1411 nömrəli Fərmanının 4.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi -AZPROMO tərəfindən ixracatçılara və investorlara göstərilən xidmətlərin siyahısı" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

---

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 13 dekabr tarixli 451 nömrəli Qərarı ilə təsdiq edilmiş “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasının yaradılması, Koordinasiya Şurasının iş Qaydası”nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 13** **Bakı şəhəri, 23 yanvar 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 13 dekabr tarixli 451 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 12 (II kitab), maddə 1786 (Cild I) ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasının tərkibi"nin "Koordinasiya Şurasının sədri" hissəsində "Əli Əhmədov" sözləri "Samir Şərifov" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

---

# “Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1188-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 12** **Bakı şəhəri, 22 yanvar 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 25 iyun tarixli 1188-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 627 (Cild I); 2024, № 1, maddələr 110, 124, № 9, maddələr 1061, 1067; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 24 dekabr tarixli 534 nömrəli və 29 dekabr tarixli 558 nömrəli qərarları) ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nın 3.2-ci bəndinin ikinci abzasının ikinci cümləsinə "arayış" sözündən sonra "və ya konsulluq idarələrində nikaha daxil olmaq istəyən Azərbaycan Respublikası vətəndaşlarının konsulluq idarəsinin akkreditə olunduğu, yaxud yerləşdiyi xarici dövlətdə seçdikləri tibb müəssisəsində tibbi müayinədən keçməsi barədə arayış" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 28 aprel tarixli 122 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 5, maddə 610 (Cild I); 2024, № 1, maddə 124) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçmə Qaydası"nın 1.1-ci bəndinə "nikaha" sözündən əvvəl "Azərbaycan Respublikası Ailə Məcəlləsinin 13.5-1-ci maddəsində göstərilən hal istisna olmaqla," sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Leyla Əliyeva Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirilən tədbirdə iştirak edib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva yanvarın 23-də Davosda Dünya İqtisadi Forumu çərçivəsində keçirilən "İnnovasiya və əməkdaşlıq vasitəsilə dayanıqlılığın sürətləndirilməsi" mövzusunda tədbirdə iştirak ediblər.







AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Leyla Əliyeva regiondakı ekoloji problemlərə toxunub, xüsusilə Xəzər dənizində ekoloji vəziyyətin təcili diqqətə ehtiyacı olduğunu bildirib. Qeyd edib ki, son 10 ildə Xəzər dənizinin səviyyəsinin kəskin azalması müşahidə olunur. O, Xəzərin dünyanın ən böyük gölü olduğunu və dünya göllərinin ümumi su ehtiyatlarının 40 faizindən çoxunu təşkil etdiyini vurğulayaraq, onun nadir ekosistemi barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Heydər Əliyev Fondunun vitse-prezidenti Xəzər dənizində müşahidə olunan problemlərin bir sıra canlıların, o cümlədən Xəzər suitisi, nərə və qızılbalıq kimi qiymətli balıq növlərinin populyasiyasına mənfi təsir etdiyini bildirib. Xüsusilə Xəzər suitilərinin sayının əhəmiyyətli dərəcədə azaldığını qeyd edib və bu növün qorunmasının vacibliyini vurğulayıb.

Həmçinin Xəzər dənizində müşahidə olunan kompleks problemlərin elmi şəkildə öyrənilməsi, monitorinqi və onların mümkün həlli yollarına dair təkliflərin irəli sürülməsi məqsədilə IDEA tərəfindən COP29-da təqdim olunan Xəzər Dənizi Tədqiqat Mərkəzinin yaradıldığı tədbir iştirakçılarının diqqətinə çatdırılıb. Mərkəzin regional əməkdaşlığı gücləndirməyə və Xəzər dənizinin gələcək davamlılığını təmin etməyə töhfə verəcəyi qeyd olunub.

Çıxışının yekununda Leyla Əliyeva Xəzər dənizinin nadir ekoloji sisteminin qorunması naminə davamlı monitorinq və təhlillərin aparılmasının, elmi tədqiqatların dəstəklənməsinin vacibliyini vurğulayaraq, beynəlxalq ekspertləri, tədqiqat mərkəzlərinin nümayəndələrini və digər maraqlı tərəfləri bu istiqamətdə birgə layihə və təşəbbüslərlə çıxış etməyə, əməkdaşlıq qurmağa çağırıb.

Qeyd edək ki, dövrün ən aktual problemlərinə innovativ həll yollarını araşdırmaq üçün uzaqgörən liderləri, innovatorları və maraqlı tərəfləri bir araya gətirən tədbirdə müxtəlif ölkələrdən müvafiq sahədə fəaliyyət göstərən təşkilatların yüksəksəviyyəli nümayəndələri çıxış ediblər.

# Cahit BAĞÇI: "Səfir kimi Azərbaycandakı fəaliyyətimi hər zaman qürurla xatırlayacağam"

Yanvarın 23-də xarici işlər naziri Ceyhun Bayramov Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçını Azərbaycandakı diplomatik fəaliyyətinin başa çatması münasibətilə qəbul edib.



Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-Türkiyə müttəfiqliyinin müxtəlif aspektləri, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

C.Bayramov Boluda baş verən faciəvi yanğınla bağlı qardaş Türkiyə Respublikasına bir daha başsağlığı verib, dəhşətli hadisə nəticəsində vəfat edənlərə Allahdan rəhmət, yaralananlara şəfa arzulayıb, Azərbaycanın hər zaman Türkiyə dövləti və xalqının yanında olduğunu vurğulayıb.

Ölkəmizdə səmərəli diplomatik fəaliyyətinə, Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu, müttəfiqliyinə verdiyi töhfələrə görə səfir Cahit Bağçıya təşəkkür edən nazir ona gələcək fəaliyyətində uğurlar arzu edib. Şuşa Bəyannaməsinin imzalanması ilə Azərbaycan-Türkiyə müttəfiqliyinin tarixi dönəmlərində səfir kimi fəaliyyətinin yaddaqalan olduğu xüsusilə qeyd olunub.

Azərbaycan-Türkiyə müttəfiqliyinin siyasi, təhlükəsizlik, iqtisadi, ticarət, investisiyalar, enerji təhlükəsizliyi, nəqliyyat və kommunikasiyalar, humanitar və sair istiqamətlər üzrə uğurlu inkişafının məmnunluq doğurduğu vurğulanıb.

Regional və beynəlxalq təşkilatlar, habelə bir sıra çoxtərəfli formatlar çərçivəsində davamlı dəstək və həmrəyliyimizin əhəmiyyəti qeyd olunub.

Ölkələrimizin geniş anlamda regional və beynəlxalq təhlükəsizliyə töhfə verən birgə fəaliyyətlərin bundan sonra da davam etdiriləcəyinə dair inam ifadə olunub, bu istiqamətdə, Azərbaycanın xüsusilə Yaxın Şərq və Suriyada sabitliyə və humanitar məsələlərin həllinə qardaş Türkiyə ilə birgə dəstək verməyə davam edəcəyi qeyd olunub. Ölkəmizin Afrika qitəsində Türkiyə ilə birgə əməkdaşlığı üçün geniş perspektivlərin olduğu bildirilib.

Cahit Bağçı Türkiyənin qardaş Azərbaycanda səfiri kimi fəaliyyətini hər zaman qürurla xatırlayacağını diqqətə çatdıraraq, göstərilən dəstəyə görə təşəkkür edib, bundan sonra da Azərbaycan-Türkiyə qardaşlıq və müttəfiqliyinə əlindən gələn töhfənin verilməsinə hazır olduğunu bildirib.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan ilə Belarus arasında ikitərəfli əlaqələrin inkişafı ilə bağlı fikir mübadiləsi aparılıb

Yanvarın 23-də xarici işlər naziri Ceyhun Bayramov Belarus Respublikasının ölkəmizdəki səfiri Andrey Ravkovu Azərbaycandakı diplomatik fəaliyyətini başa vurması münasibətilə qəbul edib.



XİN-dən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov səfir Andrey Ravkova Belarusun Azərbaycandakı səfiri olduğu dövrdə səmərəli fəaliyyətinə görə təşəkkür edib, ona gələcək işlərində uğurlar arzu edib.

İki ölkə arasında mövcud strateji tərəfdaşlığın inkişafında ali və yüksəksəviyyəli təmasların, qarşılıqlı səfərlər və beynəlxalq platformalar çərçivəsində fikir mübadilələrinin əhəmiyyəti vurğulanıb.

Xüsusilə, iqtisadiyyat, ticarət, investisiyalar sahəsində əməkdaşlığın geniş perspektivlərinin olduğu bildirilib, bu istiqamətdə Azərbaycan ilə Belarus arasında ticarət-iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın fəaliyyətinin vacibliyi qeyd olunub.

Regional və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək və əməkdaşlığın davam etdirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Səfir Andrey Ravkov ölkəmizdə fəaliyyət göstərdiyi müddətdə qarşılıqlı faydalı əməkdaşlıq və dəstəyə görə təşəkkür edib, Azərbaycan-Belarus strateji tərəfdaşlığının bundan sonra da yüksələn xətt üzrə inkişafına əminliyini ifadə edib.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan ilə İran arasında müxtəlif sahələrdə qarşılıqlı əlaqələrin daha da genişləndirilməsi müzakirə edilib





Yanvarın 22-də Tehran şəhərində Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Birgə Dövlətlərarası Komissiyanın 16-cı iclası keçirilib.

Azərbaycanın İrandakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, iclasda iqtisadiyyat, ticarət-investisiya, neft-qaz, energetika, nəqliyyat-tranzit və humanitar sahələrdə qarşılıqlı əlaqələrin daha da genişləndirilməsi və həyata keçirilən birgə layihələrin davam etdirilməsi üzrə müzakirələr aparılıb.

İclasın yekunu olaraq Azərbaycan Respublikasının Baş nazirinin müavini, komissiyanın Azərbaycan tərəfindən sədri Şahin Mustafayevlə İran İslam Respublikasının yol və şəhərsalma naziri, komissiyanın İran tərəfindən sədri xanım Fərzanə Sadeq anlaşma memorandumunu imzalayıblar.

Səfər çərçivəsində Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev, həmçinin İran İslam Respublikasının Milli Təhlükəsizlik üzrə Ali Şurasının sədri, İran İslam Respublikasının yol və şəhərsalma, neft, energetika nazirləri ilə görüşlər keçirib, ikitərəfli əlaqələr, regional və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# YAP Veteranlar Şurasının iclası keçirilib

Yanvarın 23-də Yeni Azərbaycan Partiyasının (YAP) Veteranlar Şurasının iclası keçirilib.



YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə bildirib ki, iclasın gündəliyinə YAP Veteranlar Şurasının 2024-cü ildə fəaliyyətinin yekunları və 2025-ci il üçün tədbirlər planının müzakirəsi daxildir.

A.Rəhimzadə qeyd edib ki, ötən ilin ən mühüm hadisəsi fevralın 7-də ölkəmizdə keçirilən prezident seçkiləridir. O, Prezident İlham Əliyevin Zəfər seçkisində möhtəşəm qələbəsinin xalqın iradəsinin ifadəsi olduğunu diqqətə çatdırıb. YAP Veteranlar Şurasının sədri qeyd edib ki, bütün dünya bir daha ölkəmizdə Xalq-Lider birliyinin sarsılmazlığına şahid oldu.

A.Rəhimzadə vurğulayıb ki, YAP Veteranlar Şurası 2024-cü il ərzində öz fəaliyyətini partiyanın proqram və Nizamnaməsi çərçivəsində müvafiq tədbirlər planına uyğun həyata keçirib: "Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsinin təşviqi və Prezident İlham Əliyevin milli maraqlara əsaslanan məqsədyönlü siyasətinin geniş təbliği, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması, tarixi və əlamətdar günlərin qeyd olunması istiqamətlərində mühüm tədbirlər keçirilib, gənclərlə silsilə görüşlər təşkil olunub. YAP Veteranlar Şurasının üzvləri paytaxt Bakıda və regionlarda keçirilən tədbirlərdə fəal iştirak ediblər".

2025-ci ilin tədbirlər planına gəlincə, YAP Veteranlar Şurasının sədri il ərzində müxtəlif toplantıların, o cümlədən 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə əlaqədar bu istiqamətdə tədbirlərin keçirilməsinin nəzərdə tutulduğunu və ideoloji məsələlərin daim diqqət mərkəzində olacağını vurğulayıb.

İclasda YAP Veteranlar Şurasının sədr müavini Sədaqət Qəhrəmanova, Şuranın üzvləri Dilarə Seyidzadə, Zərifə Quliyeva, Adilə Abasova, Əli Həsənov, Tahir Quliyev, Şahlar Əsgərov, Vahid Novruzov, Urxan Ələkbərov, Xeyrəddin Qoca və Zahid Xəlilov çıxış ediblər. YAP Veteranlar Şurasının fəaliyyətinə dair ötən ilin yekunları qənaətbəxş qiymətləndirilib, 2025-ci ilin tədbirlər planı ilə bağlı fikir və təkliflər səsləndirilib, müzakirə olunan məsələlərlə bağlı müvafiq qərarlar qəbul olunub.

# *Milli Müdafiə Nazirliyi:* "Türkiyə gələcəkdə də Azərbaycanla birlikdə olacaq"

"Türkiyə gələcəkdə də Azərbaycanla birlikdə olacaq və sıx əməkdaşlıq edəcək". Bu barədə yanvarın 23-də AZƏRTAC-a Türkiyənin Milli Müdafiə Nazirliyindən məlumat verilib.

Milli Müdafiə Nazirliyi faciəli Yanvar hadisələrinin 35-ci ildönümü ilə əlaqədar bir daha Azərbaycan xalqına və rəhbərliyinə başsağlığı verib.

"Qara Yanvar hadisələri zamanı şəhid olmuş azərbaycanlı qardaşlarımızın xatirəsini ehtiramla yad edirik. Ölkələrimizin birliyi və həmrəyliyinin dəyişməz olaraq qaldığını vurğulayırıq", - deyə Türkiyənin Milli Müdafiə Nazirliyi qeyd edib.

Milli Müdafiə Nazirliyi Türkiyə ordusunun regional sülhün və qlobal təhlükəsizliyin təmin edilməsinə verdiyi töhfəyə diqqət çəkib. "Türkiyə Silahlı Qüvvələri Kiprdən Azərbaycana, Liviyadan Bosniya və Herseqovinaya kimi geniş bir ərazidə uğurlu missiyaları yerinə yetirməkdə davam edir. Türkiyə ordusu qardaş və dost ölkələrin ədalətli mübarizəsinə güclü dəstək verir", - deyə nazirlikdən bildirilib.

Türkiyənin Milli Müdafiə Nazirliyi sabitliyə verdiyi töhfə və fikir ayrılıqlarının həlli təşəbbüsləri sayəsində Ankaranın planetin strateji əhəmiyyətli regionunda dialoqun təşviqində əsas rol oynadığını qeyd edib.

Terrorla mübarizə mövzusuna toxunan Milli Müdafiə Nazirliyi təkcə son bir həftədə Türkiyə daxilində və xaricində 69 terrorçunun məhv edildiyini, ümumilikdə isə bu ilin əvvəlindən zərərsizləşdirilən silahlıların sayının 221-ə çatdığını qeyd edib.

# Baş prokuror paytaxtın Qaradağ rayonunda vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.



Yanvarın 23-də Baş prokuror Kamran Əliyev Qaradağ rayon prokurorluğunun inzibati binasında Bakı şəhərinin Qaradağ rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 25 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra Kamran Əliyev prokurorluq əməkdaşlarına konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb, eləcə də prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olaraq işin daha da təkmilləşdirilməsi və səmərəliliyin artırılmasına dair təklifləri dinləyib.

# Azərbaycanın xarici siyasətinin uğurları




# Azərbaycana qlobal maraq hər zaman böyükdür

## Prezident İlham Əliyevin Davosda keçirdiyi görüşlər bunu bir daha təsdiq etdi

İsveçrənin Davos şəhərində yanvarın 21-dən öz işinə başlayan ənənəvi Dünya İqtisadi Forumu maraqlı müzakirələrlə əlamətdar oldu. Sayca 55-ci olan bu forum bu dəfə "İntellektual əsrdə əməkdaşlıq" devizi altında təşkil olunmuşdu. Forumda 130-dan çox ölkədən 2 min siyasətçinin, iş adamının, qeyri-hökumət təşkilatlarının nümayəndələrinin, o cümlədən 60 dövlət və hökumət başçısının iştirakı müzakirə olunan məsələlərə qlobal səviyyədə olan maraqdan xəbər verir.

### Azərbaycan aktual məsələlərin müzakirəsində fəaldır

Davos Forumunun keçirilməsində əsas məqsəd dövlət və hökumət başçılarını, beynəlxalq təşkilatları, elm adamlarını, nüfuzlu siyasətçiləri, iqtisadçıları, biznesmenləri birliyə cəlb etmək, onların arasında əlaqə yaratmaq və dünyada yaranmış iqtisadi problemlərin birgə aradan qaldırılmasına nail olmaq, yeni beynəlxalq iqtisadi layihələrin həyata keçirilməsini müzakirə və təşkil etməkdir. Davos İqtisadi Forumunun əhəmiyyətini artıran mühüm göstəricilərdən biri də dünyanın birillik iqtisadi gündəliyinin müəyyən edilməsidir.

Son illərdə keçirilən Davos Forumu isə daha çox qlobal siyasi və iqtisadi kataklizmlərin yaşandığı dövrə təsadüf edir. Dünyanın siyasi qütbləri arasında artan gərginliklər, Avrozonadakı iqtisadi çətinliklər, Yaxın Şərqdə baş verən qarşıdurmalar, Ukrayna müharibəsi Davos Forumunun da gündəliyinə təsir göstərir. Elə 55-ci forum da belə bir qlobal konyunktur şəraitində keçirildi. Təbii ki, bu cür tədbirlər və əvvəldən müəyyən olunmuş mövzuların müzakirəsi sonrakı dövrlərdə qlobal məsələlərə təsirsiz ötüşmür.

Qlobal müzakirələrə Azərbaycan da öz töhfəsini verir. Çünki ölkəmiz dünyada etibarlı tərəfdaş kimi tanınır və qəbul edilir. Forumun sessiyalarında müzakirə olunan məsələlərin təməlində Azərbaycanın mövqeyi və onun qazandığı uğurlar da var. Dünya İqtisadi Forumunda Azərbaycan Prezidenti İlham Əliyevin iştirakına maraq həmişə böyük olub. Bu maraq Prezident İlham Əliyevin keçirdiyi görüşlərdən də aydın görünür. Azərbaycan Prezidentinin hər il keçirilən Davos İqtisadi Forumunda iştirakı dünyanın siyasi elitasının, nəhəng biznes strukturlarının və nüfuzlu KİV-in də diqqət mərkəzində olur. Dövlət başçısının keçirdiyi çoxsaylı görüşlər, iştirak etdiyi sessiyalar siyasi-iqtisadi dairələr, media qurumları tərəfindən maraqla izlənilir.

Əsas diqqətçəkən məqamlardan biri də foruma qatılan ölkələrin Azərbaycanın dünyada və regionda rolunu yüksək qiymətləndirməsi və bəşəriyyəti narahat edən risklərin aradan qaldırılmasında ölkəmizin mövqeyi ilə hesablaşmalarıdır. Bu baxımdan da forum rəhbərliyi hər il yanvar ayında keçirilən toplantıda Azərbaycanın da təmsil olunmasında maraqlıdır.

### Səmərəli və məhsuldar görüşlər

Davos İqtisadi Forumu siyasi liderlər, biznes dairələrini və vətəndaş cəmiyyəti institutlarını təmsil edən şəxslər arasında görüş üçün fürsətdir. Bu baxımdan məhz qarşı tərəfin müraciətinə əsasən, Prezident İlham Əliyevlə görüşlərin keçirilməsi dövlət başçısına olan qlobal maraqdan xəbər verir. Bu, Prezident İlham Əliyevin yüksək siyasi nüfuzunun göstəricisidir.

Prezident İlham Əliyevin Davosa builki səfəri də ötən illərdə olduğu kimi, olduqca səmərəli və məhsuldar keçdi. Bunu İlham Əliyevin qarşı tərəfin müraciətlərinə əsasən, Almaniya Kansleri Olaf Şolts, İsrail Dövlətinin Prezidenti İsxak Hersoq, Ukrayna Prezidenti Volodimir Zelenski, Latviya Prezidenti Edqars Rinkeviçs, İraq Prezidenti Əbdüllətif Camal Rəşid, Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviç, İraq Kürdüstan Regionunun Baş naziri Məsrur Bərzani, ABŞ-nin Xristian Liderlər Konqresinin rəhbəri Conni Mur, Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odile Reno-Basso, "OliverWyman Group" şirkətinin Baş icraçı direktoru Nik Studer, "The Goldman Sachs Group Inc." şirkətinin qlobal məsələlər üzrə prezidenti Cared Kohen, "DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaim, "Carlsberg Group" şirkətinin Müşahidə Şurasının sədri Henrik Poulsen və Baş icraçı direktoru Yakob Aarup-Andersen ilə keçirdiyi görüşlər də təsdiq edir.

Prezident İlham Əliyevin Davosa builki səfər qrafiki də ötən illərdə olduğu kimi zəngindir. Və bu zənginlik 55-ci dəfə keçirilən Davos İqtisadi Forumunun Azərbaycan üçün uğurlu olacağından xəbər verir. Çünki bu forum Azərbaycanın dünya birliyində və regiondakı yerini və mühüm rolunu, Azərbaycanın inkişafının dayanıqlı olduğunu bir daha beynəlxalq ictimaiyyətə təqdim etdi.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Davos Forumu iqtisadi inkişaf üçün yeni perspektivlər açır

"Prezident İlham Əliyevin öz təsir və əhatə dairəsinə görə dünyanın ən böyük forumu hesab olunan Davos İqtisadi Forumunda iştirakı və dövlət başçıları, aparıcı şirkətlərin rəhbərləri ilə görüşləri ölkəmizin gələcək iqtisadi inkişafı üçün yeni perspektivlər açır. Ulu Öndər Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi illərdə də Azərbaycan bu foruma böyük önəm verib və onun fəal iştirakçılarından olub".



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. Komitə sədri bildirib ki, dünyanın ən nüfuzlu iqtisadi platformalarından sayılan forumda dünya liderləri, ictimai-siyasi xadimlər, görkəmli mütəxəssislər, beynəlxalq səviyyəli şirkətlərin rəhbərləri bir araya gələrək iqtisadiyyatın mövcud durumunu və problemlərini müzakirə edir, əlaqələrin genişləndirilməsi üçün tədbirlər müəyyənləşdirirlər.

Azərbaycan da Davos İqtisadi Forumunda iştirak etməkdə maraqlıdır. Forumun təşkilatçıları da Azərbaycanın bu tədbirə qatılmasını yüksək dəyərləndirir və qarşılıqlı fikir mübadilələrini əhəmiyyətli hesab edirlər. Uzun illərdir bu forumda iştirakımız məqbul sayılır və Azərbaycan öz təşəbbüskarlığı ilə dövlətlər arasında seçilməkdədir: "Ulu Öndər Heydər Əliyev 1995-ci ildə ilk dəfə olaraq bu yüksəksəviyyəli tədbirdə iştirak edib və dövlətimizin mövqeyini ortaya qoyub. Ümummilli Lider hələ o illərdə forumun keçirilməsinin əhəmiyyətini yüksək qiymətləndirmiş, beynəlxalq əlaqələrin genişləndirilməsinin faydalı olduğunu və ölkəmizin iqtisadi gücünün artırılmasına imkanlar yaratdığını bildirmişdi. 2002-ci ildə Nyu Yorkda keçirilən beynəlxalq forumda isə Ulu Öndərimiz dünyanı narahat edən bir çox məsələyə, xüsusilə terrorizmə, separatizmə öz kəskin münasibətini bildirmiş, bu mübarizədə dünya ölkələrinin birləşməsinin vacibliyini qeyd etmişdi. Dahi rəhbər erməni faşizminə diqqəti cəlb etməklə, Azərbaycanın təcavüzə məruz qaldığını dünya ictimaiyyətinə çatdırmışdı". Komitə sədrinin sözlərinə görə, dünyanın əksər ölkə rəhbərlərinin, beynəlxalq təşkilatların təmsilçilərinin iştirak etdiyi belə bir tədbirdə Azərbaycan həqiqətlərini dünyaya bəyan etmək, bunun üçün dövlət rəhbərlərini birliyə səsləmək və müəyyən məqsədlərə nail olmaq, əlbəttə, erməni təcavüzünün kökünü kəsmək üçün əsaslar hazırlamaq baxımından çox əhəmiyyətli idi. Heydər Əliyev bu missiyanı siyasi müdrikliklə yerinə yetirirdi. O, ölkəmizin dünya iqtisadi sisteminə inteqrasiya olunmasının əsasını qoymaqla zamanı qabaqlayır və hazırkı inkişafımız üçün perspektivlər yaradırdı.

Komitə sədri xatırladıb ki, Prezident İlham Əliyev 2007-ci ildən Davos İqtisadi Forumunda iştirak edir və çıxışları, qaldırdığı qlobal məsələlər, verdiyi müsahibələr, keçirdiyi görüşlərlə bu tədbirə yeni ab-hava gətirir. Əlbəttə, bu, Azərbaycanın beynəlxalq aləmdə qazandığı yüksək nüfuza yeni bir töhfədir. Azərbaycanın Cənubi Qafqazda lider kimi tanınması, sosial-iqtisadi sahədə qazanılan uğurlu nəticələr, ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasındakı rolu, beynəlxalq əməkdaşlığa imkanlar yaradılması və bu məqamların, nəticələrin bəyan edilməsi, qiymətləndirilməsi, gələcək inkişaf üçün stimul yaratması yeni uğurlara hesablanıb və bunun əsasında dövlət başçısının siyasi kursu durur.

Tahir Rzayev qeyd edib ki, Davos Forumunun regional iclasının 2013-cü ildə Bakıda keçirilməsi Azərbaycanın nəinki iqtisadi, eləcə də beynəlxalq əməkdaşlıq sahəsində ən layiqli və etibarlı tərəfdaş olduğunu dünyaya sübut edib və ölkəmizin imkanlarını daha da genişləndirib: "Cənab İlham Əliyevin Davosa builki səfəri və tədbirdə fəal iştirakı bunun əyani nümunəsidir. Prezidentimizin İsrailin, İraqın, Latviyanın prezidentləri, Almaniyanın kansleri, bir çox tanınmış şirkət rəhbərləri ilə görüşləri, CGTN telekanalına verdiyi müsahibə dünyanın diqqət mərkəzindədir. Bu görüşlərdə dünyanı narahat edən məsələlər, iqtisadiyyatın şaxələndirilməsi, investisiyaların cəlb edilməsi, sərmayələrin artırılması, əməkdaşlığın daha da genişləndirilməsi, biznes mühitinin formalaşdırılması, iş adamları arasında birbaşa təmasların yaradılması, forumların keçirilməsi əsas müzakirə mövzusu olub".

T.Rzayev bildirib ki, Prezident İlham Əliyevin Almaniyanın kansleri Olaf Şoltsla görüşü xüsusi maraq doğurub. Görüşdə Azərbaycan-Almaniya münasibətlərinin yaxşılaşdırılması, əlaqələrin genişləndirilməsinin önəmi vurğulanıb. Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığının inkişaf etdirilməsi müzakirə edilib və perspektivlər nəzərdən keçirilib. Cənubi Qafqaz regionunda sülhün və əmin-amanlığın təmin olunmasının əhəmiyyəti və zəruriliyi bildirilib, bu istiqamətdə səylərin artırılması və qüvvələrin birləşdirilməsi vacib hesab edilib.

Sonda komitə sədri vurğulayıb ki, Davos İqtisadi Forumu və dövlətimizin başçısının tədbirdə fəal iştirakı ölkəmizin gələcək inkişafı, özünü daha yaxından tanıtdırması, gələcək mühüm layihələrdə iştirak etməsi üçün imkanlara sahib olması baxımından çox əhəmiyyətlidir. Dövlətimiz və rəhbərimiz bu imkanları dəqiq müəyyənləşdirdiyinə görədir ki, Azərbaycan nəinki regionda, eləcə də dünyada öz yeri, sözü və uğurları olan bir dövlət kimi tanınır, seçilir və qiymətləndirilir.

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# Azərbaycanın etibarlı tərəfdaş olduğu Davosda da etiraf edildi

## Xorvatiyaya qaz ixracı Avropanın enerji təchizatında ölkəmizin rolunu daha da artırıb

Məlum olduğu kimi, Davosda Dünya İqtisadi Forumunda iştirak edən Prezident İlham Əliyev qarşı tərəfin müraciəti əsasında Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviç ilə görüşüb. Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi mövzusu öndə olub.

Azərbaycan Prezidenti və Xorvatiyanın Baş naziri iki ölkənin münasibətlərinin mövcud səviyyəsini yüksək qiymətləndirib, xüsusilə enerji sahəsində olan əməkdaşlığı qeyd ediblər.

Xatırladaq ki, keçən il sentyabrın 1-dən Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) Xorvatiyaya qaz təchizatına başlayıb. Bu barədə qurumun rəsmi saytında yer alan məlumatda bildirilib ki, Azərbaycan və Xorvatiya hökumətləri arasında mövcud olan uğurlu əməkdaşlıq nəticəsində qış mövsümü ərəfəsində Azərbaycan qazının PPD şirkəti və MET Qrup vasitəsilə Xorvatiyaya çatdırılması ölkəmizin Avropanın etibarlı enerji tərəfdaşı və qaz təchizatçısı kimi rolunu daha da möhkəmləndirir. Başqa sözlə, Azərbaycan və Xorvatiya arasında enerji sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm addım olan bu hadisə SOCAR-ın Avropa daxili bazarları üçün enerji mənbələrinin şaxələndirilməsi üzrə öhdəliyinə sadiqliyini nümayiş etdirməklə qitənin enerji təhlükəsizliyinin gücləndirilməsinə xidmət edir.

Beləliklə, Xorvatiya Azərbaycan qazını alan 10-cu ölkə olub. Bir daha qeyd edək ki, qaz təchizatları sayəsində SOCAR öz ixrac istiqamətlərini şaxələndirməyə davam edir. İndi Azərbaycandan artıq 12 ölkə mavi yanacaq alır. Bunlar Gürcüstan, Türkiyə, İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya və Slovakiyadır.

Slovakiya hələlik sonuncu idxalçıdır. Belə ki, keçən il dekabrın 1-dən SOCAR tərəfindən Slovakiyanın ən böyük dövlət enerji təchizatçısı olan SPP şirkətinə qaz təchizatına başlanılıb. SOCAR-dan verilən məlumata görə, qaz təchizatı bu şirkət və SPP arasında qısamüddətli pilot müqavilə əsasında reallaşdırılan əməkdaşlıq çərçivəsində həyata keçirilir. Şirkətlər daha uzunmüddətli enerji tərəfdaşlığını inkişaf etdirməyi hədəfləyirlər.

Elə Davosda Azərbaycan Prezidentinin və Xorvatiyanın Baş nazirinin görüşündə də dövlətimizin başçısı qeyd edib ki, hazırda ölkəmiz 10 Avropa ölkəsinə qaz ixrac edir, onlardan 8-i Avropa İttifaqına üzv ölkələrdir. Azərbaycan Avropa İttifaqı tərəfindən pan-Avropa enerji təchizatçısı kimi qiymətləndirilib. Həmçinin Azərbaycanın bu gün Xorvatiyanın enerji təhlükəsizliyində oynadığı rol, ölkəmizdən Xorvatiyaya neft və qaz ixracı xüsusi vurğulanıb, qaz ixracının həcminin artırılması perspektivləri müzakirə olunub. Xorvatiyaya Azərbaycan qazının ixracı neçə illərdir gözlənilən bir hadisə idi. Bu məsələ iki ölkənin ali rəhbərliyinin qarşılıqlı səfərlərində, "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının hər il Bakıda keçirilən toplantılarında və digər tədbirlərdə daim gündəmdə olub.




Məsələn, 2018-ci il sentyabrın 6-da Xorvatiyaya rəsmi səfəri zamanı Prezident İlham Əliyev mətbuata bəyanatında demişdir: "Əlbəttə ki, bizim energetika sahəsində əməkdaşlığımız çox önəmlidir. Azərbaycan "Cənub qaz dəhlizi"nin icrası ilə çox fəal məşğuldur, bu nəhəng layihənin təşəbbüskarı olmuşdur. Bu layihə 7 ölkəni birləşdirir, Bakıdan Avropaya qədər 3500 kilometr uzunluğunda qaz kəmərinin çəkilişini və Azərbaycanın nəhəng "Şahdəniz" yatağının işlənilməsini nəzərdə tutur. Dörd seqmentdən ibarət olan bu layihə uğurla icra edilir. Bu ilin mayında "Cənub qaz dəhlizi"nin rəsmi açılışı olmuşdur. İyun ayında isə biz TANAP layihəsinin açılışını qeyd etdik. Beləliklə, əminəm ki, yaxın iki il ərzində Azərbaycan qazı ilk dəfə olaraq Avropa məkanına çatdırılacaq. Beləliklə, Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə veriləcək və Azərbaycan öz qaz potensialını daha da böyük həcmdə dünyaya, Avropaya təqdim edə bilər. Əlbəttə ki, Xorvatiya ilə bu sahədəki əməkdaşlıq çox önəmlidir. Bakıda dörd il ardıcıllıqla "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının toplantıları keçirilir. Xorvatiya bu toplantılarda yüksək səviyyədə təmsil olunur. Bizim aramızda bu məsələ ilə bağlı memorandum da imzalanmışdır. İon-Adriatik qaz kəmərinin tikintisi ilə bağlı çox əhəmiyyətli danışıqlar aparılmaqdadır. Azərbaycanın qaz ehtiyatları çox böyükdür. Təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Bu onu göstərir ki, biz qaz hasilatının artırılması ilə bağlı əlavə addımlar atacağıq və ixrac coğrafiyasını da genişləndirmək fikrindəyik".

İndi bunlar reallıqdır, yəni ixrac coğrafiyamız genişlənib və bu proses davam edir. Üstəlik, qaz ixrac etdiyimiz ölkələr aldıqları yanacağın artırılmasını istəyirlər və bu cərgədə dost Xorvatiya da var.

Deyilənlərə əlavə edək ki, keçən il Azərbaycan Avropaya qısa və uzunmüddətli müqavilələr üzrə 12,9 milyard kubmetr təbii qaz ixrac edib. İlin son günü "Cənub qaz dəhlizi"nin Avropa qolu olan Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) istifadəyə verilməsinin dörd ili tamam olub və bu xətlə qoca qitəyə göndərilən mavi yanacağın həcmi 42,8 milyard kubmetrə çatıb.

***Flora SADIQLI, "Azərbaycan"***



# 29 yanvar bələdiyyə seçkiləri günüdür

## YAP Mərkəzi Aparatında müşavirə keçirilib

**Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar yanvarın 23-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında seçkilərin keçiriləcəyi bütün seçki dairələrində səsvermə günü müşahidə aparacaq şəxslərlə müşavirə keçirilib.**





Müşavirədə seçki prosesində müşahidəçilik institutunun rolu və əhəmiyyəti, müşahidəçilərin hüquq və vəzifələri barədə ətraflı məlumat verilib, qanunvericiliyin tələblərinə ciddi riayət olunmasının zəruriliyi vurğulanaraq tövsiyə və tapşırıqlar diqqətə çatdırılıb, Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanmış müvafiq yaddaş kitabçaları onlara təqdim edilərək bələdiyyə seçkilərinin azad, şəffaf, ədalətli və demokratik keçirilməsi üçün üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələcəklərinə əminlik ifadə olunub.

## Bələdiyyə seçkiləri ilə əlaqədar veb-kameralara texniki nəzarət mərkəzinə baxış olub

Qarşıdan gələn bələdiyyə seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayev yanvarın 23-də komissiyanın inzibati binasında yerləşən veb-kameralara texniki nəzarət mərkəzinə baxış keçirib, veb-kameraların quraşdırılması istiqamətində reallaşdırılan son hazırlıq işləri ilə tanış olublar.





AZƏRTAC xəbər verir ki, bələdiyyə seçkilərində veb-kameraların tətbiqini birgə layihə çərçivəsində və sıx əməkdaşlıq şəraitində gerçəkləşdirən qurumların rəhbərlərinə veb-kameraların quraşdırılması, tənzimlənməsi və seçki gününə tam hazır vəziyyətə gətirilməsi ilə bağlı atılan yekun addımlar barədə məlumat verilib. Sözügedən fəaliyyəti həyata keçirən mütəxəssislərlə söhbət zamanı veb-kameraların seçkilərin şəffaflığının təmin olunmasındakı mühüm rolu bir daha vurğulanaraq, veb-kameraların quraşdırılması və tənzimlənməsi prosesində qanunvericiliyin tələblərinə dəqiqliklə əməl edilməsinin vacibliyi diqqətə çatdırılıb və zəruri tövsiyələr verilib.

Media subyektləri nümayəndələrinin bilavasitə iştirakı ilə baş tutan tədbirdə jurnalistlər üçün brifinq də keçirilib.

Bildirilib ki, Azərbaycanda keçirilən seçkilərdə bütün digər vasitələrlə yanaşı, informasiya-kommunikasiya texnologiyalarının ən son innovativ nailiyyətlərindən geniş və səmərəli istifadə edilməklə, səsvermə günü də aşkarlığın və şəffaflığın böyük miqyasda təminatına nail olunub.



Xüsusilə qeyd edilib ki, ölkəmizin seçki praktikasında uzun illərdir müvəffəqiyyətlə tətbiq olunan veb-kamera təcrübəsi seçki günü səsvermə məntəqələrində proseslərin gedişinin internet üzərindən hamı üçün açıq platformada tam şəkildə, arasıkəsilmədən, habelə real vaxt rejimində dünyanın istənilən yerindən və heç bir qeydiyyat tələb olunmadan müşahidə etmək imkanı yaradır. Müxtəlif kateqoriyalı aşkarlıq institutlarının seçki prosesində rahat, asan iştirakı və sərbəst fəaliyyətləri üçün yaradılan hərtərəfli və geniş şərait baxımından Azərbaycan öncül ölkələrdən biridir.

O da diqqətə çatdırılıb ki, Mərkəzi Seçki Komissiyası veb-kameraların səsvermə günü aşkarlığın və şəffaflığın təmin olunmasındakı müstəsna rolunu nəzərə alaraq, qarşıdan gələn bələdiyyə seçkilərində də 118 seçki dairəsi üzrə 1000 seçki məntəqəsində veb-kamera quraşdırılmasına qərar verib və həmin məntəqələrin siyahısı rəsmi dərc olunub. Seçki günü internet istifadəçiləri istər ölkə daxilindən, istərsə də xaricdən Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsinə daxil olaraq, heç bir qeydiyyat tələb olunmadan, müasir standartlara cavab verən və ən yüksək görüntü effektinə malik bu veb-kameralar vasitəsilə seçki məntəqəsindəki bütün prosesləri - səsvermə, səslərin sayılması və nəticələrin müəyyənləşdirilməsini canlı və fasiləsiz müşahidə edə bilərlər. Brifinqdə həmçinin bələdiyyə seçkiləri ilə bağlı tamamilə yekunlaşmaqda olan hazırlıq işlərinin gedişatı barədə məlumat verilib və media mənsublarının sualları cavablandırılıb.

*MSK sədri:*

## "Bələdiyyə seçkiləri Azərbaycan ictimaiyyətində xüsusi maraq doğurur"



"Bələdiyyə seçkiləri Azərbaycan ictimaiyyətində xüsusi maraq doğurur. 685 bələdiyyəyə 8071 üzv seçilməlidir. Adları bülletenlərə salınan namizədlərin sayı isə bundan iki dəfədən çox - 16 mindən artıqdır".

AZƏRTAC xəbər verir ki, bu barədə Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov jurnalistlərə açıqlamasında bildirib.

O deyib ki, Azərbaycanda fəaliyyət göstərən 26 siyasi partiyanın 23-ü bələdiyyə seçkilərində öz namizədləri ilə fəal iştirak edir.

M.Pənahov vurğulayıb ki, 9 qeyri-hökumət təşkilatının təmsilçiləri həm namizəd, həm də müşahidəçi kimi qeydə alınıblar.

## Şəmkirdə məntəqələr seçki gününü gözləyir

Yanvarın 29-da keçiriləcək bələdiyyə seçkiləri yaxınlaşdıqca, dairə və məntəqələrdə fəallıq daha da artır. Seçkilərin şəffaf və demokratik keçməsi, eləcə də seçicilərin məntəqələrə gələrək sərbəst şəkildə istədikləri namizədə səs vermələri üçün artıq son tamamlama işləri də görülüb.



Bu baxımdan 103 saylı Şəmkir Kənd Seçki Dairəsi də istisna deyil. Dairə seçki komissiyasının sədri Rafiq Məmmədov dedi ki, sakinlər bu seçkilərdə də yüksək fəallıq nümayiş etdirəcəklər. Son dəqiqləşdirməyə əsasən, dairəni əhatə edən ərazidə fəaliyyət göstərən 48 məntəqə üzrə 53 min 514 seçici qeydə alınıb 5 məntəqədə veb-kamera quraşdırılıb, bir neçə məntəqədə qeydə alınmış əlil seçicilər üçün panduslar quraşdırılıb.

Dairə sədrinin sözlərinə görə, səsvermənin mütəşəkkil keçməsi üçün məntəqə sədrləri və üzvləri maarifləndirici treninqlərdə iştirak etmişlər. Onlara namizədlər üçün seçkiqabağı təşviqat aparmalarına şərait yaradılması, bildirişlərin seçicilərə çatdırılması, metodiki və əyani vasitələrdən istifadə etməklə seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə prosesi, səsvermə günü müstəsna hallar, eləcə də seçki protokollarının doldurulması və digər məsələlərlə bağlı ətraflı məlumatlar verilmişdir.

Onu da bildirək ki, dairədə seçkilərə hazırlıq MSK-nın təqvim planına uyğun aparılmışdır. Seçkilərin şəffaf və azad keçməsi üçün bütün işlər vaxtında görülmüşdür. Daşınan və daşınmayan seçki qutuları, onların möhürləri gətirilmiş, bütün məntəqələr rabitə avadanlığı, internet şəbəkəsi, elektrik generatorları ilə təmin edilmişlər. Seçki siyahılarında dəqiqləşdirmələr aparılmışdır.

Məntəqələrdə müşahidəçilər üçün də lazımi şərait yaradılmışdır. Son məlumata görə, dairə üzrə seçkini izləmək üçün 508 müşahidəçi qeydiyyatdan keçmişdir.

Dairə üzrə bələdiyyə üzvü olmaq üçün 87 yer uğrunda 168 namizəd mübarizə aparacaq. Namizədlərin təbliğat və təşviqat aparmaları üçün ərazidə hər cür şərait yaradılmışdır. Əhalinin sıx olduğu yerlərdə onların şəkilləri vurulmuş, seçkilərə çağırışı əks etdirən plakatlar asılmışdır. Bundan başqa, ilk dəfə səs verəcək gənclərlə, eləcə də yaşı 80-i keçən ahıl seçicilərlə görüşlər keçirilmiş, onlara bu seçkilərdə fəal iştirak etmələrinin vacibliyi bildirilmişdir. Bir sözlə, 103 saylı Şəmkir Kənd Seçki Dairəsində bələdiyyə seçkilərinə ciddi hazırlıq işləri görülmüşdür ki, bu da seçkilərin mütəşəkkil keçməsinə imkan yaradacaq.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Bölgələrdə treninqlər davam edir

### Sabirabad

Yanvarın 29-da keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar 67 saylı Sabirabad Seçki Dairəsinin dairə seçki komissiyasında aşağı seçki komissiyalarının üzvləri üçün maarifləndirici treninqlər davam edir. Treninqlər gündə iki dəfə olmaqla, beşgünlük nəzərdə tutulub.

Dairə seçki komissiyasından AZƏRTAC-a bildirilib ki, treninqlər seçki məntəqələrinin sədr, katib və komissiya üzvləri cəlb olunmaqla, Mərkəzi Seçki Komissiyası tərəfindən tərtib edilmiş xüsusi proqram əsasında aparılır. Məşğələlər zamanı iştirakçılara seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə günü prosedurları, səslərin hesablanması, səsvermənin nəticələri haqqında protokolun doldurulması və digər məsələlər barədə metodiki məlumat və tövsiyələr verilir, komissiya üzvlərinin sualları cavablandırılır.



Hər bir iştirakçıya Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar təqdim olunur.

Qeyd edək ki, sözügedən dairə üzrə 50 seçki məntəqəsi var. Ümumilikdə seçki dairəsi üzrə 54 min 740 seçici qeydə alınıb ki, onlardan 238 nəfəri ilk dəfə səsvermə hüququna malik olan seçicilərdir. Seçki dairəsi üzrə 188 namizəd qeydə alınıb.

### Salyan

Yanvarın 29-na təyin olunmuş bələdiyyə seçkiləri ilə əlaqədar 64 saylı Salyan Seçki Dairəsinin dairə seçki komissiyasında aşağı seçki komissiyalarının üzvləri üçün gündə iki dəfə olmaqla, dördgünlük maarifləndirici treninqlər keçirilir.

Dairə seçki komissiyasından AZƏRTAC-a bildirilib ki, treninqin sonuncu günü - yanvarın 23-də seçki məntəqələrinin sədr, katib və komissiya



üzvlərinə Mərkəzi Seçki Komissiyası tərəfindən tərtib edilmiş xüsusi proqram əsasında ətraflı məlumat verilib. Tədris edilən məşğələlər zamanı iştirakçılara seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə günü prosedurları, səslərin hesablanması, səsvermənin nəticələri haqqında protokolun doldurulması və digər məsələlər barədə metodiki məlumat və tövsiyələr verilib, komissiya üzvlərinin sualları cavablandırılıb.

Hər bir iştirakçıya Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar təqdim olunub.

Qeyd edək ki, sözügedən dairə üzrə 48 seçki məntəqəsi var. Ümumilikdə seçki dairəsi üzrə 50 min 531 seçici qeydə alınıb ki, onlardan 261 nəfəri ilk dəfə səsvermə hüququna malik olan seçicilərdir. Seçki dairəsi üzrə 199 namizəd qeydə alınıb. Seçki prosesini izləmək üçün 520 müşahidəçi qeydiyyatdan keçib.

### Tərtər

Mərkəzi Seçki Komissiyasının maarifləndirmə proqramı çərçivəsində təşkil edilən treninqlərə 97 saylı Tərtər-Ağdərə-Goranboy seçki dairəsinin 50 məntəqəsi üzrə ümumilikdə aşağı seçki komissiyalarının 300 üzvü cəlb edilib.



Dairə seçki komissiyasının sədri Həmid Mehdiyev bildirib ki, treninqlər Mərkəzi Seçki Komissiyasının (MSK) təşkil etdiyi "Trenerlər üçün treninq" təlim kurslarında iştirak etmiş Zaur Kərimov və Qalib Cavadov tərəfindən aparılır. Gün ərzində iki dəfə olmaqla, keçirilən treninqlərdə iştirakçılara slaydların köməyi ilə seçki günü məntəqə seçki komissiyası üzvlərinin rol və vəzifələri, seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə günü prosedurları, səslərin hesablanması, səsvermənin nəticələri haqqında protokolun doldurulması və digər məsələlər barədə metodiki məlumat və tövsiyələr verilir. Treninq zamanı müzakirələr aparılır, iştirakçıları maraqlandıran suallar cavablandırılır. Aşağı seçki komissiyası üzvlərinə Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar da təqdim olunur. Treninqlər yanvarın 24-də başa çatacaq.

Qeyd edək ki, 97 saylı Tərtər-Ağdərə-Goranboy seçki dairəsində yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri 50 məntəqədə keçiriləcək. Məntəqələrin 4-ü Goranboy, 46-sı isə Tərtər rayonu ərazisində yerləşir. Dairə üzrə 8 bələdiyyəyə, ümumilikdə, 94 üzv seçiləcək. Qeydə alınan namizədlərin sayı 185 nəfərdir.

### Mingəçevir

Yanvarın 29-na təyin olunmuş bələdiyyə seçkiləri ilə əlaqədar 54 saylı Mingəçevir seçki dairəsinin dairə seçki komissiyasında aşağı seçki komissiyalarının üzvləri üçün maarifləndirici treninqlər davam edir.



Dairə seçki komissiyasından verilən məlumata görə, 19, 21, 22, 23 yanvar tarixlərini əhatə etməklə gün ərzində iki dəfə keçirilən təlimlərdə ümumilikdə 230 nəfərin iştirakı nəzərdə tutulub. Treninqlər məntəqə seçki komissiyalarının sədrləri, katibləri və üzvləri cəlb olunmaqla, Mərkəzi Seçki Komissiyası tərəfindən tərtib edilmiş xüsusi proqram əsasında keçirilir. İştirakçılara seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə günü prosedurları, səslərin hesablanması, səsvermənin nəticələri haqqında protokolun doldurulması və digər məsələlər barədə metodiki məlumat və tövsiyələr verilir, komissiya üzvlərinin sualları cavablandırılır. Hər bir iştirakçıya Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar təqdim olunur.

Qeyd edək ki, sözügedən dairə üzrə 40 seçki məntəqəsi var. Seçki dairəsi üzrə ümumilikdə 50 min 269 nəfər seçici qeydə alınıb. Dairənin ərazisində 1 bələdiyyə üzrə qeydə alınan namizədlərin sayı isə 44 nəfərdir.

### Saatlı

66 saylı Saatlı Seçki Dairəsinin dairə seçki komissiyasında aşağı seçki komissiyalarının üzvləri üçün maarifləndirici treninqlər davam edir. Treninqlər gündə iki dəfə olmaqla, dörd gün nəzərdə tutulub.



Dairə seçki komissiyasından bildirilib ki, treninqlər seçki məntəqəsinin sədr, katib və komissiya üzvləri cəlb olunmaqla, Mərkəzi Seçki Komissiyası tərəfindən tərtib edilmiş xüsusi proqram əsasında aparılır. Tədris edilən məşğələlər zamanı iştirakçılara seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə günü prosedurları, səslərin hesablanması, səsvermənin nəticələri haqqında protokolun doldurulması və digər məsələlər barədə metodiki məlumat və tövsiyələr verilir, komissiya üzvlərinin sualları cavablandırılır.

Hər bir iştirakçıya Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar təqdim olunur.

Qeyd edək ki, sözügedən dairə üzrə 47 seçki məntəqəsi var. Ümumilikdə seçki dairəsi üzrə 48 min 8 seçici qeydə alınıb ki, onlardan 365 nəfəri ilk dəfə səsvermə hüququna malik olan seçicilərdir. Seçki dairəsi üzrə 197 namizəd qeydə alınıb.

# Aqrar siyasət komitəsinin yaz sessiyasında ilk iclası keçirilib



Yanvarın 23-də Milli Məclisin Aqrar siyasət komitəsinin 2025-ci ilin yaz sessiyasında ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclası açan komitə sədri Tahir Rzayev iclasın gündəliyinə 2 məsələnin daxil edildiyini söyləyib. O, əvvəlcə gündəliyin birinci məsələsini - Milli Məclisin Aqrar siyasət komitəsində 2024-cü ilin payız sessiyası dövründə görülən işlər barədə hesabatı təqdim edib. Bildirilib ki, komitənin ötən sessiya ərzində 10 iclası keçirilib və həmin iclaslarda digər məsələlərə baxılmaqla yanaşı, 8 qanun layihəsi qəbul edilib.

Payız sessiyası dövründə komitə sədri və üzvləri bir sıra tədbirlərdə, görüşlərdə, o cümlədən COP29 çərçivəsində keçirilən tədbirlərdə fəal iştirak ediblər, mütəmadi olaraq şəhid ailələrinin üzvləri, qazilər və seçicilərlə görüşüblər. Hesabat dövründə komitəyə daxil olmuş 50-yə yaxın ərizə, məktub və müxtəlif xarakterli sənədlərə baxılıb və müvafiq tədbirlər görülüb.

Aqrar siyasət komitəsinin 2025-ci ilin yaz sessiyası üçün iş planının layihəsi barədə Tahir Rzayev bildirib ki, qarşıdakı sessiyada qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan qanun layihələrinin müzakirəsi, bir sıra qanunlara dəyişikliklər edilməsi, həmçinin aqrar sahəyə dair müvafiq qurumlarla görüşlərin keçirilməsi və digər məsələlər nəzərdə tutulub.

Gündəlikdəki məsələlərin müzakirəsində komitə sədrinin müavini Razi Nurullayev, komitə üzvləri Eldar İbrahimov, Cavanşir Paşazadə, Novruzəli Aslanov, Azər Badamov, Vüqar İskəndərov və Aydın Hüseynov çıxış ediblər, qeyd və təkliflərini bildiriblər.

İclasda komitənin 2024-cü ilin payız sessiyası dövründə görülən işlər barədə hesabatı qənaətbəxş hesab olunub, 2025-ci ilin yaz sessiyası üçün iş planı təsdiqlənib.

*"Azərbaycan"*

# Korrupsiyaya qarşı mübarizədə səmərəlilik artırılır



Yanvarın 23-də Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin 2025-ci ilin yaz sessiyasında ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Arzu Nağıyev yeni sessiyanın başlaması münasibəti ilə komitə üzvlərini təbrik edib və gələcək fəaliyyətlərində onlara uğurlar diləyib.

Komitə sədri iclasın gündəliyindəki 7 məsələ barədə məlumat verib. O, əvvəlcə gündəliyin birinci məsələsi - Milli Məclisin 2024-cü ilin payız sessiyası dövründə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin fəaliyyəti barədə hesabatı təqdim edib. Bildirilib ki, komitənin ötən sessiya ərzində 16 iclası keçirilib və iclaslarda 43 məsələyə baxılıb. Həmin iclaslarda baxılan qanun layihələri barədə danışan komitə sədri, ötən sessiyada qəbul olunmuş bir sıra qanunların əhəmiyyətini xüsusi vurğulayaraq bildirib ki, ümumilikdə bu dövr ərzində 13 qanun layihəsi üç oxunuşda, 2 qanun layihəsi isə bir oxunuşda qəbul edilib.

Diqqətə çatdırılıb ki, payız sessiyası dövründə komitə sədri və üzvləri həm xaricdə, həm də parlamentdəki beynəlxalq tədbirlərdə, görüşlərdə, o cümlədən COP29 çərçivəsində keçirilən tədbirlərdə fəal iştirak ediblər, sosial şəbəkələrdə aktiv olublar.

Bildirilib ki, hesabat dövründə komitəyə daxil olan 126 ərizəyə, məktub və müxtəlif xarakterli sənədlərə baxılıb və müvafiq tədbirlər görülüb.

Gündəliyin ikinci məsələsi olan Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin 2025-ci ilin yaz sessiyası üçün iş planı barədə danışan komitə sədri qeyd edib ki, qarşıdakı sessiyada qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan qanun layihələrinin müzakirəsi, dinləmələrin keçirilməsi və digər məsələlər nəzərdə tutulub.

Sonra komitə sədri Arzu Nağıyev gündəlikdəki qanun layihələrini təqdim edib.

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Qanununun layihəsi haqqında məlumat verən komitə sədri qeyd edib ki, qanun layihəsində mövcud normaların daha aydın və birmənalı ifadə edilməsi məqsədi ilə dəyişikliklər təklif edilir və həmin dəyişikliklər mahiyyətcə dəqiqləşdirmə və uyğunlaşdırma xarakteri daşıyır.

Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsinə (birinci oxunuş) dair nəzərə çatdırılıb ki, hərbi və xüsusi geyim formalarına olan hörməti qorumaq, onlardan sui-istifadənin qarşısını almaq və bu sahədə qanunun təsirini artırmaq məqsədilə mövcud qanunvericilikdə təsbit edilmiş məsuliyyətin gücləndirilməsi yolu ilə qanun pozuntularının sayının azalmasına nail olmaq üçün daha yüksək cərimələrin tətbiqi məqsədilə bir sıra dəyişikliklər nəzərdə tutulur.

Gündəliyin növbəti məsələsi olan "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə (birinci oxunuş) dair məlumatda bildirilib ki, layihə korrupsiyaya qarşı mübarizə üzrə səmərəliliyin artırılması və şəffaflığın gücləndirilməsi məqsədilə bir sıra normaların təkmilləşdirilməsini və yeni normaların əlavə edilməsini nəzərdə tutur. Layihədə "korrupsiya" anlayışının yeni redaksiyada verilməsi təklif edilir. Belə ki, korrupsiya dedikdə vəzifəli şəxslərin öz statusundan, təmsil etdiyi orqanın (qurumun) statusundan, vəzifə səlahiyyətlərindən və ya həmin status və səlahiyyətlərdən irəli gələn imkanlardan istifadə etməklə qanunsuz olaraq maddi və sair nemətlər, imtiyazlar və ya güzəştləri istəməsi və ya alması, yaxud bu barədə təklif və ya vədi qəbul etməsi, habelə fiziki və hüquqi şəxslər tərəfindən qeyd edilən maddi və sair nemətlərin, imtiyazların və ya güzəştlərin qanunsuz olaraq vəzifəli şəxslərə təklif və ya vəd olunması, yaxud verilməsi nəzərdə tutulur. Həmçinin qanun layihəsində "korrupsiya riski", "korrupsiya risklərinin idarə edilməsi" və "səlahiyyətli struktur bölmə (şəxs)" kimi yeni anlayışların da əlavə edilməsi təklif edilir.

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi (birinci oxunuş) ilə bağlı diqqətə çatdırılıb ki, bu sənəd hərbi uçot, hərbi qeydiyyat və səfərbərlik qaydaları əleyhinə olan inzibati xətalarla bağlı məsuliyyət tədbirlərinin gücləndirilməsi və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) xidmət keçən hərbi qulluqçuların sosial rifahının yaxşılaşdırılması məqsədilə hazırlanıb.

Gündəliyin sonuncu məsələsi - "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi (birinci oxunuş) ilə əlaqədar qeyd edilib ki, Cinayət Məcəlləsinin 228-ci maddəsinə təklif edilən dəyişikliyə əsasən qanunsuz olaraq odlu silahı, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələri və qurğuları satma həmin Məcəllənin qüvvədə olan 228.1-ci maddəsindən çıxarılaraq, bu əməlin ayrıca kriminallaşdırılması təklif edilir (layihə üzrə 228.3-cü maddə). Eyni zamanda bu əmələ görə daha ağır sanksiya nəzərdə tutulur. "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının Qanununa təklif edilən dəyişikliyə əsasən odlu silah əldə etmək hüququnun 18 yaşdan artırılaraq 21 yaşına çatmış Azərbaycan Respublikası vətəndaşlarına verilməsi təklif edilir. Həmin Qanunun 18-ci maddəsinə təklif edilən dəyişiklik isə təkmilləşdirmə xarakteri daşıyır.

Gündəlikdəki məsələlərin müzakirəsi zamanı komitənin üzvləri Erkin Qədirli, Ramid Namazov, Gülşən Paşayeva və Rizvan Nəbiyev çıxış ediblər. Deputatlar payız sessiyasında komitənin səmərəli fəaliyyət göstərdiyini qeyd edərək, yaz sessiyası üçün iş planının layihəsini müsbət qiymətləndiriblər. Millət vəkilləri təqdim olunan qanun layihələri ilə bağlı fikirlərini bildirərək sual və təkliflərini səsləndiriblər.

Komitənin sədri Arzu Nağıyev və Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdir müavini Səməd Sultanov və şöbənin İnzibati qanunvericilik sektorunun müdiri Kəmalə Paşayeva deputatların qaldırdıqları məsələlərə münasibət bildiriblər, sualları cavablandırıblar.

Müzakirələrin yekununda komitənin 2024-cü ilin payız sessiyası dövründə görülən işlər barədə hesabatı məqbul hesab olunub, 2025-ci ilin yaz sessiyası üçün iş planının layihəsi təsdiqlənib. Qanun layihələrinin hamısı birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

*"Azərbaycan"*

# İnsan hüquqları komitəsi tərəfindən ictimai dinləmə və "dəyirmi masa"lar keçiriləcək



Yanvarın 23-də Milli Məclisin İnsan hüquqları komitəsinin 2025-ci ilin yaz sessiyasında ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Zahid Oruc yeni sessiyanın başlaması münasibətilə komitə üzvlərini təbrik edib və gələcək fəaliyyətlərində onlara uğurlar diləyib. O, iclasın gündəliyinə komitənin payız sessiyasının hesabatının, yaz sessiyasının iş planının və "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya Qanununun layihəsinin ikinci oxunuşda daxil edildiyini deyib.

Komitə sədri, əvvəlcə, 2024-cü ilin payız sessiyası dövründə İnsan hüquqları komitəsində görülən işlər barədə məlumat verib. O, nəzərə çatdırıb ki, sessiya ərzində komitənin 12 iclası keçirilib, 23 məsələ, o cümlədən 9 qanun layihəsi müzakirə olunub. Ötən sessiyada "Uşaq hüquqları haqqında" Qanunda dəyişiklik edilməsi, "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunda dəyişiklik edilməsi, "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Qanunda dəyişiklik edilməsi, "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi, həmçinin Elektron Hökumət İnformasiya Sistemindən istifadə ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində bəzi qanunvericilik aktlarına dəyişikliklərin edilməsi barədə, "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" və bir sıra digər qanun layihələrinə baxılıb.

Bildirilib ki, sessiya müddətində komitənin sədri və üzvləri bir çox yerli və beynəlxalq səviyyəli tədbirlərdə iştirak edib, görüşlər keçiriblər. Bununla yanaşı, millət vəkilləri insan hüquqları mövzusunda mediada çıxışlar edib, müsahibələr veriblər, habelə televiziya proqramlarında ictimai həyatın müxtəlif sferalarını əhatə edən məsələlərə münasibət bildiriblər.

Hesabat dövründə komitəyə 422 sənədin daxil olduğu söylənilib. Qeyd edilib ki, müraciətlərdə qaldırılan məsələlərin həlli ilə bağlı aidiyyəti qurumlara məktublar göndərilib, lazımi izahatlar verilib.

Sonra Zahid Oruc İnsan hüquqları komitəsinin 2025-ci il yaz sessiyası üçün iş planının layihəsini təqdim edib. Bildirilib ki, sessiya müddətində qanunvericilik təşəbbüsü qaydasında daxil olan qanun layihələrinin müzakirəsi, "Konstitusiya və Suverenlik ili" çərçivəsində müxtəlif görüşlərin keçirilməsi nəzərdə tutulur. İş planında, habelə Ermənistanın Azərbaycana qarşı törətdiyi soyqırım, təcavüz, etnik təmizləmə və müharibə cinayətlərinin insan hüquqları aspektində geniş ictimaiyyətə çatdırılması, Vətən müharibəsində qələbədən sonra Qərbi Azərbaycanlıların hüquqları kontekstində ictimai dinləmə və "dəyirmi masa"ların keçirilməsi və digər məsələlər öz əksini tapıb.

Bununla yanaşı, yaz sessiyasında rəqəmsal məkanda vətəndaşların hüquqlarının qorunması, süni intellekt və insan hüquqları, media savadlılığı ilə əlaqədar, ekoloji insan hüquqlarına dair müzakirələrin təşkili, habelə ölkənin insan hüquqları təsisatları qarşısında duran strateji vəzifələrlə bağlı aidiyyəti qurumlarla görüşlərin keçirilməsi və bir sıra digər tədbirlər planlaşdırılır.

Müzakirələrdə komitənin sədr müavini Arzuxan Əli-zadə, üzvləri Mübariz Qurbanlı, Razi Nurullayev, Vüqar Rəhimzadə, Azər Allahverənov, Sevil Mikayılova, Naqif Həmzəyev çıxış ediblər.

Deputatlar payız sessiyasının məhsuldar keçdiyini, komitə üzvlərinin səmərəli fəaliyyət göstərdiyini söyləyiblər, görülmüş işləri qənaətbəxş dəyərləndiriblər.

Millət vəkilləri yaz sessiyası üçün nəzərdə tutulmuş iş planının layihəsi ilə bağlı öz fikirlərini açıqlayıblar, bəzi qeyd və təkliflərini diqqətə çatdırıblar. Komitənin yaz sessiyası üçün nəzərdə tutulmuş iş planının layihəsi təsdiq edilib.

Komitə sədri Zahid Oruc çıxışlarda qaldırılan məsələlərə münasibət bildirib, habelə ölkənin ictimai-siyasi həyatında baş verən hadisələrlə bağlı öz fikirlərini bölüşüb.

İclasda, həmçinin ikinci oxunuşda təqdim edilən "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Konstitusiya Qanununun layihəsi nəzərdən keçirilib. Dəyişiklikdə "qanunsuz miqrantların saxlanılması" sözlərinin "müvafiq icra hakimiyyəti orqanının müvəqqəti yerləşdirmə" sözləri ilə əvəz edilməsi təklif olunur.

Qanun layihəsi ikinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə edilib.

*"Azərbaycan"*

# Ötən sessiya Elm və təhsil komitəsinin iclaslarında 9 məsələ müzakirə olunub



Yanvarın 23-də Milli Məclisin Elm və təhsil komitəsinin 2025-ci ilin yaz sessiyasında ilk iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclası açan komitə sədri Anar İsgəndərov yeni sessiyanın başlaması münasibəti ilə komitə üzvlərini təbrik edib və gələcək fəaliyyətlərində onlara uğurlar diləyib.

Gündəlik barədə məlumat verən komitə sədri iclasın gündəliyinə 2 məsələnin daxil edildiyini söyləyib. O, əvvəlcə Milli Məclisin 2024-cü ilin payız sessiyası dövründə Elm və təhsil komitəsində görülən işlər barədə hesabatı diqqətə çatdırıb.

Bildirilib ki, komitənin ötən sessiya ərzində keçirilən 9 iclasında 9 məsələyə baxılıb. Hesabat dövründə vətəndaşlardan komitənin ünvanına daxil olan 76 müraciətə baxılaraq, müvafiq tədbirlər görülüb. Bildirilib ki, komitə üzvləri eyni zamanda, cəmiyyətin həssas qrupları, şəhid ailələri və qazilərin problemləri ilə bağlı fəal iş aparıblar. Anar İsgəndərov Elm və təhsil komitəsinin 2025-ci ilin yaz sessiyası üçün iş planı haqqında danışarkən diqqətə çatdırıb ki, növbəti sessiyada qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan qanun layihələrinin müzakirəsi, dinləmələrin keçirilməsi və digər məsələlər nəzərdə tutulub.

Müzakirədə komitə sədrinin müavini Fariz İsmayılzadə, komitə üzvləri Ceyhun Məmmədov, Əziz Ələkbərov, Tamam Cəfərova, Eldar Quliyev, Rəşad Mahmudov, Elnarə Akimova, Elçin Mirzəbəyli, Sevinc Fətəliyeva, Mehriban Vəliyeva, Şahin Seyidzadə və Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış ediblər. Çıxış edənlər komitənin iş planı ilə bağlı təkliflərini səsləndiriblər, elm və təhsil sahəsinin bəzi aktual məsələləri ilə bağlı fikirlərini bölüşüblər.

İclasda Elm və təhsil komitəsində 2024-cü ilin payız sessiyası dövründə görülən işlər barədə hesabatı qənaətbəxş hesab olunub, komitənin 2025-ci ilin yaz sessiyası üçün iş planı təsdiq edilib.

*"Azərbaycan"*

# "Yaşıl enerji məkanı" üzrə İşçi qrupun növbəti iclası

"Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulmuş tədbirlərin icrasını təmin etmək məqsədilə yaradılmış "Yaşıl enerji məkanı" üzrə İşçi qrupun hibrid formada növbəti iclası keçirilib.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, iclasa sədrlik edən energetika nazirinin müavini Samir Vəliyev "Yaşıl dünya naminə həmrəylik ili"ndə strategiyanın icrası çərçivəsində reallaşdırılan layihələrdən, əldə olunan mühüm nailiyyətlərdən danışıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi, enerji səmərəliliyinin artırılması və karbon emissiyalarının azaldılması istiqamətində görülən işlərin ölkəmizin dayanıqlı inkişafına verdiyi töhfələr vurğulanıb.

Sonra İşçi qrupun sədr müavini, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktorunun müavini Ramil Hüseyn strategiyanın icrası çərçivəsində 2024-cü ildə aparılmış monitorinqin nəticələrinə dair ilkin qiymətləndirmə hesabatının layihəsini təqdim edib. "Yaşıl enerji məkanı" məqsədi üzrə aidiyyəti qurumlar tərəfindən yerinə yetirilmiş tədbirlərin icra göstəriciləri barədə məlumat verilib, dənizdə külək enerjisi potensialının araşdırılması, bərpaolunan enerji mənbələri üzrə informasiya sisteminin yaradılması, enerji saxlanc sistemlərinin və karbon tutulması texnologiyasının tətbiqi, müxtəlif sahələrdə enerji səmərəliliyinin təmin edilməsi, yeni generasiya güclərinin enerji sisteminə etibarlı inteqrasiyası üçün infrastrukturun qurulması, iqlim dəyişmələri üzrə milli məlumat bazasının yaradılması və digər istiqamətlər üzrə icra olunan tədbirlər müzakirə edilib.

Digər qrup üzvlərinin ilkin hesabat layihəsinə dair məruzələri də dinlənilib, Strategiya sənədi üzrə tədbirlərin cari ildə effektiv icrası ilə bağlı hədəflər, atılacaq addımlar, çağırış və tövsiyələr nəzərdən keçirilib.

"Yaşıl enerji məkanı" İşçi qrupunda Energetika Nazirliyi və İİTKM ilə yanaşı, İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər, Kənd Təsərrüfatı, Rəqəmsal İnkişaf və Nəqliyyat, Maliyyə, Fövqəladə Hallar nazirliklərinin, Dövlət Statistika Komitəsi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Dövlət Gömrük Komitəsi, SOCAR, Mərkəzi Bank, Azərbaycan İnvestisiya Holdinqi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, "Azərenerji", "Azərişıq" və "Azəristiliktəchizat"ın nümayəndələri təmsil olunur.

# Ersan ERGÜR: "Zəngəzur dəhlizi TDT və D-8-ə üzv dövlətlər ilə əlaqələrin inkişafına strateji töhfə verəcək"

Türkiyəli ekspert, Ədalət Müdafiəçiləri Assosiasiyasının (ASSAM) Strateji Araşdırmalar Mərkəzinin vitse-prezidenti Ersan Ergürlə AZƏRTAC-ın eksklüziv müsahibəsi.



*- Zəngəzur dəhlizinin açılması region ölkələri arasında iqtisadi əməkdaşlığa necə təsir edəcək? Bu dəhliz Orta dəhliz kontekstində hansı rolu oynayır?*

- Zəngəzur dəhlizinin açılması Orta dəhliz kontekstində mühüm rol oynayaraq iqtisadiyyata əhəmiyyətli təsir göstərəcək və region ölkələri arasında əməkdaşlığı gücləndirəcək. Çinin qlobal iqtisadiyyatda öz təsirini göstərmək üçün hazırladığı yeni "İpək yolu" təkcə Çində deyil, həm də yeni ticarət yollarının keçdiyi ölkələrin iqtisadi inkişafına təkan verəcək. Bu kontekstdə Orta dəhliz və onun əsas komponenti olan Zəngəzur dəhlizi Türkiyə ilə Avropa ölkələri arasında fasiləsiz əlaqəni təmin edir. Hazırkı mərhələdə Zəngəzur dəhlizinə qoşulan Orta dəhlizdən D-8-ə üzv ölkələrin, eləcə də regionun müsəlman ölkələrinin, xüsusilə Türk Dövlətləri Təşkilatının (TDT) iqtisadi fayda əldə edəcəyini proqnozlaşdırmaq olar. İndi Türkiyə üzərindən Orta və Cənubi Asiya ölkələri ilə tikiləcək ticarət körpüsü həm özümüz üçün qarşılıqlı fayda prinsipinə xidmət edəcək, həm də ötən əsrdə bizi istismar etmək istəyən dövlətlərin qarşısında sədd olacaq. Bu dəhliz boyu yaradılacaq dəmir yolu daşıma marşrutunun iqtisadi töhfəsi qiymətləndirildikdən sonra Zəngəzur dəhlizinin əhəmiyyəti daha aydın görünəcək.

*- Zəngəzur dəhlizinin açılması iqtisadi potensial baxımından hansı perspektivlər vəd edir?*

- Zəngəzur dəhlizi ilk növbədə Azərbaycan və Türkiyə iqtisadiyyatlarına müsbət töhfə verəcək. Türkiyənin TDT ilə inkişaf etdirmək istədiyi sənayeləşmə, xüsusilə də müdafiə sənayesi sahəsində əməkdaşlıq daha aktiv və təhlükəsiz şəkildə həyata keçirilə bilər. Təbii ki, sadəcə Zəngəzur dəhlizinin istifadəyə verilməsi kifayət etməyəcək. Xüsusilə, müvafiq avtomobil və dəmir yolu infrastrukturunun təkmilləşdirilməsinə də diqqət yetirilməlidir.

*- Zəngəzur dəhlizinin Türkiyə və layihədə iştirak edən digər ölkələr üçün strateji əhəmiyyəti nədən ibarətdir? Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsindən konkret hansı ölkələr faydalana bilər?*

- Türkiyə SSRİ-nin dağılmasından sonra Orta Asiyanın türk dövlətləri ilə həmişə iqtisadi və siyasi əlaqələri inkişaf etdirməyə çalışıb. Beləliklə, Zəngəzur dəhlizi tarixi fürsəti, məqsədi reallaşdırmağa imkan verəcək və TDT üzvü olan ölkələr, eləcə də D-8 ölkələri ilə əlaqələrin inkişafına strateji imkanlar yaradacaq. Bu vəziyyət Türkiyə üçün qlobal iqtisadi və siyasi müstəvidə son dərəcə əlverişli mövqenin formalaşmasına töhfə verəcək. İndiyə qədər regional ticarəti Azərbaycan və Gürcüstan üzərindən həyata keçirən Türkiyə bununla da öz qardaş ölkələri hesabına zamanda və məkanda üstünlük qazanacaq. Türkiyə geosiyasi mövqeyinə görə Orta Kəmər Yolu layihəsi üçün kritik ölkədir.

*- Mövcud geosiyasi vəziyyət fonunda Orta Dəhlizin imkanlarını necə qiymətləndirirsiniz?*

- Türkiyə Xarici İşlər Nazirliyinin məlumatına görə, Çindən Avropaya gedən 10 milyon konteynerin 96 faizi dəniz yolu ilə, qalan 4 faizi isə Şimal dəhlizi adlanan Trans-Sibir dəmir yolu ilə daşınır. Orta Dəhliz Avropa və Asiya arasında Şimal dəhlizindən daha sürətli və daha iqtisadi səmərəli ticarət yoluna çevrilir. Orta dəhliz, həmçinin Türkiyənin liman əlaqələri sayəsində Çin və Mərkəzi Asiyadan Yaxın Şərq, Şimali Afrika və Aralıq dənizi regionuna kommersiya daşımaları üçün əhəmiyyətli imkanlar təqdim edir. Zəngəzur dəhlizini Çindən Avropaya kommersiya marşrutu hesab etsək, Qazaxıstanın, Qırğızıstanın, Özbəkistanın, Türkmənistanın, Azərbaycanın, Gürcüstanın bu layihədən müsbət faydalanacağını görə bilərik. Dənizə çıxışı olmayan Əfqanıstanın Zəngəzur və Orta dəhlizdən faydalanacağını nəzərə alsaq, bunun daha geniş coğrafiyaya hansı iqtisadi fayda gətirəcəyi aydın olur.

*- Zəngəzur dəhlizinin reallaşmasından sonra uzunmüddətli geosiyasi vəziyyətdə hansı dəyişikliklər baş verə bilər?*

- Zəngəzur dəhlizi sosial, iqtisadi, geosiyasi və geostrateji baxımdan Azərbaycan, Çin və Mərkəzi Asiya, eləcə də Avropanın əlaqəsini asanlaşdıra biləcək layihə hesab olunur. Bu, D-8 ölkələrinin bir-biri ilə problemsiz əlaqə yaratmasına imkan verəcək. Təbii ki, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında birbaşa əlaqənin yaradılmasının vacibliyini qeyd etməyə bilmərəm. Uzunmüddətli perspektivdə həyata keçiriləcək bu dəhliz sayəsində region əhalisinin rifahı və iqtisadiyyatı yaxşılaşacaq, ölkələr arasında iqtisadi əməkdaşlıq sayəsində gərginlik azalacaq, təhlükəsiz bölgədə yaşamaq imkanı yaranacaq.

*- D-8-ə rəsmi daxil olduqdan sonra Azərbaycan üçün hansı perspektivlər açılır?*

- Azərbaycanın D-8-ə üzvlüyü son dərəcə mühüm addım kimi qiymətləndirilməlidir. Çünki Orta Asiyanın türk dövlətləri ilə iqtisadi, siyasi və hərbi əməkdaşlığı inkişaf etdirmək istəyən Türkiyə və Azərbaycan bununla da İslam ölkələri arasında əməkdaşlıq qapısına çevrilərək, Orta Asiya türk dövlətlərinin üzünə açılıb. D-8-in məqsədi müsəlman ölkələri arasında əlaqələri yaxşılaşdırmaq və region xalqlarının regional gəlirlərdən istifadəsini təşviq etməkdir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrlə birbaşa əməkdaşlıq etmək imkanı əldə edib. Ümid edirik ki, Azərbaycan və region ölkələri D-8 ölkələrinə qoşulmaqla regional siyasətə təsir etmək üçün lazım olan iqtisadi gücü ən qısa zamanda əldə edə bilərlər.

*- D-8 çərçivəsində əməkdaşlığın Azərbaycan və Türkiyə üçün strateji əhəmiyyəti nədən ibarətdir?*

- Türkiyə ilə Azərbaycan arasında tarixi əməkdaşlıq çoxdan qurulub. D-8-ə üzvlük Cənubi Asiyadakı müsəlman dövlətləri, xüsusən də Türk Dövlətləri Təşkilatına üzv olan ölkələr arasında əməkdaşlığın qapılarını açacaq bir addımdır. İslam ölkələri arasında ticarət əməkdaşlığı Qərb ölkələri ilə müqayisədə zəifdir. Bu rəqəm təxminən 15 faiz təşkil edir. Gələcəkdə Türkiyə D-8 üzvlüyü ilə Yaxın Şərq və Afrikadakı region ölkələrinə açılacaq və beləliklə, Qərbə ötürülən resurslarımız bölgə xalqlarının xidmətinə veriləcək. Bu o deməkdir ki, indi Qərb dövlətləri ilə xaos və müharibədən uzaq, sülh və əmin-amanlıq mühiti yaratmaq məqsədi ilə əməkdaşlıq qurulacaq. Bu, D-8 ölkələrinin əsas fəaliyyət istiqamətləri olan kənd təsərrüfatı, sənaye, enerji, ərzaq və ərzaq təhlükəsizliyi, nəqliyyat və ilk növbədə müdafiə sənayesi sahələrində əməkdaşlığın inkişaf etdirilməsi deməkdir.

*- Azərbaycanla Türkiyə arasında iqtisadi əməkdaşlığın əsas istiqamətləri hansılardır? İki ölkə arasında iqtisadi əməkdaşlıq çərçivəsində hansı iri layihələr həyata keçirilib?*

- Azərbaycan və Türkiyə arasında əməkdaşlığın ən mühüm sahələri müdafiə sənayesi və enerji sahəsidir. Xüsusi vurğulanmalıdır ki, nəqliyyat və digər sahələrdə əməkdaşlıq ən yüksək səviyyədədir. İki ölkə arasında əlaqələrin əsasını Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Trans-Anadolu qaz kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu xətti çərçivəsində çoxtərəfli əməkdaşlıq təşkil edir. Bu kontekstdə enerji nəhəngi SOCAR-ın Türkiyədəki investisiyaları heyrətamiz ölçülərə çatıb. Xüsusilə, İstanbul Hava Limanına qoyulan sərmayə və onun Türkiyə vasitəsilə dünya ticarətindəki aktiv rolu bizim üçün son dərəcə diqqətəlayiq görünür. SOCAR 2025-ci ildə Türkiyəyə 7 milyard dollar sərmayə qoyacağını açıqlayıb və gələcək əməkdaşlığın vacibliyini vurğulayıb. Rusiya-Ukrayna müharibəsi Azərbaycan və Türkiyə arasında təbii qaz tədarükünü qlobal prioritet edib. İki ölkə arasında əməkdaşlığın ən mühüm istiqamətlərindən biri şübhəsiz ki, müdafiə sənayesi sahəsində əməkdaşlıqdır. Xüsusilə, birgə istehsal sazişləri regional təhlükəsizlik baxımından güc balansını hər iki ölkənin xeyrinə dəyişməyə kömək edəcək. Bunu Azərbaycanda keçirilən ADEX 2024 müdafiə sərgisi çərçivəsində Türkiyə və Azərbaycan müdafiə müəssisələri arasında imzalanmış əməkdaşlıq müqavilələri də təsdiqləyib.

*- Türkiyə şirkətləri üçün Azərbaycanda investisiya mühitinin yaxşılaşdırılması istiqamətində hansı addımlar atılır?*

- Türkiyə ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın inkişafı və daha səmərəli olması üçün Zəngəzur dəhlizinin tezliklə həyata keçirilməsi zəruridir. Xüsusilə, Qarabağ bölgəsinin inkişafı ilə kənd təsərrüfatı, sənayeləşmə, İT-müdafiə sənayesi və turizm sahələrində əməkdaşlıq ölkə daxilində genişlənəcək. Kommersiya investisiyalarını qiymətləndirərkən vurğulanmalıdır ki, ölkə arasında ticarətin və texnologiya transferinin həcminə diqqət yetirməliyik.

# ABŞ-nin Paris Sazişindən çıxmaq istəməsinin səbəbi nədir

## Dünyada iqtisadi liderliyini qorumaq, yoxsa əlavə xərclərdən qaçmaq

Amerikalıların bir şüarı var: "ABŞ hamıdan böyükdür". Amma son zamanlar Çinin sürətli inkişafı və ABŞ iqtisadiyyatına çatmaq mərhələsinə yaxınlaşması amerikalıların təşvişinə səbəb olub. O səbəbdən Çini durdurmaq və onun Amerikanı ötməsinin qarşısını almaq ABŞ üçün "ölüm və ya olum" məsələsinə çevrilib.



Artıq tarixə qovuşmuş C.Bayden administrasiyası bu yöndə müəyyən cəhdlər etdi - Çinə qarşı müxtəlif sanksiyalara əl atdı, rəqib ölkədən idxal olunan məhsul və mallara yüksək vergi və gömrük rüsumları tətbiq etmək istədi və s. Ancaq bu cəhdlər Amerikanın maraqlarının təmini üçün yetərli olmadı, ÇXR başını aşağı salıb öz işi ilə məşğul olmaqda davam etdi.

Amerikada belə hesab edirlər ki, Çin bir çox məsələlərlə yanaşı, ətraf mühitin qorunması üçün də heç bir standarta məhəl qoymur və onun istehsalda böyük uğurlar qazanmasının da bir səbəbi budur. Yəni Çin hər hansı bir sahə üzrə istehsal qurarkən onun ətraf mühitə təsirini azaltmaq barədə düşünmür, başqa sözlə, ətraf mühitə vurulan zərəri azaltmaq üçün əlavə xərc çəkmir ki, bu məhsulun maya dəyərində özünü göstərir. Çinin xarici və yerli şirkətlər qarşısında belə bir tələb qoymaması həm də bu ölkəyə kapital qoyuluşunu artırır. Qəribədir ki, bu fürsətdən faydalananlar arasında ABŞ şirkətləri də az deyil. Odur ki, Donald Tramp hələ seçki marafonunda bəyan edirdi ki, ABŞ şirkətlərinə daha yaxşı şərait yaratmaqla onları yenidən Amerika iqtisadiyyatına qaytaracaq və bunun üçün lazım olan bütün addımları atacaq. Və o, yanvarın 20-də andiçmə mərasimindəki çıxışında bəyan etdi ki, ABŞ Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Paris Sazişindən geri çəkiləcək. Bununla o, dünyaya göstərdi ki, seçki marafonunda verdiyi sözlər boş vədlər deyil.

Sual oluna bilər ki, D.Tramp dünyanın iqlim dəyişmələrindən əziyyət çəkdiyi indiki zamanda niyə belə addım atmaq qərarına gəlib? Bunun başlıca səbəbi, qeyd etdiyimiz kimi, Çinin dünya birincisi olmaq istəyinin qarşısını almaqdır. Üstəlik, bu yaxınlaracan dünyanın ən kasıb ölkələrindən olan Hindistan da sürətlə inkişaf edir. Hazırda bu ölkə dünya iqtisadiyyatında beşinci yerə yüksəlib. Bu azmış kimi, tezliklə qonşusu Çini keçmək istəyir. Buna görə xarici sahibkarlara geniş güzəştlər vəd edir və təbii ki, həmin vədlərin sırasında ətraf mühitə zərər vurmamaq tələbi yoxdur. Belə olan halda ABŞ-də də haqlı olaraq düşünürlər ki, onların yalnız iqtisadi artıma diqqət yetirməsi Amerikanı rəqabətdə uduzdura bilər. Çünki Çin və Hindistan öz iqtisadiyyatlarını əsasən karbohidrogen yanacağından istifadə etməklə inkişaf etdirirlər. Əgər ABŞ Paris Sazişində qalsa, yəni onun şərtlərinə əməl edib "yaşıl iqtisadiyyat"a üstünlük versə, dünya liderliyini əldən verəcəyi şübhəsizdir. Bu sahədə vəziyyəti gərginləşdirən həm də Çin və Hindistanın Rusiya və İrandan yanacağı çox ucuz qiymətə almalarıdır. Ucuz neft və qaz isə ucuz məhsul, yəni xarici bazardakı rəqabətdə uduzmaq deməkdir.

ABŞ zəngin neft və qaz yataqlarına malikdir və üstəlik bu ölkənin şirkətləri dünyanın hər yerində neft və qaz yataqlarının istismarı ilə məşğuldur. Belə halda ABŞ-nin öz karbohidrogen yataqlarından istifadə etməməsi oturduğu budağı kəsməyə bənzəyir. O üzdən D.Trampın neft və qaz hasilatını artırmaq istəyi təbiidir. O, haqlı olaraq fikirləşir ki, neft və qaz hələ uzun illər iqtisadi inkişafı stimullaşdıran əsas amil olacaq.

Amerikanın Paris Sazişindən çıxmasının səbəbini anlamaq üçün dünyadakı ənənəvi karbohidrogen ehtiyatlarının nə ilə əvəz ediləcəyini də öyrənmək lazımdır. Mütəxəssislərin hesablamalarına görə, önümüzdəki illər dünyada şist nefti və qazı qlobal iqtisadiyyatda önəmli rol oynayacaq. ABŞ-nin Enerji İnformasiyası Agentliyinin açıqladığı hesabatda bildirilir ki, Amerika dünyanın 41 ölkəsindəki mövcud şist neftinin 10 faizinə sahibdir. Ümumilikdə 41 ölkədə olan şist qazı isə dünyadakı qaz ehtiyatlarının 32 faizinə bərabərdir.

Bəs görəsən, dünya enerji təchizatına mühüm təsir edəcək şist qazı nədir? Məlumat üçün bildirək ki, şist qazının digər bir adı qaya qazıdır. Bu, yerin 4-5 min metr dərinliyində qaya laylarının arasında sıxılıb qalan metan qazıdır. Şist qazını əldə etmək hazırda qurudan və dənzidən hasil olunan neft və təbii qazla müqayisədə daha asan olsa da, maddi baxımdan heç də sərfəli deyil. Belə ki, bir quyunun istismara verilməsi təxminən 500 min dollara başa gəlir. Şist qazını əldə etmək üçün hidroparçalama üsulundan istifadə olunur, yəni əvvəlcə süni hovuz yaradılır. Hovuzun 97-98 faizi su, digər hissələri isə qum və kimyəvi maddələrdən ibarət olur. Hovuzdakı maye borular vasitəsi ilə, həm də yüksək təzyiqlə şist nefti və qazının olduğu qaya laylarına vurulur. Nəticədə şist qazının olduğu qaya layları parçalanır və yarıqlar əmələ gəlir. Daha sonra vurulan suyun təzyiqi azaldılaraq qazın yuxarı çıxmasına şərait yaradılır.

Təxmini hesablamalara görə, dünyada şist neftinin ən böyük ehtiyatı Rusiyadadar. Burada 72 milyard barel şist nefti var. Rusiyanın ardınca ABŞ, Çin, Argentina və Liviya gəlir. Araşdırmalara görə ən çox şist qazı isə Çindədir. Argentina, Əlcəzair, ABŞ və Kanadada bu cür qaz az deyil. Çin 1 trilyon 217 milyard kubmetr şist qazı ehtiyatına sahibdir. ABŞ-da 862 milyard, Meksikada 681 milyard, Argentinada 774 milyard, Kanadada 388 milyard, Avstralyada 396 milyard kubmetr belə qaz ehtiyatı var. Avropada ən çox şist qazı əldə edilən quyular Polşada yerləşir. Bu ölkə 34 quyu ilə birincidir. Sonrakı pillələrdə Almaniya və Fransa gəlir. Onu da qeyd edək ki, Fransa hökuməti etirazlar səbəbindən şist qazı istehsal edə bilmir.

Mütəxəssislər şist qazının ətraf mühitə mənfi təsir edəcəyindən narahatdırlar. Onlar bu yöndə aparılan işlərin zəlzələyə və yeraltı su ehtiyyatlarının çirklənmə riskini artıracağını bildirirlər.

Azərbaycanda da şist nefti və qazı mövcuddur. Aşağı Kür çökəkliyində, Qobustanda və digər regionlarda 50-yədək şist yatağı var. 2011-ci ilin iyul ayında SOCAR ABŞ-nin "ConocoPhillips" şirkəti ilə ölkəmizin quru ərazisində kəşfiyyat işlərinin aparılması barədə müqavilə imzalayıb.

Donald Tramp seçki marafonunda vəd vermişdi ki, Amerikanı yenidən dünyanın ən böyüyü edəcək. Bunun üçün də ölkə iqtisadiyyatına daha çox sərmayə qoyulmasına, istehsalın həcminin artırılmasına və hər bir amerikalının varlı olmasına çalışacaq. Onun hədəfi budur. Qalan heç nəyin onun üçün heç bir önəmi yoxdur. ABŞ-nin Paris Sazişindən çıxması isə bu yolda atılan ilk addım ola bilər.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Qərbi Azərbaycan İcması Ermənistan hökumətinin irqçi siyasətini sərt şəkildə qınayıb

"Ermənistan Respublikasının Xarici Kəşfiyyat Xidməti 2025-ci il yanvarın 23-də dərc etdiyi illik hesabatında Qərbi Azərbaycan mövzusunu hərbi-siyasi risk kateqoriyasında vermişdir.

Etnik təmizləməyə məruz qalmış Qərbi azərbaycanlıların beynəlxalq hüquq çərçivəsində sülh yolu ilə, təhlükəsiz şəraitdə və ləyaqətli şəkildə öz evlərinə qayıtmaq arzularını təhlükəsizlik riski kimi təqdim etmək bu haqq işini təhrif etməyə xidmət göstərir və Ermənistanın multietnikliyi özünə təhdid kimi gördüyünü sübuta yetirir. Ermənistanın bu yanaşması onun onilliklərdən bəri yürütdüyü irqçi siyasətinin davam etdiyini göstərir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının bəyanatında yer alıb.

Bəyanatda, həmçinin deyilir: "Qərbi Azərbaycan İcması Ermənistan hökumətinin irqçi siyasətini sərt şəkildə qınayır və ondan Qərbi azərbaycanlıların qayıdış hüququnu təmin etməyi tələb edir".

# Nikol Paşinyan KTMT qərarında israrlıdır

## Ermənistan 2025-ci ildə də təşkilata üzvlüyünün dondurulmasını davam etdirəcək



Rusiyanın orbitindən uzaqlaşmaq, ərazisindəki rus hərbi bazalarını çıxarmaq Ermənistanın baş naziri Nikol Paşinyanın qarşısında duran prioritet məsələdir və nəyin bahasına olursa-olsun, bu tələbi reallaşdırmağa çalışır. Bu istiqamətdə növbəti addım 2025-ci ildə də Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) iştirakının dondurulması qərarıdır. Belə qənaətə gəlmək olar ki, Paşinyan təşkilatı tərk etmək barədə Qərbin qoyduğu tələbi yerinə yetirməkdədir.

Bundan öncəki açıqlamalarında Ermənistan baş naziri bir çox problemlərin yaranmasında Rusiyanı günahkar hesab edərək deyib ki, Moskvanın hərbi mövcudluğu İrəvanın təhlükəsizliyinə təhdid yaradır.

"Əgər biz indi faktiki olaraq fəaliyyətimizi dondurmuşuqsa, məsələlər həllini tapmasa, de-yure də bunu edəcəyik" - deyən baş nazir konkret olaraq Moskvanı təxribata çəkməyə çalışır və müəyyən jestlərlə Kremli qıcıqlandırmağa cəhd edir. Deməli, rəsmi İrəvan çox açıq tezislərlə Rusiya ilə əməkdaşlığı mənasız sayır və ya bu birgə fəaliyyətdən birmənalı formada imtina edir. Bütün bunlar Avropa İttifaqının və Qərb institutlarının hazırladığı planauyğun şəkildə həyata keçirilir. Buna görə də, Paşinyan maksimum şəkildə diplomatik qaydada Moskva ilə münasibətlərinə son qoymaq üçün ölkəsinin təhlükəsizlik məsələlərinə diqqət çəkir.

Ermənistanın Xarici Kəşfiyyat Xidmətinin (XKX) regiondakı hərbi-siyasi vəziyyətə dair ilk hesabatında deyilir ki, İrəvanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) üzvlüyünün dondurulması prosesinin dayandırılması üçün əsas yoxdur. "Təsis müqaviləsinin müddəalarına baxmayaraq, KTMT-nin nizamnamə məqsədləri olan Cənubi Qafqazın problemlərinə cavab vermək qabiliyyətinin olmaması 2025-ci ildə çətin ki dəyişsin. Hesab edirik ki, Ermənistanın KTMT-də üzvlüyünün dondurulması üçün əsasların 2025-ci ildə aradan qalxması ehtimalı azdır" - hesabatda qeyd olunur.

Ermənistan Xarici Kəşfiyyat Xidməti 2026-cı ilin iyununda ölkədə keçiriləcək parlament seçkiləri öncəsi mümkün xarici müdaxilə cəhdləri barədə də xəbərdarlıq edib. Onların məlumatına görə, bəzi ölkələr respublikada sabitliyi pozmaq üçün cəmiyyətin geniş təbəqələrinə təsir göstərməyə çalışacaq. Söhbətin konkret olaraq hansı ölkələrdən getdiyi açıqlanmır.

Erməni sosioloq Artur Paronyan deyib ki, daxili təzyiq altında növbədənkənar seçkiyə getdikdə, hakimiyyət, bir qayda olaraq, uduzur və ya vəziyyəti daha da pisləşir: "Güman edirəm ki, xarici təzyiq də var. Bu xarici təzyiqin problemi seçkilər deyil, bu anti-Rusiya xəttini davam etdirmək, yəni Aİ-yə üzv olmaq, KTMT-dən çıxmaqdır, amma hakimiyyətin faktiki siyasi legitimliyi yoxdursa, bu, mümkün deyil".

Paronyan bildirib ki, Ermənistan hakimiyyətindən bu addımları atmaq tələb olunur və bunun üçün seçkilərə getməlidirlər. Əgər Paşinyanın partiyası seçkilərdə 25-30 faiz səs alsa, bu, onların Ermənistandan təhlükəsiz qaçmalarının qarantıdır.

Beləliklə, bütün bunlar onu deməyə əsas verir ki, İrəvan bu istiqamətdə yaxın vaxtlarda daha kəskin və maraqlı addımlar ata bilər. Görünən odur ki, Hayastanda anti-Rusiya ritorika və bəyanatları artmaqda davam edəcək.

Bu arada İrəvanda qiymət artımı və vergi artımı ilə əlaqədar vətəndaşlar hökumət binası qarşısında etirazlarını bildiriblər. Etirazçılar bir vaxtlar baş nazir Nikol Paşinyanın "Bu, xalqın qapısıdır, onu açıb istədikləri kimi içəri girə bilər" dediyini əsas gətirərək insanlar binaya girməyə cəhd ediblər.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Avropa İttifaqı "Binokl diplomatiyası"nı hərbiləşdirir

### Qurumun dırnaqarası missiyasına hərbi elementlər əlavə etmək niyyəti vəziyyəti gərginləşdirmək məqsədi güdür



Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini təmin etməsi bəzi dairələrin, konkret olaraq Avropa İttifaqının (Aİ) maraqları ilə üst-üstə düşmədiyi üçün açıq şəkildə ölkəmizə qarşı qərəzli mövqe nümayiş etdirir.

İkinci Qarabağ müharibəsindən dərhal sonra regiona yerləşmək üçün mənfur planlar cızan Aİ bu məqsədlə dırnaqarası mülki müşahidə missiyasını (əslində, kəşfiyyat missiyası) Azərbaycanla Ermənistan sərhədinə yerləşdirib. 2022-ci ilin dekabrından qısa müddətlik zaman ərzində fəaliyyət üçün işə başlayan bu missiya Azərbaycanın razılığı olmadan hazırda varlığını sürdürür.

Fəaliyyət müddətinin başa çatmasına az qalsa da, Aİ və Ermənistan sözügedən missiyanın müddətinin uzadılması istiqamətində aktiv iş aparırlar və bu il yanvarın 27-dən kəşfiyyat missiyasının mandatının daha iki il müddətinə uzadılacağı gözlənilir.

Bununla bağlı mediada yayılan məlumatlara görə, Brüsseldə bu missiyanın təkcə kəşfiyyat funksiyalarının kifayət etmədiyi qənaətinə gəlinib və buna görə də ona hərbi funksionallıq əlavə edilməli olduğu düşünülüb.

#### Aİ missiyasına lüzum yoxdur

Yanvarda yerli televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev məhz bu məsələyə xüsusi vurğu etdi ki, əgər həmin vaxt biz bunun iki aylığına və 40 nəfərdən ibarət olacağı barədə razılığa gəldiksə, deməli, bu, belə də olmalı idi: "Mən razılığa gəldikdə, hətta sözdə də olsa, həmişə bu razılaşmalara əməl edirəm. Amma belə bir vəziyyətdə Avropada hesab etdilər ki, onlar həmin razılaşmaları pozmaq hüququna malikdirlər. Sonra heç nə bildirmədən, bizimlə heç bir razılıq olmadan onlar nəinki bu missiyanın müddətini uzatdılar, sayını artırdılar, həm də Avropa İttifaqının üzvü olmayan ölkəni dəvət edərək mahiyyətcə etimadı qırdılar".

Ötən müddətdə də göründü ki, Aİ-nin dırnaqarası mülki missiyasının iş-gücü bölgədə suları bulandırmaqdan, "binokl diplomatiyası" həyata keçirməkdən ibarətdir. Azərbaycan tərəfinin xəbərdarlıqlarına baxmayaraq, Polşa Prezidenti Anjey Duda da ötən ilin sonlarında Ermənistan-Azərbaycan sərhəd bölgəsinə, hələ də Ermənistanın işğalı altında olan Kərki kəndinə yaxın əraziyə səfər edərək, Avropa İttifaqının Ermənistandakı missiyası ilə birgə Azərbaycan əleyhinə təbliğatda iştirak etmişdi. Kanada isə sözügedən missiyaya qoşulan ilk qeyri-Avropa ölkəsi oldu.

#### Missiyanın qaranlıq məramları

İlk gündən məlum idi ki, "binokl diplomatiyası"nın arxasında xoşagəlməz maraqlar dayanır. Zaman keçdikcə Aİ missiyasının əsl üzü və xidmət etdiyi məramlar ortaya çıxmağa başladı.

Caliber.Az saytının əldə etdiyi məlumata əsasən, missiyanın mandatının genişləndirilməsi yalnız kəşfiyyat xarakterli deyil, tamhüquqlu hərbi nümayəndəliyə çevrilməsinə səbəb ola biləcək yeni elementləri əhatə edəcək. Bu hərbi bölmələrin Ermənistan-Türkiyə və Ermənistan-İran sərhədləri boyunca yerləşdirilməsi planlaşdırılır.

Bildirilir ki, kəşfiyyat missiyasının hərbi komponentlə genişləndirilməsinin məqsədlərindən biri məhz Türkiyə ilə sərhəddən rus sərhədçilərinin çıxarılması və həm bu istiqamətlərin, həm də ümumilikdə sərhədin Aİ-nin nəzarətinə keçməsidir. Bu, son dövrlərdə Ermənistan hakimiyyətinin atdığı addımlarla uyğun gəlir. Missiyanın əsas məqsədi Rusiyanın 102-ci hərbi bazasını çıxarmaqdır. Aydındır ki, Brüsseldə və İrəvanda hesab ediblər ki, Ermənistanı Rusiya hərbi iştirakından tamamilə azad etmək lazımdır.

Missiyanın mövcud kəşfiyyat infrastrukturu (yalnız binokllar deyil, həm də Azərbaycan istiqamətinə baxmaq üçün istifadə olunan kameralar) ilə yanaşı, müvafiq avadanlıqlar və xüsusi texnika, o cümlədən hərbi nəqliyyat vasitələrindən istifadəsi tətbiqi də nəzərdə tutulur. Həmçinin avromissiya üzvlərinə silah daşımağa icazə veriləcək.

Ermənistanın silahlandırılması prosesi Avropa Sülh Fondu vasitəsilə Avropanın hərbi iştirakının artırılması ilə müşayiət olunur. Məlumdur ki, Aİ-nin qurucu üzvlərindən olan Fransa 44 günlük müharibədən dərhal sonra Ermənistanı sürətlə silahlandırmağa başlayıb. Məqsəd bölgədə yenidən münaqişə ocağı alovlandırmaqdır. Əslində, bu məkrli planın Ermənistanı dövlət olaraq məhvə sürüklədiyi də Makron hökumətinin eyninə deyil. Yəni Fransa idarəçiliyində Aİ-nin Cənubi Qafqazdakı qanlı ssenarisi üçün Ermənistan qurban seçilib.

Yuxarıda adıçəkilən müsahibəsində Ermənistanın məqsədyönlü şəkildə silahlandırıldığını deyən Prezident İlham Əliyev söylədi ki, Ermənistana bu silahlar ya pulsuz verilir, ya da ki, kredit şəklində. O kreditlər də müəyyən dövrdən sonra silinir: "Eyni zamanda Avropa İttifaqının dırnaqarası sülh fondundan. Dırnaqarası, çünki sülh fondu, əslində, sülh məqsədləri üçün istifadə olunmalıdır. Onların sülh fondu isə silahlanmaya istiqamətləndirilir. Oradan da birinci ödəmə edildi və bizdə olan məlumata görə, bu, son ödəmə deyil".

#### Azərbaycan buna göz yummayacaq

2024-cü ildən etibarən Azərbaycanla Ermənistan arasında ikitərəfli diplomatik danışıqların aparılması, normallaşma istiqamətində atılan addımlar, qarşılıqlı anlaşma və sülh şəraitində delimitasiya və demarkasiya prosesinin həyata keçirilməsi bölgədə dayanıqlı sülhə zəmin yaradıb.

Bütün bunlar iki ölkənin sərhədində üçüncü dövlətlərin qüvvələrinin yerləşdirilməsinə heç bir ehtiyac olmadığını faktlarla ortaya qoyur. Ancaq Avropanın "sülh göyərçinləri" Cənubi Qafqazda müharibə istədikləri üçün Aİ missiyasını hərbiləşdirməkdə israr edirlər. Bu isə regionda təhlükəsizliyə təhdiddir.

Yanvarın 7-də verdiyi müsahibədə Prezident İlham Əliyev binokl şousu nümayiş etdirənlərə, yarıhərbi geyim və çəkmələr geyinərək sərhədimizə döyüşçülər kimi gələnlərə qəti şəkildə xəbərdarlıq etdi ki, onların oradan necə sürətlə qaçacağını göstərmək istəmirəm, əgər kimsə təsadüfən Azərbaycan ərazisinə soxularsa, onda sadəcə görəcəklər ki, əllər necə qaşınır: "Ona görə də biz onlara çatdırdıq ki, binokl şousuna son qoysunlar, artıq, necə deyərlər, binoklsuz gəzişirlər".

Onlar bilməlidirlər ki, Azərbaycan mövqeyində qətidir və Aİ missiyasının hərbi elementlərlə zənginləşdirilməsinə, sərhədimizə hərbi amil kimi yerləşməsinə göz yummayacaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Azərbaycan kolonializmə qarşı mübarizədə dünyada birlik yaranmasını istəyir

### Bu, bəzi xalqların əsarətdən qurtulması üçün vacibdir

Uzun illər dünyanın bir sıra ölkələrində müstəmləkəçilik siyasəti həyata keçirən, əsarət altında saxladığı yerli xalqlara qarşı insanlıq əleyhinə cinayətlər törədən, milyonlarla günahsız insanı vəhşicəsinə qətlə yetirən Fransa XXI əsrdə də cinayətkar əməllərindən əl çəkmək istəmir.

Məsələ burasındadır ki, tarixi keçmişindən utanmayan, öz azadlığı uğrunda mübarizəyə qalxan insanlarla zorun, gücün, silahların dili ilə danışan Fransa hökuməti utanıb qızarmadan işləri tərs gələn kimi ölkəmizi Fransanın daxili işlərinə qarışmaqda əsassız şəkildə ittiham edir.

2024-cü ilin mayında Fransanın daxili işlər naziri Jerald Darmanen "France-2" telekanalına müsahibəsində Azərbaycanı Yeni Kaledoniyada müstəqillik tərəfdarının etirazlarını dəstəkləməkdə ittiham edərək ölkəmizin guya Fransanın daxili işlərinə qarışdığını bildirmişdir. Fransalı nazir Parisin Ermənistana verdiyi dəstəyə cavab olaraq ölkəmizin Kaledoniya nümunəsindən istifadə etməsini vurğulamışdı. Əsassız ittihamlar bununla da bitməmişdi. Bu il yanvarın 6-da Fransa Prezidenti Emmanuel Makron "Səfirlər Konfransı 2025" tədbirindəki çıxışı zamanı Azərbaycanı ölkəsinin dənizaşırı ərazilərinə müdaxilə etməkdə təqsirləndirmişdi: "Fransa son aylarda bir çox dənizaşırı ərazisində, xüsusilə də Yeni Kaledoniyada Azərbaycan tərəfindən qəbuledilməz müdaxilələrlə üzləşib. Azərbaycan beynəlxalq hüquqa və Ermənistana dəstəyimizlə bağlı bizimlə fikir ayrılıqlarını bununla aradan qaldıra biləcəyini düşünür".

Nə yazıq ki, istər Fransanın daxili işlər naziri Jerald Darmanen, istərsə də Prezident E.Makron anlamaq istəmirlər ki, insan azadlıqları, insan hüquqları uğrunda mübarizə bəşəri dəyərlərdir. Bunları bir ölkə inhisarına alıb özünü insan hüquqlarının "müdafiəçisi" elan edə bilməz. Bu gün tarixi qanlı qırğınlarla, faciələrlə zəngin olan Parisin "qoruyucu mələk" obrazında özünü təqdim etməsi nəinki ölkəmizdə, bütövlükdə dünyada ikrah doğurur. Fransadan fərqli olaraq, Azərbaycan bu ölkədən min kilometrlərlə uzaq, neokolonializm siyasətindən əziyyət çəkən, adi hüquqlardan məhrum olan insanlara mənəvi dəstək verir. Onların haqq səsinin dünyaya çatdırılmasında yardımçı olur. Təəssüf ki, Fransa kimi bir dövlətə rəhbərlik edənlər anlamırlar ki, XXI əsrdə kolonializmə qarşı mübarizə dünyada birlik, bərabərlik yaradılmasını tələb edir. Eyni zamanda Azərbaycan Fransadan fərqli olaraq, milyonlarla insanı yurdundan didərgin salan separatçıları silahlandırmır. Öz qlobal maraqları naminə bütövlükdə bir regionu müharibə təhdidi altında saxlamır. Adi insan hüquqları belə olmayan, illərdir əsarət altında əzilən, azadlığı uğrunda mübarizə aparan xalqlara mənəvi dəstək olur. Azərbaycan Fransa ilə yox, kolonializmə qarşı mübarizə aparır. Özünü güzgüdə əyri görən güzgünü sındırmamalı, səhvini düzəltməlidir.

Yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsi zamanı Azərbaycan Prezidenti Makronun açıqlamasına münasibət bildirərək deyib: "Dünən Fransa Prezidenti Azərbaycana qarşı yenə də cəfəng ittihamlar irəli sürmüşdü. Görünür ki, cənab Makron Azərbaycansız yaşaya bilmir. Onda hansısa belə bir maniya yaranıb və bütün günahlarını bizim üstümüzə atmaq istəyir. Mən hesab edirəm, əgər biz o qədər güclənmişik ki, Fransanın daxili işlərinə qarışa bilərik və nəyisə dəyişə bilərik, biz, sadəcə olaraq, bununla fəxr edə bilərik. Əslində, bu açıqlama öz acizliyinin etirafıdır. Özlərini böyük dövlət adlandıran bir prezident, sən demə, uzaqda - Qafqaz bölgəsində yerləşən, 10 milyon əhalisi olan ölkənin əməllərindən əziyyət çəkir. Halbuki bizim bu Fransanın daxili işləri ilə bağlı heç bir işimiz yoxdur. Sadəcə olaraq, qeyri-normal yanaşma, qeyri-adekvat siyasət buna gətirib çıxarıb".

Dövlət başçısı müsahibəsində qeyd etdi ki, əgər bu proses müəyyən səbəblər üzündən başlamışdısa, bu gün bu, artıq həyatımızın bir parçasıdır. Bu xalqlar faktiki olaraq heç bir kütləvi informasiya vasitələrinə çıxış əldə edə bilmirlər. Onlar hədələnir, onlara qarşı ədalətsizlik bir qayda olaraq artıq özünü təsdiqləyib. Onların müdafiəsinə qalxmaq istəyən tərəflərin, təşkilatların sayı da çox azdır. Dövlət başçısı qətiyyətlə qeyd edib ki, bu müstəmləkəçilik praktikası davam edənə qədər biz o xalqların yanında olacağıq.

Azərbaycan cəmiyyəti artıq öz mövqeyini ortaya qoyub. Müstəmləkəçiliklə mübarizə aparmaq məqsədi ilə yaradılmış Bakı Təşəbbüs Qrupunun fəaliyyəti ildən-ilə genişlənir.

Yanvarın 21-də Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə Fransanın müstəmləkəçiliyi altında olan Reyunyon adasına həsr olunmuş beynəlxalq konfrans keçirilib. Konfransda çıxış edən Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov bildirib ki, Fransanın dünyada 13 koloniyası var. Bu koloniyalardan ikisində insanlar məskunlaşmayıb, digər ərazilərlə əməkdaşlıq edirik. Reyunyon Fransa və Niderland müstəmləkəçiliyindən əziyyət çəkir. Orada insanlığa qarşı amansız cinayətlər törədilib. Bu gün də Reyunyonda müstəmləkəçilik davam edir. Reyunyon qlobal güclərin əlində nüvə silahı üçün plasdarmdır.

Konfransda çıxış edən "Ka Ubuntu" müstəqillik hərəkatının sədri Romen Katambara deyib ki, bəzi Afrika ölkələrinin azad olması fikri yanlışdır. Çünki müstəqil ölkənin ərazisində başqa ölkələrin hərbi bazası yerləşmir və onların mədəniyyətinə təsir etmir. O deyib: "Biz birlikdə olmalıyıq ki, imperializmə qarşı səmərəli mübarizə aparaq. Beynəlxalq ictimaiyyətə də öz səsimizi çatdıraq. Fransaya qarşı apardığımız mübarizə fonunda burada olmağımız çox vacibdir. Fransa mədəniyyətimizi assimilyasiyaya uğratmaq istəyir ki, kimliyimizi unudaq. Fransanın imperialist siyasəti Reyunyon iqtisadiyyatına mənfi təsir göstərir. Bizim üçün müstəqillik daha yaxşı bir gələcək deməkdir".




Reyunyon adasında hökm sürən iqtisadi çətinliklərlə bərabər, yerli əhalinin müxtəlif icmaları arasındakı gərginliyi də vurğulayan Romen Katambaranın sözlərinə görə, guya Reyunyonda mütəşəkkil cinayətlərin artması, ətraf mühitə ziyan vurulması, sosial vəziyyətin pisləşməsində mayottalıların təqsirkar olması təbliğatını aparan Fransa rəsmiləri, əslində, ada əhalisi daxilində həmrəyliyi pozmaq, azadlıq meyillərinin qarşısını almaq məqsədini güdürlər.

Konfransda Reyunyon gənclərinin əksəriyyətinin təhsilə əlçatanlığının təmin edilməsindən, 200 min insanın yaşayış yeri problemi ilə üzləşməsindən də danışılıb. Qeyd edilib ki, Reyunyonda böhran iqtisadi müstəmləkə sisteminə çox bağlıdır. Əhalinin sosial-iqtisadi tələblərinə cavab verilmir. Ona görə də özümüz bunu formalaşdırmalıyıq. Fransa Reyunyon əhalisinin azadlıq meyillərinin qarşısını almağa çalışır. Buna baxmayaraq, bu addımlar gözlənilən iqtisadi və sosial dəyişiklikləri təmin edə bilmədi. Nəticədə ada yüksək yoxsulluq səviyyəsi ilə üzləşərək, bu gün də çətin iqtisadi və sosial vəziyyətdədir.

"Ka Ubuntu" təşkilatının Reyunyon bölməsinin koordinatoru Benjamin Kleman bildirib: "Fransa tərəfindən qanunsuz olaraq bizim regionda çoxsaylı abortlar həyata keçirilib. Bu da insanlığa qarşı aparılan cinayətdir. Fransa heyvanlar üçün istifadə olunan dərmanlar vasitəsilə bu cinayətləri törədib. 1960-cı illərdə Reyunyon adası Fransanın departamenti olaraq, ciddi sosial və iqtisadi problemlərlə qarşılaşmışdı. Yerli əhalinin sayı artmaqda davam edirdi ki, bu da adada sosial problemlərin kəskinləşməsinə səbəb olurdu. Fransa Reyunyonda uşaqların öz kimliyini unutması üçün məqsədli şəkildə addımlar atırdı. Belə ki, Reyunyona xas olan Afrika mənşəli adlara malik uşaqlara Fransa metropoliyasına xas adlar verilərək, təzə adlarla şəxsiyyət vəsiqələri paylanırdı. 1982-ci ilə qədər davam etmiş bu məqsədyönlü köç nəticəsində öz ailə bağlarını itirmiş uşaqlar çox ciddi psixoloji problemlər yaşayıblar".

Konfransda Reyunyon xalqının öz müqəddəratını təyin etmək hüququnun tanınmasının aidiyyəti beynəlxalq təşkilatların gündəliyinə çıxarılması istiqamətində görülən işlər və bu xüsusda beynəlxalq hüquqi mexanizmlər barədə müzakirələr aparılıb. Əlbəttə, bu, belə xalqların hüquqlarının müdafiəsinə, imperializmin buxovlarının qırılmasına, əsarətdən qurtuluşa xidmət edir. Bəşəri dəyərləri anlamayan Fransanın üzərinə düşən vəzifə isə neokolonialist siyasətinə son qoyub, xalqların rahat yaşamasına imkan verməkdir.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## Türkiyəli ekspert: "Qərbin Cənubi Qafqazda sabitliyə töhfə verməyə hazır olduğuna dair vədləri səmimi deyil"

"Ermənistanın artan müdafiə xərcləri, Hindistan da daxil olmaqla müxtəlif ölkələrdən aktiv silah alması və nəhayət, ABŞ ilə müdafiə və təhlükəsizliyə xüsusi diqqət yetirməklə "Strateji Tərəfdaşlıq haqqında Xartiya"nın imzalanması regional təhlükəsizlik üçün artan narahatlıq doğurur".

AZƏRTAC xəbər verir ki, bu fikri Ankarada yerləşən Avrasiya Araşdırmaları Mərkəzinin (AVİM) analitiki Selenay Erva Yalçın ifadə edib.

Onun sözlərinə görə, hazırda İrəvan fəal şəkildə təhlükəsizlik sahəsində Moskvaya "alternativ" axtarır və bu məqsədlə həm din kartından, həm də siyasi və hərbi kanallardan istifadə edir.

Ekspert yanvarın 14-də Vaşinqtonda imzalanmış ABŞ ilə Ermənistan arasında strateji tərəfdaşlıq haqqında sənədin mətninə diqqət çəkib. "Sənədin İrəvan üçün zəif cəhəti ABŞ-nin hərbi dəstəyi, o cümlədən Amerika silahlarının satışı ilə bağlı bəndin olmaması idi" deyən türkiyəli ekspert qeyd edib ki, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan tələm-tələsik ABŞ-nin regionda sülhün təmin edilməsində rolunun "İrəvan üçün vacib olduğunu" bəyan edib. Halbuki elə həmin İrəvanda Moskvanın vasitəçilik təkliflərinə cavab olaraq daim "danışıqlar prosesində üçüncü tərəflərin iştirakını istəmədiklərini" bildirirlər.




Ekspert həmçinin Vaşinqtonun Ermənistan Konstitusiyasının hazırkı variantının dəyişdirilməsi tələblərinə, Əsas Qanunun mətnindən qonşu ölkələrə qarşı ərazi iddialarını özündə əks etdirən Müstəqillik Bəyannaməsinə istinadın çıxarılmasına qərəzli münasibətini diqqətə çatdırıb. "Təsadüfi deyil ki, Ermənistan Konstitusiyasının dəyişdirilməsi məsələsində ABŞ nümayəndələri yalnız ədalət və demokratiyanın vacibliyindən danışırlar", - deyə AVİM analitiki qeyd edib.

Onun fikrincə, Ermənistanın Rusiyadan uzaqlaşmasının digər göstəricisi İrəvanın nüvə enerjisi sahəsində Moskva ilə deyil, Qərblə əməkdaşlığı inkişaf etdirmək istəyidir.

AVİM ekspertinin sözlərinə görə, Qərblə yaxınlaşma tendensiyası Ermənistanın Avropa İttifaqına daxil olması prosesinin başlanması ilə bağlı qanun layihəsi kontekstində də özünü göstərib.

"Eyni zamanda aydın şəkildə dərk etmək lazımdır ki, Qərbin Cənubi Qafqazla bağlı planları uzunmüddətli sülh və sabitliyə töhfə verməkdən uzaqdır. O cümlədən Ermənistan-Azərbaycan münasibətləri məsələsində Qərb dövlətlərinin ermənipərəst mövqeyi tamamilə aydındır. "Xarici agentlərin qeydiyyatı haqqında" qanun layihəsi ilə bağlı ABŞ-nin Gürcüstana təzyiqi də Qərbin regional proseslərə yanaşmasının konstruktivliyi ilə bağlı nikbinlik yaratmır", - deyə ekspert bildirib.

Analitik vurğulayıb ki, Qərb dövlətləri nümayəndələrinin Cənubi Qafqazla bağlı birtərəfli və qərəzli bəyanatları onların regionda sabitliyə töhfə verməyə hazır olduğuna dair vədlərinin səmimiliyini şübhə altına alır.

## İŞİMİZ, GÜZƏRANIMIZ

# 20 faiz ərazimiz...

## Qarabağ və Şərqi Zəngəzur gözümüzün önündə yenidən qurulur

**Qarabağ və Şərqi Zəngəzurda icra edilən yenidənqurma və bərpa işləri davam edir. Regionda "Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində dörd istiqamət - infrastruktur, iqtisadiyyatın yenidən qurulması, sosial inkişaf və ətraf mühitin tarazlı irəliləyişi üzrə işlər davam edir.**



Öncə onu qeyd edək ki, dövlət proqramı çərçivəsində 215 min hektar ərazinin təkcə 2020-2022-ci illərdə 57,6 min hektarı minalardan təmizlənib. 2024-cü ildə isə daha 62 min 23 hektar ərazi zərərsizləşdirilib ki, bu da infrastruktur layihələrinin icrasında əsas şərtlərdən biri hesab edilir. İnfrastruktur qrupunun əsas hədəflərindən biri isə bölgədə hamı üçün əlçatan, etibarlı, keyfiyyətli və dayanıqlı yol, rabitə, su, qaz, elektrik, istilik təminatının həyata keçirilməsi və yenidən qurulmasıdır.

İqtisadi inkişafa gəlincə, artıq 2 sənaye zonası fəaliyyət göstərir. Ağdam Sənaye Parkı Azərbaycanda Sumqayıt Kimya Sənaye Parkından sonra yaradılmış ikinci böyük sənaye zonasıdır. Park Cənubi Qafqazda ilk beşliyə daxildir. Burada 29 sahibkarlıq subyektinə rezidentlik, 4 sahibkara qeyri-rezidentlik statusu verilib. Artıq 9 müəssisə fəaliyyət göstərir və xaricə məhsul ixrac edir.

Şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisi də sürətlə davam edir. İndiyədək minlərlə keçmiş məcburi köçkün doğma torpağına qayıdıb. Həmçinin onların məşğulluğu təmin olunub. Bu vacib işdə dövlət və özəl sektorlar birgə fəaliyyət göstərirlər. Yeri gəlmişkən onu da bildirək ki, hazırda Qarabağ və Şərqi Zəngəzurda keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini icra edən, fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizmə, sənaye, energetika müəssisələrində işləyən vətəndaşlarımız da yaşayırlar.

Qarabağ və Şərqi Zəngəzur həm də "yaşıl enerji" zonasına çevrilir ki, bu da ətraf mühitin tarazlı inkişafında mühüm rol oynayır. Bölgədə 4 min meqavatdan artıq günəş, 500 meqavatadək külək enerjisi potensialı mövcuddur. 2024-cü il ərzində regionda 32 su-elektrik stansiyasında 550 milyon kilovat-saatadək "yaşıl enerji" istehsal olunub. Eyni zamanda həmin müddətdə 270 meqavat gücündə 30-dan çox su-elektrik stansiyası istismara verilib. Yalnız keçən il Qarabağ və Şərqi Zəngəzurda Prezident İlham Əliyevin iştirakı ilə 7 su-elektrik stansiyasının, eləcə də "Xudafərin" hidroqovşağının istismara verilməsi və "Qız Qalası" hidroqovşağının açılış mərasimləri keçirilib. Həmçinin ötən ildəki Kəlbəcər və Laçın rayonları ərazisində yol infrastrukturunun, Ağdam şəhərinin daxili yollarının, Xudafərin-Qubadlı-Laçın, Əhmədbəyli-Füzuli-Şuşa, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd, Toğanalı-Kəlbəcər-İstisu və Şuşa-Laçın avtomobil yollarının tikintisi istiqamətində işlər davam edir. Hazırda uzunluğu 60 kilometrdən çox olan tunel, körpü inşa edilir, dəmir yolları çəkilir.

Milli Məclisin deputatı, iqtisadçı ekspert Vüqar Bayramov işğaldan azad edilmiş ərazilərin bərpası ilə bağlı deyib ki, Qarabağ və Şərqi Zəngəzurun bərpası Azərbaycanda prioritet məsələlərdən biridir. Ermənistanın işğalı nəticəsində tamamilə dağıdılmış həmin ərazilərin bərpası, yenidən qurulması praktik olaraq intensiv bir şəraitdə həyata keçirilir. Zəfərdən sonra regionun bərpasına 19 milyard manata yaxın vəsait xərclənib: "2025-ci ilin proqnozunu nəzərə alsaq bu, o deməkdir ki, II Qarabağ müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərimizin bərpasına 23 milyard manat vəsait xərclənəcək. Bütün bunlar Azərbaycan dövlətinin büdcəsi, daxili maliyyə mənbələri hesabına baş verir. Ona görə də bu gün Azərbaycan Qarabağ və Şərqi Zəngəzurda böyük quruculuq işləri həyata keçirir. Təbii ki, bunlar bir tərəfdən həmin ərazilərimizin bərpası, yenidən qurulması, digər tərəfdən orada iqtisadiyyatın formalaşması, reinteqrasiyası üçün yeni imkanlar yaradıb. İşğaldan azad edilmiş ərazilərimizin kifayət qədər böyük potensialı var".

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Ötən ilin uğurlu yekunları

### 2024-cü ildə 65 KOB subyektinə "Startap" şəhadətnaməsi verilib

**Vergi güzəşti almış layihələr kənd təsərrüfatı, aqrar biznes, fintek, "yaşıl iqtisadiyyat" və elektron ticarət sahələrində innovativ həllərdir.**




2024-cü ildə 104-ü mikro və 5 kiçik sahibkarlıq subyekti olmaqla "Startap" şəhadətnaməsi almaq üçün Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) ümumilikdə 109 müraciət daxil olub. Müraciətlərə "Startapın müəyyən olunması meyarları"na əsasən, Ekspertlər Şurası tərəfindən baxılıb və 65 KOB subyektinə "Startap" şəhadətnaməsi verilib. Şəhadətnamə almış sahibkarların 52-si hüquqi, 13-ü fiziki şəxs olmaqla, 62-si mikro və 3-ü kiçik sahibkardır.

"Startap" şəhadətnaməsi almış layihələr kənd təsərrüfatı, aqrar biznes, fintek, "yaşıl iqtisadiyyat" və elektron ticarət sahələrində innovativ həlləri özündə birləşdirir.

Qeyd edək ki, "Startap" şəhadətnaməsi KOB subyektlərini şəhadətnaməni aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və ya gəlir vergisindən 3 il müddətinə azad edir. Azərbaycanda innovativ sahibkarlığın inkişafı, startapların ideyalarının və startap ekosisteminin inkişafına dəstək məqsədilə Nazirlər Kabinetinin 29 yanvar 2021-ci il tarixli qərarı ilə "Startapın müəyyən olunması meyarları" təsdiq edilib. Qərara əsasən, "Startap" şəhadətnaməsinin verilməsi 2021-ci ilin may ayından KOBİA tərəfindən həyata keçirilir. Mikro və kiçik sahibkarlıq subyektləri "Startap" şəhadətnaməsini əldə etmək üçün KOBİA-ya müraciət edə bilərlər.

### Son bir ildə əlilliyi olan 13 minə yaxın şəxs məşğulluq tədbirlərinə cəlb edilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən məşğulluq xidmətlərinin icrasında həssas əhali qruplarına, o cümlədən əlilliyi olan şəxslərə üstünlük verilir.**




Son bir ildə bu kateqoriyadan olan 13 minə yaxın şəxs məşğulluq tədbirlərinə cəlb edilib. Onlardan 10,9 min şəxs münasib işlərlə təmin edilib. Həmçinin, ötən il əlilliyi olan 1,5 min şəxs özünüməşğulluq proqramına cəlb edilib. Onlar proqram çərçivəsində mal və materiallarla təmin olunaraq öz kiçik təsərrüfatlarını qurublar.

Agentlik tərəfindən son bir ildə əlilliyi olan 500-ə yaxın şəxs isə əmək bazarının tələblərinə uyğun peşələr üzrə peşə hazırlığına cəlb edilib.

## Ötən ilin uğurlu yekunları

### Keçən il Azərbaycana gələn turistlərin sayı 25,9 faiz artmışdır

#### 196 ölkənin vətəndaşları qonağımız olmuşlar

**Dövlət Statistika Komitəsi Dövlət Sərhəd Xidmətinin məlumatına istinadən xəbər verir ki, 2024-cü ildə Azərbaycana dünyanın 196 ölkəsindən 2 milyon 626,7 min və ya əvvəlki illə müqayisədə 25,9 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir.**

Gələnlərin 27,8 faizi Rusiya Federasiyası, 16,2 faizi Türkiyə, 9,3 faizi Hindistan, 8,0 faizi İran, 4,2 faizi Gürcüstan, 3,7 faizi Səudiyyə Ərəbistanı, 3,3 faizi Qazaxıstan, 3,1 faizi Pakistan, hər birindən 1,8 faiz olmaqla Birləşmiş Ərəb Əmirlikləri və Özbəkistan, 1,7 faizi Çin, 1,4 faizi Ukrayna, 1,3 faizi Türkmənistan, 1,2 faizi Küveyt, 1,1 faizi İsrail, hər birindən 1,0 faiz olmaqla Belarus və Böyük Britaniya, 12,1 faizi digər ölkələrin vətəndaşları olmuşdur.

2023-cü illə müqayisədə Hindistandan gələnlərin sayı 2,1, İspaniyadan - 2, Cənubi Koreyadan - 1,9, Çindən - 1,9 dəfə, Qırğızıstandan - 49,6, Qazaxıstandan - 48,6, Pakistandan - 46,7, Filippindən - 44,3, Omandan - 41,6, İordaniyadan - 39,7, Polşadan - 37,0, ABŞ-dən - 35,1, İtaliyadan - 35,1, Almaniyadan - 27,4, İrandan - 27,2, Niderlanddan - 27,1, Türkmənistandan - 27,0, Tacikistandan - 21,7, Səudiyyə Ərəbistanından - 21,6, Yəməndən - 21,0, Fransadan - 20,0, Böyük Britaniyadan - 19,2, Misirdən - 17,2, Rusiya Federasiyasından - 17,0, Özbəkistandan - 17,0, Ukraynadan - 15,6, Türkiyədən - 12,7, Moldovadan 11,8 faiz artmışdır.

2023-cü illə müqayisədə Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 34,9 faiz artaraq 112,3 min, körfəz ölkələrindən gələnlərin sayı 21,4 faiz artaraq 425,0 min, MDB ölkələrindən gələnlərin sayı 18,8 faiz artaraq 979,0 min nəfər olmuşdur.

Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 75,6 faizi hava, 23,1 faizi dəmir yolu və avtomobil, 1,3 faizi isə dəniz nəqliyyatından istifadə etmişdir.

2023-cü illə müqayisədə xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının ümumi sayı isə 15,5 faiz artaraq 2 milyon 158,9 min nəfər olmuşdur. İrana gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı 32,0, Rusiya Federasiyasına gedənlərin sayı 11,6, Gürcüstana gedənlərin sayı 11,5, Türkiyəyə gedənlərin sayı 8,5 faiz artmışdır. Azərbaycan Respublikası vətəndaşlarının 41,0 faizi Türkiyəyə, 20,7 faizi Rusiya Federasiyasına, 8,7 faizi Gürcüstana, 8,7 faizi İrana, 20,9 faizi digər ölkələrə səfər etmişdir.

2024-cü ildə xarici ölkələrə səfər edən Azərbaycan Respublikası vətəndaşlarının 69,4 faizi hava, 28,5 faizi dəmir yolu və avtomobil, 2,1 faizi isə dəniz nəqliyyatından istifadə etmişdir.

# Köhnə problemə yeni yanaşma

## Müasir proqramlar işaxtaran şəxslərin potensialını üzə çıxarır

**Ölkədə həyata keçirilən sosial islahatların əsas istiqamətlərindən biri də əhalinin daha çox iş yeri ilə təminatıdır. Yeni istehsal və xidmət sahələrinin açılması da ilk növbədə buna hesablanır. Özü də bu istiqamətdə şəhərlərlə yanaşı, bölgələrdə də çox iş görülür.**

Konkret rəqəmlərə nəzər salaq: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən 2020-2025-ci illəri əhatə edən proqramlarla 396,7 min şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub. Onlardan 160 min nəfəri münasib işlə təmin olunub, qalan 17,3 min nəfəri kiçik ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramına cəlb edilib.

Dövlət Məşğulluq Agentliyi tərəfindən gənc nəslin əmək bazarına uyğun düzgün peşə seçiminə dəstək verilməsi üçün peşəyönümü xidmətlər də göstərilir. Bu xidmətlərlə əhatə olunanların illik sayı 2018-ci ildəki 118 mindən 1,7 dəfə artaraq 2024-cü ildə 204 minə çatıb. Təkcə ötən il 203 mindən artıq şəxsə peşəyönümü məsləhət xidməti göstərilib. Onlardan 181 min 617 vətəndaş fərdi, 112 min nəfərsə qrup peşəyönümü məsləhət xidmətləri alıb. Həmin şəxslər karyera planlaması, düzgün ixtisas, peşə seçimi, iş axtarışı yolları, CV, istək məktubunun hazırlanması, müsahibəyə hazırlıq kimi mövzular barədə məlumatlandırılıblar. Peşəyönümü məsləhət tədbirləri işsiz və işaxtaran şəxslərlə yanaşı, şagirdlər, abituriyentlər və tələbələri də əhatə edib.

Özünüməşğulluq proqramının əhatə etdiyi fəaliyyət sahələri siyahısına yeni istiqamətlər də əlavə olunub. Artıq işsiz və işaxtaran şəxslərin həmin sahələr üzrə özünüməşğulluq proqramına müraciət etmək və proqramın dəstəyi ilə bu sahələrdə öz kiçik bizneslərini qurmaq imkanları var. Hazırda proqram çərçivəsində iştirakçılara kənd təsərrüfatı və istehsal-xidmətyönlü 32-dək iqtisadi fəaliyyət sahəsi üzrə zərf təqdim edilir.



Bu günlər Dövlət Məşğulluq Agentliyi əhalinin məşğulluğunu təmin etmək üçün daha bir yeni layihə hazırlayıb. Həmin layihə üzrə oxşar-əlaqəli iqtisadi fəaliyyət növləri üzrə aktivlər verilmiş şəxslərin eyni məkanda birgə klaster müəssisə kimi fəaliyyəti təmin ediləcək. Dövlət Məşğulluq Agentliyinin yerli icra hakimiyyətləri və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə birgə həyata keçirdiyi yeni "Avtoklaster" layihəsi çərçivəsində eyni və ya oxşar iqtisadi fəaliyyət sahələri üzrə özünüməşğulluq proqramına cəlb edilərək aktivlərlə təmin olunacaq şəxslərin eyni məkanda yerləşdirilməklə klaster müəssisə formasında birgə fəaliyyət göstərmələrinə imkan yaradılacaq.

Layihənin ilkin mərhələdə Oğuz rayonunda reallaşdırılması nəzərdə tutulur. Həmin rayonda özünüməşğulluq proqramına cəlb edilmiş bir qrup şəxsin əmək bazarının tələbi və iqtisadiyyatın prioritet sahələri nəzərə alınaraq "Avtodəmirçi xidmətləri-PDR batıqların bərpası", "Avtorəngsaz", "Avtoçilingər xidməti-Katalizatorların təmizlənməsi xidməti", "Avtoelektrik - Kondisioner təmiri", "Avtoyağlama xidməti", "Avtorazval xidməti", "Avtotəmizləmə xidməti", "Özünüxidmət avtotəmizləmə xidməti", "Avtodisk təmiri - avtomobil şinlərinin bərpası" üzrə əmlaklarla təmin edilməsi və onların eyni məkanda birgə fəaliyyətinin təşkili planlaşdırılır. Məqsəd özünüməşğulluq proqramının səmərəliliyini daha da yüksəltmək, proqramdan yararlanan şəxslərin biznes fəaliyyətlərinin rəqabətə davamlılığını təmin etmək və gəlirlərini artırmaqdır. Layihə iştirakçılarının seçimi zamanı qeyd edilən sahələrdən biri üzrə təcrübəsi olan şəxslərə üstünlük veriləcək. Gələcəkdə layihə digər bölgələrdə də həyata keçiriləcək.

Ötən il 1500-ə yaxın şəxsin sosial kvota üzrə iş yerlərində məşğulluğu təmin edilib. Bununla yanaşı, 2024-cü il əməkhaqqının birgə maliyyələşdirilməsi proqramı üzrə müxtəlif sektorlardan olan işəgötürənlərlə əməkdaşlıq edilib, müqavilə bağlanmış işəgötürənlərin sayı 111-ə çatdırılıb. Proqram üzrə 391 nəfər işlə təmin olunub. Bundan başqa, il ərzində işsiz və işaxtaran şəxslərin işlə təmin edilməsi və işəgötürənlərin qısa müddətdə zəruri peşəyə, ixtisas və təcrübəyə malik olan kadrların seçiminə kömək göstərilməsi üçün 147 əmək yarmarkası təşkil edilib. İşəgötürənlərlə əməkdaşlıq çərçivəsində təşkil olunan tədbirlərdə ümumilikdə 1800-ə yaxın müəssisə iştirak edib və işsiz və işaxtaran şəxslərə 15,7 min vakansiya təqdim olunub.

"Məşğulluğa Dəstək Layihəsi"nə bu il daha 5 minədək şəxsin cəlb edilməsi gözlənilir. Bu o deməkdir ki, 2020-2025-ci illəri əhatə edən "Məşğulluğa Dəstək Layihəsi"nə cari il daha bu sayda şəxsin cəlb edilməsi nəzərdə tutulur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan bu layihə özünüməşğulluq proqramının genişləndirilməsinə dəstək məqsədi daşıyır. Layihə gənclər, qadınlar, əlilliyi olan şəxslər, şəhid və aztəminatlı ailələrin üzvləri, digər həssas qruplara aid işsiz şəxslərin istehsal və xidmət sahələri üzrə avadanlıqlar əldə edərək əmək bazarına çıxışına imkan yaradır. 22 min işsiz şəxsi əhatə etməsi nəzərdə tutulan layihə uğurla alınarsa, bu ilin sonunadək həmin rəqəmi 25 minə çatdırmaq hədəflənib.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# REGİONLAR

## Ballıcada yaşayış üçün hər cür şərait yaradılıb

**Keçmiş məcburi köçkünlərin doğma yurda qayıdışı davam edir. Bu günədək Xocalı rayonunun Ballıca kəndinə 68 ailə (373 nəfərin) köçürülməsi təmin olunub.**

Ballıca kəndində keçmiş məcburi köçkünlərin məskunlaşması, rahat və təhlükəsiz yaşaması üçün hər cür şərait yaradılıb.

AZƏRTAC xəbər verir ki, yenidən bərpa olunan kənddə zəruri sosial-texniki infrastruktur qurulub. Kənd fasiləsiz elektrik enerjisi, təbii qaz, içməli su və yüksək sürətli internetlə təmin edilib. Burada fəaliyyət göstərən dövlət müəssisələri, özəl qurumlar kənd sakinlərinin məşğulluğunun təmin edilməsinə dəstək verir.

Ballıca sakinləri yaşadığı evin həyətyanı sahəsində yardımçı təsərrüfat qurub, meyvə ağacları becərir, ev quşları və mal-qara saxlayır.

Qeyd edək ki, Böyük qayıdış işğaldan azad olunmuş ərazilərə yeni həyat gətirir, bu yerlərin dirçəlişini sürətləndirir. Məcburi köçkünlərin doğma yurdda dayanıqlı məskunlaşması və reinteqrasiyası dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Böyük qayıdış proqramı çərçivəsində hər bir dövlət qurumu verilmiş vəzifələrin icrası ilə bu prosesə dəstək olur. Bərpa edilən və yenidən tikilən yaşayış məntəqələrində əhalinin adaptasiyası üçün reinteqrasiya tədbirləri həyata keçirilir.

### Ötən ilin uğurlu yekunları

## Daha çox istehsal, daha yaxşı güzəran, daha müasir infrastruktur

**Həyata keçirilən irimiqyaslı islahatlar, regionlara cəlb edilən investisiyaların həcminin artması Goranboyun da inkişafını sürətləndirmişdir. Rayonun siması başdan-başa dəyişmiş, əhalinin güzəranı yaxşılaşmışdır.**

Bu baxımdan 2024-cü il də goranboylular üçün istisna olmadı. Rayon iqtisadiyyatı əksər sahələr üzrə irəliləmiş, əvvəlki illərin göstəriciləri üstələnmişdir. Rəqəmlərə müraciət edək: ötən il rayon üzrə ümumi məhsul buraxılışının dəyəri 468 milyon 391,3 min manat olmuşdur ki, bu da 2023-cü ilin müvafiq dövrünə nisbətən 21,8 faiz çoxdur. 2024-cü ildə rayon üzrə əsas kapitala yönəldilmiş investisiyalar 10,5 faiz artaraq 2 milyon 828,3 min manata çatmışdır.

Bütün kənd rayonları kimi, Goranboyun da iqtisadiyyatının əsasını aqrar sektor təşkil edir. Bu sahə üzrə keçən ilin göstəricilərinə nəzər salaq: 2024-cü ildə rayon üzrə 15739,3 hektar arpa, 7559,7 hektar buğda olmaqla 23299,5 hektar taxıl sahəsində biçin aparılmışdır. Arpa üzrə orta məhsuldarlıq 33,6, buğda üzrə 36,2 sentner olmuşdur. Bundan başqa, baramaçılıqla məşğul olan 51 kümçü 110 qutu baramaqurdundan 4174 kiloqram məhsul təhvil vermişdir. Rayon ərazisində həmçinin 8 hektar sahədən 17 ton tütün yığılmışdır. Pambıq istehsalında da göstəricilər müsbətdir. 1450,4 hektardan 4100 ton məhsul toplanmışdır.

Payız-qış mövsümünə hazırlıqla bağlı rayon ərazisində növbəti məhsul ili üçün 24692,5 hektar ərazidə şum qaldırılmış, 5694,5 hektarda buğda, 12549 hektarda arpa, 848 hektarda xəsil, 461 hektarda təzə yonca səpini və 412,14 hektar sahədə digər əkin aparılmışdır. Paralel olaraq, əkin sahələrinin suvarılması da diqqət mərkəzində saxlanılmışdır. Bunun üçün 969 subartezian quyusu, 16 nasos stansiyası və ümumi uzunluğu 2019 kilometr olan suvarma kanallarına vaxtlı-vaxtında xidmət göstərilmiş, quyulara 176 təzə nasos quraşdırılmış, məhsuldarlığını itirmiş 22 subartezian quyusunda əsaslı təmir işləri görülmüş, kəndlərdə yeni 10 subartezian quyusu istismara verilmişdir. Su itkilərinin qarşısının alınması üçün müxtəlif kanal və arxlarda təmizləmə işləri də aparılmışdır. Tap Qaraqoyunlu kəndində isə 30 il düşmən işğalı altında qalmış ərazidə 7 kilometr suvarma kanalı bərpa olunmuşdur.

Keçən il rayonun yol təsərrüfatının yenilənməsi də davam etmişdir. 23 nömrəli Yol İstismarı İdarəsi 12 kilometr respublika, 143 kilometr yerli əhəmiyyətli olmaqla ümumilikdə 155 kilometr avtomobil yollarına və bu yollar üzərində olan yol qurğularına xidmət etmişdir. Payız-qış mövsümünə hazırlıqla əlaqədar maşın və mexanizmlər saz vəziyyətə gətirilmiş, texnikaların fasiləsiz işləməsi üçün lazımi qədər benzin və dizel ehtiyatı yaradılmış, fəhlə və mexanizatorlar xüsusi geyimlə təmin olunmuş, yollarda buzlaşmanın qarşısını almaq üçün qum ehtiyatı yaradılmışdır. Bunlardan savayı, Qızılhacılı qəsəbəsində Milli Qəhrəman Yunis Əliyev, Əlirzalı kəndində şəhid Əzim Şahmalıyev adına küçələrdə əsaslı təmir işləri başa çatdırılmış, Tapqaraqoyunlu kəndində şəhid Hidi Vəliyevin ailəsinin yaşadığı evin həyətinə asfalt-beton örtüyü salınmışdır.

Əhalinin işlə təminatı da ön planda olmuşdur. Gəncə-Daşkəsən Regional Məşğulluq Filialı tərəfindən 2024-cü ildə 1508 nəfər daimi, 353 nəfər mövsümi, 75 nəfər özünüməşğulluq proqramı çərçivəsində işlə təmin olunmuşdur.

Həmişə olduğu kimi, keçən il də rayonda şəhid ailələri və qazilərin sosial qayğılarının öyrənilməsinə, onların problemlərinin həllinə həssaslıqla yanaşılmışdır. Rayon rəhbərliyi və digər məsul şəxslər tərəfindən şəhid ailələri və qazilər müntəzəm ziyarət olunmuş, onlara daxili imkanlar hesabına yardımlar göstərilmişdir. 47 yaşayış məntəqəsində 172 şəhid ailəsi və 117 Vətən müharibəsi iştirakçısı ilə görüşlər keçirilmişdir. Ötən il 8 şəhid ailəsi, 5 Qarabağ müharibəsi əlili mənzil növbəsinə alınmışdır.

İl ərzində rayonun park və xiyabanları, o sırada Ümummilli Lider Heydər Əliyevin adını daşıyan park müasir üslubda yenidən qurulmuşdur. Eyni zamanda sakinlərin mənzil şəraitinin yaxşılaşdırılması üçün Goranboy şəhərində beşmərtəbəli 40 mənzilli, Dəliməmmədli şəhərində 2 mərtəbəli 8 mənzilli yaşayış binaları, 130 çarpayılıq rayon Mərkəzi Xəstəxanası, Abbasqulular, Gürzalılar kəndlərində və Kürəkçay qəsəbəsində modul tipli məktəb binaları istifadəyə verilmişdir. Yaşayış məntəqələrinin 81,2 faizini əhatə edən 7 avtomobil yolu, o cümlədən 38 kilometrlik Əlirzalı-Xan Qərvənd-Yeniyol-Təklə-Aşağı Ballıqaya-Səfikürd-Rəhimli-Tap Qaraqoyunlu və 14 min nəfər əhalinin istifadə etdiyi 6 kəndi birləşdirən 16 kilometrlik Dəliməmmədli-Düzqışlaq-Bağçakürd-Dəyirmanlar-Azad-Nizami avtomobil yolları çəkilmişdir. 30 çarpayılıq Dəliməmmədli şəhər xəstəxanası isə əsaslı şəkildə təmir edilmişdir.




Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tövsiyəsi və Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində Goranboy şəhər 1 saylı uşaq bağçası-körpələr evi inşa edilmiş, 700 şagirdlik Goranboy şəhər 1 nömrəli, Təhsil Nazirliyi tərəfindən yeni inşa edilmiş 920 şagirdlik Dəliməmmədli şəhər və Qaraçinar kənd və Tap kənd tam orta məktəbləri istifadəyə verilmişdir.

Bunlardan əlavə, il ərzində rayon mərkəzindəki Şəhidlər Xatirə Kompleksi və Xan Qərvənd kənd Şəhidlər Abidəsi müasir memarlıq üslubunda yenidən qurulmuş, Dəliməmmədli şəhəri, Qızılhacılı qəsəbəsi, Xan Qərvənd və Fəxralı kəndlərinin Şəhidlər xiyabanlarında yenidənqurma-abadlıq işləri aparılmışdır. Goranboy şəhərində 200 nəfərin işlə təmin olunduğu Medlife Hospital da inşa edilmişdir. Hazırda Goranboy şəhərində 4 mərtəbəli 16 və 20 mənzilli, Dəliməmmədli şəhərində 4 mərtəbəli 16 mənzilli yaşayış binalarının, Qazanbulaq qəsəbəsində 150 nəfərin işlə təmin olunacağı astar və üzlük gips məmulatları zavodunun, Suvarma Sistemləri İdarəsinin inzibati binasının tikintisində son tamamlama işləri görülür. "Şəmkir Maşın" kanalının III növbəsinin, Qızılhacılı qəsəbə 1 nömrəli tam orta məktəb binasının və Goranboy şəhər İnteqrasiya təlimli internat tipli gimnaziyanın tikintisi isə başa çatmışdır.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

## Naxçıvanda DVX-yə daxil olmuş müraciətlərin sayı açıqlanıb

**Ötən il Naxçıvanda vergi orqanlarına ümumilikdə 1865 müraciət daxil olub ki, onların da 87,9 faizini ərizələr, 12,1 faizini şikayətlər, qalan hissəsini isə müxtəlif təkliflər təşkil edib.**

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (DVX) Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, müraciətlərin 98,4 faizinin baxılması 2024-cü ildə başa çatdırılıb, 1,6 faizi isə hazırda icradadır. Baxılmış müraciətlərdən 95,1 faizi həll olunub, 2,8 faizi barədə müvafiq izahat verilib, qalanları ilə bağlı qanunamüvafiq qərarlar qəbul edilib.



Ötən il Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətində müvafiq vəzifəli şəxslər tərəfindən ümumilikdə 153 vətəndaşın qəbulu təşkil olunub. Qəbul zamanı hər bir vətəndaşın müraciətinə fərdi qaydada yanaşılıb, onların qanuni tələblərinin müsbət həlli üçün lazımi tədbirlər görülüb, həlli imkan xaricində olan məsələlərlə bağlı qanunamüvafiq izahatlar verilib.

## Qubanın qış nağılı

**Ölkəmizdə turizmin bir çox növünün inkişafı üçün geniş imkanlar mövcuddur. O üzdən təbiətimiz ilin bütün fəsillərində qonaq-qaradan korluq çəkmir. Tariximiz, təbiətimiz, infrastrukturumuz, mətbəximiz, qonaqsevərliyimiz yerli qonağı da, xarici turisti də heyran edir.**



Bunların hamısını yurdumuzun dilbər guşəsi olan Quba rayonuna da birbaşa şamil etmək olar. Hələ sovet dönəmində Quba deyəndə bir onun dadı ilə seçilən alması yada düşürdü, bir bu bölgənin bənzərsiz təbiəti. Müstəqillik dövründə, xüsusən Prezident İlham Əliyev regionların sosial-iqtisadi inkişafını prioritet istiqamət kimi qarşıya qoyub tədbirlər görəndən sonra Quba da yeni dövrə qədəm qoydu. Zəngin flora və faunaya, əsrarəngiz təbiətə malik olan bu rayon yayda da, qışda da turistlərin maraq göstərdiyi və həvəsə gəldiyi məkanlar sırasında yerini daha da möhkəmləndirdi.

Şahdağın ətəklərində və Qudyalçayın sahilində qərar tutan Quba ilin bütün fəsillərində gəlməli və görməlidir. Aydındır ki, turizm deyəndə, ilk yada düşən fəsil yay olur. Amma Quba və Qusara qışda da istirahətə gələnlərin sayı azalmır. Çünki regionda bunun üçün təbiətin səxavəti və infrastruktur var.

Qubanın qış turizm simasını qardan korluq çəkməyən Xınalıq, Qrız, Nügədi kəndləri, ağappaq örpəyə bürünən meşələri və onlarla digər amil şərtləndirir. Bu sıraya fəsildən asılı olmayaraq, Qubanın qədim tarix-mədəniyyət abidələrini, sənətkarlıq nümunələrini də daxil etmək lazımdır. Üstəlik, xalçaçılıq, misgərlik kimi qədim peşələrin hələ də Qubada yaşadılması buranı ilin bütün aylarında cəlbedici edir.

Rayonda dağ, kənd, çadır turizmi geniş yayılsa da, qışda əsasən kənd və hotel turizminə meyil daha çox olur. Turistlərin başlıca marşrutlarından biri Xınalıq istiqamətinədir. Xınalığın tarixi, qədim yaşayış məskəni kimi indiyədək qalması kəndə marağı artırır. Əvvəllər Xınalıq yolu təmirsiz idi. İllər öncə Prezident İlham Əliyevin tapşırığı ilə Xınalığa gedən yol yenidən inşa edildi. Eyni zamanda ətraf kəndlərə də yol çəkildi. Bu, həmin kəndlərdə turizmin inkişafı üçün yeni imkanlar açdı.

Haput, Qrız, Cek, Afurca, Gültəpə, Nügədi və digər kəndlərdə əsasən kənd turizmi inkişaf edib. Qışda bu kəndlərin ərazilərində yerləşən evlərin çoxu turistlər tərəfindən kirayə tutulur. Gültəpə kəndinə yol çəkildikdən sonra bura xeyli turist gəlir. Rayon rəhbərliyi soyuq havaları nəzərə alaraq maşınların rahat, təhlükəsiz hərəkətini təmin edən xüsusi briqada yaradıb. Briqada əsas turist marşrutlarına nəzarət edir.

Kənd əhalisi də turistlərin istirahəti üçün yaxşı şərait yaratmağa çalışır. Gültəpə sakini Səmayə Qarayeva deyir ki, yeni il ərəfəsində kənddəki evlərin əksəriyyətini turistlər kirayələmişdir: "Hələ kəndin daxili yolları təmir edilsə, qonaqlarımız daha çox olar. Turistlər üçün tam rahatlıq yaranar, kənd sakinlərinin ailə büdcəsinə də sanballı kömək olar".

Xatırladaq ki, Qubada turistlər üçün bir neçə əsas marşrut var. Yayda ən çox Xınalıq, Qrız, Qəçrəş istiqamətində turist sıxlığı olur. Qışda isə Qonaqkənd istiqamətində turistlərin artımı müşahidə edilir ki, bu da yolların təmirli olması ilə bağlıdır. İndi artıq səfalı Möhüc, Tülər, Yenikənd kimi dağ kəndləri də yeni turist marşrutuna çevrilib. Təxmini hesablamalara görə, son iki ayda Qubaya bu istiqamətdə gələn turistlərin sayı 18 mini ötüb.

Qışda hotel turizminə də maraq təbiidir. Dekabrın sonu, yanvarın əvvəllərində Qubanın hotellərində yer tapmaq problemə çevrilmişdi. İstifadəyə verilən yeni hotel və SPA mərkəzlərində istirahət edənlərin sayı-hesabı yox idi.

Yaşadığımız texnologiyalar əsri bu gün Qubada da peşəkar tanıtım sektorları yaradılmasına imkan verib. Səfəröncəsi istər yerli, istərsə də əcnəbi turist internet vasitəsilə istirahət yerlərini araşdırır, qarşılaşdığı onlarla məkandan birini seçir. Hazırda Qubada bu istiqamətdə ciddi işlər aparılır. "Məstərgah", "Cənnət bağı", "Təngaltı", "Marxal" və digərlərinin isə artıq öz saytları var.

Qışda istirahət üçün Qubanı seçsəniz, məmnunluğunuz yaydakından az olmayacaq. Yaya nisbətən münasib qiymətlər, ruhu təmizləyən saf hava və şaxtalı gecələr əsl qış nağılıdır.

***Akif ƏLİYEV, "Azərbaycan"***

## İşğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən işəgötürənlərlə növbəti görüş keçirilib

**İşğaldan azad olunmuş ərazilərimizdə məşğulluq proqramları mütəmadi olaraq genişlənir. Həmin ərazilərə köçürülən sakinlərdən əmək qabiliyyətli olanların 86 faizinin məşğulluğu artıq təmin edilib.**

Bu barədə işğaldan azad olunmuş ərazilərimizdə fəaliyyət göstərən işəgötürənlərlə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən növbəti görüşdə bildirilib.

Görüşdə Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dövlət Sərhəd Xidməti, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, Minatəmizləmə Agentliyi, "Dost Aqropark" MMC və "Safe Point" QSC-nin nümayəndələri iştirak ediblər.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev Böyük Qayıdışa dair Dövlət Proqramı çərçivəsində görülən işləri, işğaldan azad edilmiş ərazilərimizdə məşğulluğun təminatı istiqamətində həyata keçirilən tədbirləri qeyd edib. Bu tədbirlərin təşkilində işəgötürənlərlə əməkdaşlığa xüsusi önəm verildiyi diqqətə çatdırılıb.

Qeyd olunan ərazilərə köçürülən və köçürülməsi nəzərdə tutulan vətəndaşların məşğulluqlarının təmin olunması məqsədilə işəgötürənlərlə birgə görülmüş işlər, bu istiqamətdə qarşıda duran vəzifələr müzakirə olunub.

***Lazım QULİYEV, "Azərbaycan"***

## Ötən il "Şəhərdən kəndə" layihəsi çərçivəsində 203 fermerə təlim keçirilib, 5 aqroturizm təsərrüfatına dəstək verilib

**Aqroturizmin inkişaf etdirilməsi, təsərrüfat sahibləri üçün əlavə gəlir imkanlarının yaradılmasına xidmət edən "Şəhərdən kəndə" layihəsi çərçivəsində 2024-cü il ərzində Masallı, Kürdəmir, Lerik, Lənkəran, Quba, Şəmkir, Qusar rayonları üzrə ümumilikdə 12 təsərrüfatın qiymətləndirilməsi həyata keçirilib.**

Qiymətləndirmədən sonra İsmayıllı və Masallıda 2 aqroturizm təsərrüfatında abadlaşdırma işləri yekunlaşdırılıb, Şabran, Quba və Astarada 3 təsərrüfata dəstək göstərilib.

Layihədə iştirak üçün əsas meyar olaraq aqrar sahənin mövcudluğu, əraziyə qədər yolun rahatlığı, turistlər üçün istirahət imkanlarının müxtəlifliyi və təsərrüfat sahibinin turistlərlə rəftar baxımından malik olduğu şəxsi keyfiyyətlər nəzərə alınır.

2024-cü ildə dəstək göstərilən təsərrüfatlar üzrə turistlər üçün 8 aqrotur yaradılıb, aqroturların satış şəbəkəsinin genişləndirilməsi məqsədilə 19 turizm şirkətinin nümayəndələri üçün infotur təşkil edilib, 91 şirkətin nümayəndələri üçün isə təqdimat keçirilib.

İl ərzində təsərrüfat sahiblərinin "Şəhərdən kəndə" layihəsi barədə məlumatlılığını artırmaq məqsədilə Lerik, Biləsuvar, Gədəbəy, Tovuz, Daşkəsən rayonlarında 107 fermerə təqdimat keçirilib. Bundan əlavə, daha 203 təsərrüfat sahibi aqroturizmin əsasları, qida məhsullarının etiketlənməsi və markalanması ilə təlimlərə cəlb olunublar.

Dəstək göstərilən aqroturizm təsərrüfatlarının tanıdılması məqsədilə fermerlərə media və marketinq dəstəkləri göstərilib, təsərrüfat sahələrində çəkilişlər aparılıb, mediatur və müsabiqələr təşkil edilib.

Qeyd edək ki, 2025-ci ilədək layihə çərçivəsində 342 təsərrüfatdan 391 fermerə aqroturizmlə bağlı müxtəlif mövzularda təlimlər keçirilib. Təsərrüfat sahəsinin inkişaf etdirilməsi və turistlər üçün xidmət səviyyəsinin artırılması məqsədilə 26 təsərrüfatda təmir-abadlaşdırma işləri aparılıb, təsərrüfatlar müxtəlif avadanlıqlarla təmin olunub, onların fəaliyyətinə marketinq dəstəyi verilib.

"Aqrar Tədarük və Təchizat" ASC-nin "Şəhərdən Kəndə" layihəsi "PAŞA Holding"in dəstəyi ilə həyata keçirilir.



# Mədəniyyət



● Ötən ilin uğurlu yekunları

## Azərbaycan mədəniyyətini tanıdan, təbliğ edən tədbirlər




**Milli mədəniyyətimizin zənginliyi Azərbaycanın dünyanın ən qədim yaşayış yerlərindən biri olduğunu təsdiqləyir. Xalq sənətkarlığı - xalçaçılıq, nəqqaşlıq, misgərlik, boyaqçılıq, dulusçuluq və digər sənət nümunələri bu zənginliyin və qədimliyin nişanələrindəndir.**

Azərbaycan xalqı hər zaman öz milli-mədəni irsini yüksək tutur və nəsillərdən-nəsillərə ötürür. Ancaq zaman göstərir ki, xalqın mənəvi dəyərlərinə, mədəni irsinə daim sahib çıxması, onları qoruyub yaşatması qədər zəruri olan bir məsələ də onu təbliğ etmək, tanıtmaqdır. Müstəqil respublikamız son illər bu istiqamətdə olduqca əhəmiyyətli və təqdirəlayiq işlər həyata keçirir. Ölkəmizin mədəniyyət sahəsində evsahibliyi etdiyi mühüm tədbirlər bu qəbildəndir. Belə tədbirlər sırasında "Xarıbülbül" Musiqi Festivalı, "Muğam Dünyası" Beynəlxalq Musiqi Festivalı, Qəbələ Beynəlxalq Musiqi Festivalı, Bakı Beynəlxalq Caz Festivalı və digər tədbirlər xüsusi qeyd olunmalıdır.

### "İslam dünyasının mədəniyyət paytaxtı" Şuşada unudulmaz günlər

Ötən il də mədəniyyət sahəsində silsilə beynəlxalq tədbirlər uğurla keçirildi. Dünyanın ayrı-ayrı ölkələrindən olan sənətkarlar ölkəmizdə bir araya gəldilər. Onu da qeyd edək ki, festivallar və digər tədbirlər mədəniyyətlərin təbliğinə və dialoquna geniş şərait yaradır. Eyni zamanda bu tədbirlər xalqımızın özünəməxsus, bənzərsiz və zəngin mədəniyyətinin təbliğində əvəzsiz rol oynayır. Azərbaycanın yaradıcı imkanlarının dünya mədəniyyətində nümayiş etdirilməsində ölkəmizdə təşkil olunan sərgilərin, teatr festivallarının, kinematoqrafiya layihələrinin də əhəmiyyət daşıdığını qeyd etməliyik.



Beynəlxalq ictimaiyyətə Azərbaycanın qədim mədəniyyətinin və müasir incəsənətinin tanıdılmasında UNESCO-nun himayəsi altında keçirilən tədbirlərin, İslam Mədəniyyəti Paytaxtı layihəsi çərçivəsində reallaşan proqramların da əhəmiyyəti danılmazdır.

Ötən il bir çox yaddaqalan mədəniyyət tədbirinin keçirildiyi məkan yenə də Qarabağın tacı Şuşa şəhəri oldu. Hələ 2023-cü il sentyabrın 25-də Qətərin paytaxtı Dohada keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında bu şəhərin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi tarixi hadisəyə çevrildi. Dövlət başçısı İlham Əliyev 2023-cü il noyabrın 21-də Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında sərəncam imzaladı.

2024-cü il mayın 11-də Şuşanın Cıdır düzündə VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimi keçirildi. Mərasimdə çıxış edən Prezident İlham Əliyev bildirdi ki, ölkəmizdə bir çox beynəlxalq tədbir, musiqi festivalı, mədəni tədbir keçirilir: "Təbii ki, Şuşa şəhərinin "İslam dünyasının mədəniyyət paytaxtı" olması bizə əlavə imkan verəcək ki, öz mədəniyyətimizi həm müsəlman ölkələrinin ictimaiyyətinə, həm də dünya ictimaiyyətinə çatdıraq".

İslam dünyasının mədəniyyət paytaxtında - Şuşada ilboyu bir-birindən maraqlı, unudulmaz tədbirlər düzənləndi. İslam Dünyasının Mədəniyyət Forumu keçirildi. Bu çərçivədə Şuşada İslam Əməkdaşlığı Təşkilatının mədəni irsin mühafizəsinə həsr olunmuş beynəlxalq konfransı "İslam dünyasının itirilməkdə olan qeyri-maddi mədəni irs nümunələri" mövzusunda "dəyirmi masa", sərgi və digər təqdimatlar təşkil olundu.

İyunun 1-də "Şuşa türk dövlətləri birliyinin mədəniyyət incisidir" adlı beynəlxalq uşaq yaradıcılıq festivalı keçirildi. Bu beynəlxalq tədbirin təşkil olunmasında əsas məqsəd türkdilli dövlətlərdən olan uşaqlar arasında dostluq tellərini möhkəmləndirmək, onlara milli kimliklərini, mədəni irslərini tanıtmaq imkanı yaratmaq, eyni zamanda Şuşanın əsrarəngiz təbiətini və mədəni əhəmiyyətini beynəlxalq ictimaiyyətə çatdırmaq idi. Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Macarıstandan gələn 250-yə yaxın məktəbli bu möhtəşəm festivalın iştirakçısı oldu.

### Azərbaycan mədəniyyətinin təntənəsi

Ötən ilin iyun ayı həm də Özbəkistanda Azərbaycan Mədəniyyəti Günləri ilə əlamətdar oldu. Bu tədbir Azərbaycan mədəniyyət və incəsənətinin qardaş ölkədə - Özbəkistanda növbəti təntənəsinə çevrildi. Əvvəlcə Daşkənd Universitetində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illik yubileyi ilə bağlı tədbir keçirildi. Sonra "Özbəkistan" Forumlar Sarayında keçirilən konsertdə Azərbaycanın görkəmli bəstəkarları Üzeyir bəy Hacıbəyli, Emin Sabitoğlu, Tofiq Quliyev, Rauf Hacıyev, Ələkbər Tağıyev, Faiq Sücəddinovun əsərlərinə müraciət olundu, xalq rəqsləri nümayiş etdirildi. Azərbaycan Mədəniyyəti Günlərinin tədbir və təqdimatları ədəbi-mədəni zənginliklərimizə həmişə maraq göstərən qardaş özbək xalqının yaddaşında bu dəfə də silinməz izlər qoydu.

İyul ayında mədəniyyət sahəsində hər il düzənli olaraq keçirilən daha bir beynəlxalq tədbirə - Şəki "İpək yolu" XIII Beynəlxalq Musiqi Festivalına start verildi. Azərbaycanın qədim sənət və mədəniyyət mərkəzlərindən olan Şəkidə təşkil olunan bu musiqi bayramı Mədəniyyət Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqı və Şəki Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə baş tutdu. Üç gün davam edən festivalda bir sıra ölkələrin, həmçinin Azərbaycanın tanınmış musiqi kollektivləri və istedadlı musiqiçiləri bir araya gəldi.

Keçən ilin mühüm hadisələrindən biri isə sentyabr ayında Şuşada Azərbaycanın dahi bəstəkarı Üzeyir bəy Hacıbəylinin ev-muzeyinin təntənəli açılışı oldu. Qeyd edək ki, 1992-ci ildə erməni qəsbkarları Şuşa şəhərini işğal etdikdən sonra Azərbaycanın dahi oğlu Üzeyir bəyin ev-muzeyini də qarət etmiş, dağıtmışdılar. 2020-ci ildə Vətən müharibəsində böyük Zəfərimizdən sonra Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən geniş tikinti-bərpa, quruculuq işləri çərçivəsində bu muzeyin də fəaliyyəti bərpa olundu.

Ümumiyyətlə, ötən il Qarabağ və Şərqi Zəngəzurda tarixi-mədəni irsimizin bərpası istiqamətində genişmiqyaslı işlər görüldü. Yerli və xarici mütəxəssislərin iştirakı ilə 2023-cü ildə restavrasiya və arxeoloji tədqiqat işlərinə başlanılan Ağdam İmarət Kompleksinin də açılışı keçirildi. Açılışda iştirak edən Prezident İlham Əliyev kompleksdə yaradılan şəraitlə tanış oldu, düşmən tərəfindən məhv edilən tarixi çinarların yerində ağac əkdi.

2024-cü il sentyabrın 24-dən 26-dək Qazaxıstanın paytaxtında Azərbaycan Mədəniyyəti Günləri keçirildi. Sentyabrın 24-də "Füzuli-530" kitabının təqdimatı və etnocaz konserti, növbəti gün Qazaxıstan və Azərbaycan milli kitabxanaları arasında əməkdaşlığa dair Memorandumun imzalanması mərasimi, "Azərbaycan mədəniyyətinin inciləri" sərgisinin açılışı və rəqs ansamblının konserti keçirildi. Qazaxıstanda keçirilən Azərbaycan Mədəniyyəti Günləri mədəniyyətimizin beynəlxalq səviyyədə tanıdılmasında, eləcə də iki qardaş ölkə arasında əlaqələrin daha da güclənməsində təqdirəlayiq oldu.

İlin sonlarında IV Şəki Beynəlxalq Teatr Festivalı keçirildi. Festivalın açılış mərasimi Şəki Dövlət Dram Teatrında təşkil olundu. Şəkidə milli peşəkar teatrın yaranmasının 145 illiyinə həsr edilən festivalda ölkəmizin teatrları ilə yanaşı, Qazaxıstan, Özbəkistan və İrandan teatr kollektivləri də iştirak etdilər. Respublikamız bu tədbirdə Azərbaycan Dövlət Akademik Musiqili Teatrı, Gəncə Dövlət Milli Dram Teatrı və Şəki Dövlət Dram Teatrı ilə təmsil olundu.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Sənət ocaqlarımız

## Teatrda həm klassik, həm də müasir əsərlər tamaşaya qoyulur

**Teatr yarandığı gündən tamaşaçıları düşündürən, güldürən, heyrətləndirən və şənləndirən mədəniyyət ocağı olub. Bəlkə də elə buna görədir ki, insanlar daim bu maraqla tez-tez teatra üz tutublar. 97 ildir ki, Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrı da tamaşaçıları özünə beləcə cəlb edir.**





Teatrın yaradıcı kollektivi mövsüm başlayandan bir-birindən maraqlı səhnə əsərləri hazırlayaraq ictimaiyyətin ixtiyarına verib. Son dövrdə Xalq artisti Naibə Allahverdiyevanın 60 illik yubileyi münasibəti ilə "Gerçəkləşməyən arzular" adlı tamaşanın nümayişi keçirilib. Bundan başqa, ötən müddət ərzində Xalq artistləri Firəngiz Şərifova və Hüseynağa Sadıqovun yubileyləri də teatrda təntənə ilə qeyd olunub.

Teatrın yaradıcı kollektivi həmişə olduğu kimi, bu mövsümdə də diqqət çəkən tamaşalar səhnələşdirib. "Ümid nəğməsi" gənc dramaturq Pərviz Seyidlinin pyesi əsasında hazırlanıb. Tamaşanın quruluşçu rejissoru Əməkdar artist Nicat Kazımov, rəssamı Nisə Həsənova, musiqi tərtibatçısı Zaur Rəşidovdur. Abdulla Şaiqin eyniadlı əsəri əsasında "Tıq-tıq xanım" tamaşası da səhnəyə qoyulub. Tamaşanın quruluşçu rejissoru və səhnələşdirmə müəllifi Əməkdar artist Nicat Kazımovdur. Bu əsər Lənkəran Dövlət Dram Teatrına qastrol səfərində də nümayiş olunub. "Qaraca qız" tamaşası Abdulla Şaiqin əsəri əsasında qurulub. Tamaşanın quruluşçu rejissoru Xalq artisti Cənnət Səlimova, rejissoru Əməkdar artist Nofəl Vəliyevdir. Onu da qeyd edək ki, bu səhnə əsəri iki heyətlidir. Teatrın istedadlı aktyorları "Qaraca qız" tamaşasında rolları yüksək peşəkarlıqla canlandırıblar.

"Fiqaronun toyu" tamaşası fransız dramaturqu Pyer Bomarşenin pyesi əsasında səhnələşdirilib. Böyük maraqla qarşılanan bu tamaşanın quruluşçu rejissoru Əməkdar artist Nicat Kazımov, rəssamı Mustafa Mustafayev, musiqi tərtibatçısı Zaur Rəşidovdur. Ötən ilin sonlarında Əməkdar artist Şövqi Hüseynovun təqdimatında "Mən Feyerbaxam" monotamaşası da təhvil verilib. Alman dramaturqu Tankret Dorstun pyesi teatrın səhnəsində fərqli yozumla tamaşaçılara təqdim edilib. Tamaşada baş rolu Əməkdar artist Şövqi Hüseynov canlandırıb. Ötən ilin sonunda balaca tamaşaçılara Pərvin Nurəliyevanın eyniadlı pyesi əsasında "Cırtdanino" - birhissəli tamaşası təqdim olunub. Səhnə əsərinin quruluşçu rejissoru Elşad Rəhimzadə, rəssamı Nisə Həsənova, musiqi tərtibatçısı Aygül Quliyevadır. Ötən ilin dekabrında "Madaqaskarlı dostların Yeni il sərgüzəştləri" adlı tamaşa da tamaşaçıların ixtiyarına verilib.



Tamaşaların hazırlanmasında kollektiv bütün bacarığını ortaya qoyur. Məsələn, "Tıq-tıq xanım" tamaşasında rejissor assistenti Fuad Cavadzadə, rəssam Mustafa Mustafayev və rejissor Müşfiq Əliyev kimi yaradıcı insanlar böyük həvəslə iştirak ediblər. Aktyorların hamısı onun yüksək səviyyədə hazırlanmasına töhfələrini veriblər, bütün səyləri ilə çalışıblar.

Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrı 97-ci mövsümün ikinci rübünə Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhminin "Şahnamə" pyesi əsasında hazırladığı tamaşa ilə başlayıb. Əsərin səhnələşdirilməsində teatrın aktyor heyətinin əksəriyyəti iştirak edib. Tamaşa teatrsevərlər tərəfindən böyük maraqla qarşılanıb.

Teatrın yaradıcı kollektivi "Kontrabas", "Dəlinin qeydləri" monotamaşaları ilə müxtəlif ölkələrdə keçirilən beynəlxalq festivallarda iştirak edib. Özbəkistan Respublikasının Daşkənd şəhərində keçirilən "Uşaqlar XXI əsrdə" I Beynəlxalq Uşaq Teatrları Festivalında Pərviz Seyidlinin pyesi əsasında hazırlanan "Ümid nəğməsi" adlı tamaşa uğurla təqdim edilib. Özbəkistan səfəri həm beynəlxalq mədəni əlaqələrin möhkəmləndirilməsində, həm də teatrın tanıdılması baxımından böyük əhəmiyyət daşıyıb. Bu səfər həmçinin teatrın aktyorlarının yaradıcılığını xarici ölkələrdə təqdim etməyə və tanıtmağa da imkan yaradıb. Ötən müddət ərzində teatrın respublikanın regionlarına da qastrol səfərləri təşkil olunub və böyük uğurlar qazanılıb.

Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrının yaradıcı kollektivi 97-ci teatr mövsümünün sonuna qədər səhnələşdirəcəkləri bir-birindən maraqlı əsərləri ilə tamaşaçılarını sevindirməyə davam edəcək. Teatrın yaradıcı kollektivi repertuarına həm klassik, həm də müasir əsərləri daxil edir. Bir-birindən maraqlı səhnə əsərləri ilə uzun illərdir ki, tamaşaçıları düşündürür və heyrətləndirir.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## "İrs" jurnalının yapon dilində növbəti nömrəsi işıq üzü görüb

**"İrs" beynəlxalq jurnalının yapon dilində növbəti nömrəsi nəşr olunub. Jurnalda Azərbaycan reallıqları, habelə ölkəmizin milli-mədəni mirası, o cümlədən tarixi və mədəniyyəti haqqında məlumatlar təqdim edilib.**




Nəşrdə həmçinin Bakıda keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29), işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işləri, ölkəmizdə mövcud olan tolerantlıq və multikulturalizm ənənələri, Azərbaycanın tarixi memarlıq abidələri haqqında məqalələr yer alıb. Buraxılışda Yaponiyanın ölkəmizdəki səfiri Katsuya Vatanabenin iki ölkə arasında əməkdaşlığa dair məqaləsi də verilib.

Qeyd edək ki, "İrs" jurnalı xalqımızın tarixi, mədəniyyəti, incəsənəti və milli-mədəni irs nümunələrinin təbliğində, həmçinin Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasında əhəmiyyətli rol oynayır.

Jurnalın nüsxələri Yaponiyanın dövlət və hökumət qurumlarına, elmi-tədqiqat institutları və beyin mərkəzlərinə, kitabxanalara və ali təhsil ocaqlarına göndərilir, habelə ölkəmizin Yaponiyadakı səfirliyinin keçirdiyi tədbirdə qonaqlara təqdim edilir.

## Bakıda Rus evində Xalq yazıçısı Natiq Rəsulzadənin kitabının təqdimatı olub

**"Bir çox oxucu daima bu kitabı harada tapmaq mümkün olduğunu soruşurdu. Hətta ədəbi birlikdə də onu əldə etməyə çalışıblar, lakin sovet dövründə nəşr edilən kitabı tapmaq demək olar ki, mümkünsüz oldu".**

Bu barədə Azərbaycanın Xalq yazıçısı Natiq Rəsulzadə Bakıdakı Rus evində keçirilən yeni kitabın, dilogiya - "Gecədə atlı" povestinin və "Poker oyunu" romanının təqdimat mərasimində bildirib.

Kitabın ilk əsəri yazıçının 1981-ci ildə yaratdığı və oxucuların geniş rəğbətini və məhəbbətini qazanmış məşhur "Gecədə atlı" povestidir. İkincisi, povestin davamı, 2024-cü ildə yazılmış "Poker oyunu" romanıdır. Burada müəllif otuz ildən sonra baş verən hadisələrdən, qəhrəmanının taleyindən, çətin sınaqlardan keçdiyi, lakin yıxılmadığı və məqsədinə çatdığı ömür yolundan bəhs edir.

Natiq Rəsulzadə Azərbaycanın Xalq yazıçısı, Qorki adına Ədəbiyyat İnstitutunun məzunu, nasir, dramaturq, ssenarist, Əməkdar incəsənət xadimi, "Şöhrət" ordenli, bir çox yerli və xarici ədəbi mükafatın laureatı, Bakı, Moskva və Avropa ölkələrində nəşr olunmuş 50-dən çox kitabın, çoxsaylı povest, hekayə, ssenari və pyesin müəllifidir.

O deyib ki, illər sonra oxucular kitabın tarixçəsinə, qəhrəmanın taleyinə maraq göstərməkdə davam ediblər. Məhz bu, müəllifi kitabı davam etdirmək barədə düşünməyə vadar edib.



"Zaman keçdikcə düşünməyə başladım: o kitabdakı baş qəhrəmanın taleyi yarımçıq qaldı, ən həyəcanlı anda kəsildi. Bu, xüsusi olaraq edilib ki, oxucular personajla daha dərindən empatiya qura bilsinlər, onun taleyi haqqında düşünsünlər və bunun necə baş verdiyini təsəvvür etsinlər. Məhz oxucuların sönməz marağı məni əsərin davamını yaratmağa vadar etdi", - deyə yazıçı qeyd edib.

Müəllifin dediyinə görə, o, bu yaxınlarda yeni kitab üzərində işləməyə başlayıb və birdən dərk edib ki, elə həmin hekayənin davamını yazır.

"Təxminən 30-40 səhifə yazdım və birdən başa düşdüm ki, bu, hələ 1981-ci ildə hekayəsi yarımçıq qalmış bir qəhrəmanın həyatının davamıdır. Ötən illər ərzində onun həyatı əsaslı olaraq dəyişdi və o, tamam başqa bir yol tutdu. Bilirsiniz, bunun davamı məni o qədər cəlb etdi ki, kitab nəşr etmək qərarına gəldim", - deyə o əlavə edib.

## Tanınmış rəssamın əsərlərindən ibarət kataloq-albom çap olunub

**Bu günlərdə görkəmli sürrealist rəssam Soltan Soltanlının rəngkarlıq və qrafika əsərlərindən ibarət "Anlam" adlı kataloq-albomu işıq üzü görüb. 96 səhifəlik kataloqda rəssamın son illərdə yaratdığı əsərlər yer alıb.**




Nəşr müəllifin "Ön söz"ü ilə başlayır. Rəssam qeyd edir ki, sərgi salonları, teatrlar, kino zalları, kitabxanalar, bir sözlə, sənət ocaqları - dünyəvi insanların məbədidir: "Fikrimcə, rəsm əsəri tamaşaçıyla danışmalı, özünü ona izhar etməli, tablo ilə seyrçi arasında hansısa anlaşılmazlıq qalmamalıdır. Ona görə bu albomda görəcəyiniz əsərlərimi mümkün olduqca "danışdırmışam", ən dərin anlamları onlara yükləmiş, düşüncə və duyğularımı tamaşaçılara sadə yolla çatdırmağa çalışmışam".

Albomun sonunda rəssam haqqında bilgilər yer alır.

Bildirək ki, Soltan Soltanlı 1997-ci ildən ölkəmizi rəssamlıq üzrə beynəlxalq yarışma, festival və sərgilərdə əsərləri ilə təmsil edir. Rəssam çoxlu beynəlxalq mükafatlar qazanıb, əsərləri 50-dən çox ölkədə muzey və şəxsi kolleksiyalarda yer alır.

# Gəncə Dövlət Universitetinin daha bir uğuru

Dünyanın nüfuzlu reytinq təşkilatlarından olan Times Higher Education tərəfindən hər il təşkil olunan Asia Ali Təhsil Mükafatlarının (THE Award Asia) 2025-ci il üçün qısa siyahısı açıqlanıb. Gəncə Dövlət Universiteti (GDU) Azərbaycan universitetləri arasında ilk dəfə Times Higher Education Asiya Ali Təhsil Mükafatları Müsabiqəsində Ətraf Mühit kateqoriyasında seçilmiş 8 universitet siyahısına düşüb.




Ali təhsil məkanında "Ali təhsilin Oskarı" kimi qəbul olunan bu mükafatlar regionda ali təhsildə diqqətəlayiq nailiyyətləri qeyd etmək üçün maraqlı bir platformadır. Bu müsabiqədə Gəncə Dövlət Universiteti "Ətraf Mühitə Verilən Müstəsna Töhfə" kateqoriyasına qatılmışdır. Universitet müsabiqəyə Avropa Yenidənqurma və İnkişaf Bankı, Qafqaz Regional Ekoloji Mərkəzi, İngiltərənin Atkins Realis təşkilatı və nəhayət, Gəncə Dövlət Universitetindən ibarət konsorsiumun birgə hazırladığı Gəncə Yaşıl Şəhər Fəaliyyət Planına verdiyi töhvələr əsasında müraciət etmişdir.

Times Higher Education tərəfindən verilən məlumata görə, müsabiqə 10 kateqoriya üzrə keçirilmiş və hər kateqoriya üzrə 8 universitet qısa siyahıya düşmüşdür. Müsabiqəyə 500-dən çox universitet müraciət etmişdir. Qeyd edək ki, 2019-cu ildən indiyə kimi təşkil olunan müsabiqədə ilk dəfə olaraq Azərbaycan və ümumiyyətlə, Cənubi Qafqazı təmsil edən bir universitet THE Awards müsabiqəsində qısa siyahıya düşmüşdür. Müsabiqənin qalibləri isə 22 apreldə - THE Asiya Universitetləri Sammitinin ilk günündə Makao Elm və Texnologiya Universitetində keçiriləcək mükafatlandırma mərasimində elan ediləcək.

Qeyd edək ki, Gəncə şəhəri Azərbaycanda ilk pilot şəhər olaraq Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) Yaşıl Şəhərlər Proqramına qoşulmuşdur. Bu proqram çərçivəsində Gəncə Dövlət Universitetinin Dayanıqlı Ağıllı Şəhərlər Mərkəzinin tərəfdaşlığı ilə Avropa Yenidənqurma və İnkişaf Bankı, Qafqaz Regional Ekoloji Mərkəzi və İngiltərənin Atkins Realis təşkilatından ibarət konsorsium Gəncə şəhərinin Yaşıl Şəhər Fəaliyyət Planını hazırlamışdır. Bu plan 15 illik bir dövr üçün hazırlanıb və Gəncə şəhərində çirklənmiş ərazilərin təmizlənməsi, ağıllı texnologiyalardan istifadə etməklə enerji səmərəliliyini artırmaq, yaşıl ərazilərin salınması, yeni ictimai nəqliyyat şəbəkəsinin, içməli su və çirkab su xətləri infrastrukturunun yaradılması, həmçinin bərk məişət tullantılarının idarə edilməsi kimi məsələləri əhatə edir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# AİI-nin tələbələri təhsillərini Qazaxıstanda davam etdirəcəklər





Azərbaycan İlahiyyat İnstitutunun (AİI) tələbələri təhsillərini 2024-2025-ci tədris ilinin yaz semestri ərzində Qazaxıstan Respublikasının Almatı şəhərində fəaliyyət göstərən "Nur-Mübarək" Misir İslam Mədəniyyəti Universitetində davam etdirəcəklər.

Mübadilə "Nur-Mübarək" Misir İslam Mədəniyyəti Universiteti ilə Azərbaycan İlahiyyat İnstitutu arasında 2021-ci ildə imzalanmış əməkdaşlıq müqaviləsi çərçivəsində həyata keçirilir.

Əməkdaşlıq müqaviləsinə əsasən, sayca 4-cü tələbə mübadiləsi çərçivəsində AİI "İslamşünaslıq" ixtisasının III kurs tələbələri - Əli Nəzərov və Turqut Alışov "Nur-Mübarək" Misir İslam Mədəniyyəti Universitetində bir semestr ərzində ərəb dilində təhsil alacaqlar.

"Nur-Mübarək" Misir İslam Mədəniyyəti Universitetində rektor Əhməd Həsən Məhəmməd İbrahimin tələbələrlə və AİI-nin xarici əlaqələr üzrə baş mütəxəssisi Şahin Ələsgərovla görüşü təşkil olunub. Görüşdə hər iki ali təhsil müəssisəsi arasında əməkdaşlıq əlaqələrinin mövcud vəziyyətindən məmnunluq ifadə olunub. Bu əlaqələrin gələcəkdə daha da inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində Azərbaycan Respublikasının Qazaxıstan Respublikasındakı səfirliyinin müşaviri və Almatı şəhərindəki konsulu Anar Hüseynzadə ilə də tələbələrin görüşü baş tutub. A.Hüseynzadə tələbələrə təhsillərində uğurlar diləyib, AİI-nin bu istiqamətdə gördüyü işləri yüksək qiymətləndirib.

Daha sonra AİI-nin nümayəndə heyətinin "Nur-Mübarək" Misir İslam Mədəniyyəti Universiteti İslamşünaslıq fakültəsinin dekanı Məhəmməd Vardani, akademik işlər üzrə şöbənin müdiri Maxmet Muratxan, Təhsil məsələləri və sosial inkişaf şöbəsinin müdiri Şaizan Bauyrjan və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Talifa Maratkızı ilə görüşü keçirilib.

***"Azərbaycan"***

# Gürcüstan Milli Əqli Mülkiyyət Mərkəzi Azərbaycana məxsus musiqi əsərlərinin hüquqlarının pozulması məsələsinə aydınlıq gətirəcək

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi Gürcüstan Milli Əqli Mülkiyyət Mərkəzi - "SAKPATENTİ"nin rəhbərliyinə məktub göndərib.

Agentlikdən AZƏRTAC-a bildirilib ki, məktubda Gürcüstanın 1TV.CE, "İMEDİ" və "Rustavi" telekanallarında Azərbaycana məxsus "Basqalı" rəqsinin "Somxuri şalaxo" - erməni şalaxosu" kimi təqdim edilməsinin və "Bu qala, daşlı qala" adlı Azərbaycan xalq mahnısından istifadə olunarkən onun mənbəyinin və mənsub olduğu xalqın adının göstərilməməsinin səbəblərinin araşdırılaraq müvafiq tədbirlərin görülməsi, bu barədə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə məlumat verilməsi və bir daha belə halların təkrarlanmaması üçün məsələnin daim nəzarətdə saxlanılması xahiş edilib. Həmçinin bildiririk ki, hüquq pozuntularını təsdiq edən müvafiq materiallar da "SAKPATENTİ"yə təqdim edilib. "SAKPATENTİ" bu məsələ ilə bağlı Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinə cavab olaraq bildirib ki, Gürcüstanda yayımlanan televiziya kanallarında musiqi əsərlərinin hüquqlarının pozulması ilə bağlı qeyd edilən məsələyə aydınlıq gətirəcək.

"SAKPATENTİ" hüquq pozuntuları ilə bağlı daha ətraflı hüquqi məlumat və vasitələr təqdim etməklə yanaşı, bu cür pozuntuların qarşısının alınması və hüquqların bərpası üçün tədbirlərin görülməsi məqsədilə müvafiq televiziya kanallarına müraciət edib, məsələyə dair hərtərəfli araşdırma və cavab məktubu gözləyir. Əlavə olaraq, bu məsələyə dair məhkəmə və hüquqi mexanizmlərin də daha geniş şəkildə tətbiq olunacağı xüsusi qeyd olunub.

"SAKPATENTİ" rəhbərliyi bildirib ki, bu məsələyə dair təhlil və cavabları diqqətlə izləyəcək, hüquqi mübahisələrin həlli üçün lazımi tədbirləri görməyə davam edəcəkdir.

# Mixail Qusmanın "Hakimiyyət formulu" müsahibələr toplusunun beşinci cildi çapdan çıxıb

Mixail Qusmanın "Hakimiyyət formulu" müsahibələr toplusunun beşinci cildi çapdan çıxıb.

AZƏRTAC TASS agentliyinə istinadla xəbər verir ki, agentliyin baş direktorunun birinci müavininin yeni kitabında onun Azərbaycanın Ümummilli Lideri Heydər Əliyev ilə müsahibəsindən parçalar da yer alıb.

Müəllifin 75 yaşının tamam olduğu gün işıq üzü görən kitabda 75 müsahibə var, onun çapdan çıxması isə "Hakimiyyət formulu" müəllif teleproqramının 25 illiyinə həsr olunub.

M.Qusman qeyd edib: "Teleproqramın gümüş yubileyi əlamətdar hadisədir. Bu 25 il ərzində biz dövlət və hökumət başçıları, krallar, prezidentlər, həmçinin böyük beynəlxalq təşkilatların rəhbərləri ilə təqribən 500 müsahibə hazırlamışıq. Söhbətlərin hamısı unikaldır, çünki nadir həmsöhbətlərlə aparılıb". Müəllif əmindir ki, onun qəhrəmanlarının portretləri mötəbər və inandırıcı olub, həmsöhbətlərin istedadını, biliklərini, böyük şəxsi keyfiyyətlərini əks etdirib.



"Hakimiyyət formulu" kitabının yeni cildində 2020-2024-cü illəri əhatə edən müsahibələr yer alıb. Jurnalistin həmsöhbətləri arasında Monako Knyazı II Alber, İsveç Kralı Karl XVI Qustav və kraliça Silviya, Danimarka kraliçası II Marqrete, Norveç Kralı V Harald, CXR-in Sədri Si Cinpin, Hindistanın Baş naziri Narendra Modi, BMT-nin Baş katibi Antonio Quterreş, həmçinin Avropa, postsovet məkanı və Afrikanın başqa liderləri olublar.

# İdmançılarımızın Paris olimpiadasında qazandığı medallarla bağlı Beynəlxalq Olimpiya Komitəsinə müraciət edilib

Milli Olimpiya Komitəsi Fransanın paytaxtı Parisdə keçirilmiş XXXIII Yay Olimpiya Oyunlarında yer tutan Azərbaycan idmançılarının medallarının keyfiyyətini itirməsi ilə bağlı Beynəlxalq Olimpiya Komitəsinə müraciət edib.

MOK-dan AZƏRTAC-a bildiriblər ki, idmançıların müraciəti əsasında araşdırmalar aparılıb və nəticədə məlum olub ki, cüdo üzrə Olimpiya çempionu Hidayət Heydərov (73 kiloqram) və sərbəst güləş üzrə bürünc mükafatçı Maqomedxan Maqomedovdan (97 kiloqram) başqa, digər beş idmançının medallarında nəzərəçarpan dərəcədə dəyişiklik baş verib.

Məlum olub ki, cüdo üzrə Olimpiya çempionu Zelim Kotsoyevin (100 kiloqram) qızıl, taekvondoçu Qaşim Maqomedovun (58 kiloqram) və boksçu Alfonso Dominqesin (92 kiloqram) gümüş, yunan-Roma güləşçisi Həsrət Cəfərovun (67 kiloqram) və sərbəst güləşçi Giorgi Meşvildişvilinin (125 kiloqram) bürünc medalları keyfiyyətini itirib.

Milli Olimpiya Komitəsi bu araşdırmaların nəticəsi olaraq Beynəlxalq Olimpiya Komitəsinə (BOK) rəsmi müraciət ünvanlayıb. BOK-dan bu müraciətlə bağlı cavab gəldikdən sonra medalların geri qaytarılması və yeniləri ilə əvəz olunması ilə bağlı növbəti addımlar atılacaq.

# Ölkəmiz 56-cı Qahirə Beynəlxalq Kitab Sərgisində təmsil olunur

Bu gün Misirdə 56-cı ənənəvi Qahirə Beynəlxalq Kitab Sərgisi öz işinə başlayıb. Kitab sərgisinə 80 ölkədən 1300-dən artıq nəşriyyat qatılıb. Misirdəki səfirliyimizin dəstəyi ilə sərgidə ölkəmizin kitab stendi yaradılıb.

AZƏRTAC xəbər verir ki, Misirin bir sıra nazirliklərinin rəhbərləri, xarici ölkə səfirliklərinin nümayəndələri, o cümlədən Azərbaycan səfirliyinin əməkdaşları sərginin açılış günündə iştirak ediblər.

Azərbaycana dair yeni nəşr olunan qiymətli kitabların nümayiş olunduğu milli stendi Misirin vəqflər naziri Usamə əl-Əzhəri və mədəniyyət naziri Əhməd Fuad Henno ziyarət ediblər. Onlara ölkəmizin tarixi, mədəniyyəti ilə bağlı geniş məlumat verilib. Stendimizdə nümayiş olunan kitablar sonda kitab həvəskarlarına hədiyyə olunacaq.

Fevralın 5-dək davam edəcək sərgi çərçivəsində 600 mədəni tədbirin, o cümlədən simpoziumların, uşaqlara həsr olunmuş təqdimatların keçirilməsi planlaşdırılır.

Oman Sultanlığı builki tədbirdə fəxri qonaq qismində çıxış edir. Mərhum misirli alim dr. Əhməd Mustəcir sərginin və yazıçı Fatimə əl-Mədul isə uşaq kitabları sərgisinin simaları seçiliblər.

Qeyd edək ki, 1969-cu ildən keçirilən Qahirə sərgisi Yaxın Şərqin ən böyük kitab sərgilərindəndir. Bu, Frankfurt sərgisindən sonra 2006-cı ildə dünyada ən böyük ikinci kitab sərgisi hesab edilib. Ötən il sərgini 5 milyona yaxın insan ziyarət edib.

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı YAP İdarə Heyətinin üzvü Fuad İbrahimova atası

**NATİQ İBRAHİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Abşeron rayon Vəkil Bürosunun kollektivi Azərbaycan Respublikası Vəkillər Kollegiyası Mətbuat xidmətinin rəhbəri İsmayıl Nəsibova anası

**FAZİLƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Tahir Budaqov Hüseyn Mövsümov və Aqiyə Naxçıvanlıya əzizləri

**MAHİR NAXÇIVANSKİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Konfederasiyanın sədr müavini Hikmət Osmanova əzizi

**İLHAM ALIŞANOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhəri Nizami Rayon İcra Hakimiyyətinin rəhbərliyi və kollektivi "Azərsun Holdinq"in prezidenti

**ABDOLBARİ GOZALIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi Aşqarlar Kimyası İnstitutunun Baş direktoru, AMEA-nın həqiqi üzvü, professor Vaqif Fərzəliyevə bacısı, Əməkdar müəllim

**MARAL XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

TuranBank ASC-nin rəhbərliyi və kollektivi bankın Qaradağ filialının direktoru Seyran Quliyevə əzizi

**NURAY QULUZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3333**
**Sifariş 136**

**Qiyməti 60 qəpik**